**Hər kəs ədalətli olacaq**

**www.adalet.az**

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 18 (6160) 15 may 2026-cı il | Qiyməti 40 qəpik

# Dünyanın gözü Bakıda




**2026-cı il mayın 17-dən 22-dək Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü sessiyası üçün rəsmi sosial media səhifələri artıq fəaliyyətə başlayıb. Məqsəd davamlı şəhər inkişafı üzrə ən böyük qlobal tədbirə hazırlıq prosesi və Forum üzrə həyata keçirilən layihələr barədə yerli və beynəlxalq auditoriyanı məlumatlandırmaqdır.**

**Adalet.az xəbər verir ki, BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycan Respublikası Hökuməti arasında əməkdaşlıq çərçivəsində keçiriləcək forum dünyanın müxtəlif ölkələrindən hökumətləri, bələdiyyələri, özəl sektorları, vətəndaş cəmiyyətlərini, gəncləri və akademik dairələri, habelə beynəlxalq təşkilatların təmsilçilərini bir**

## Nazir Vilayət Eyvazov Bakıda sıra baxışı keçirdi



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 12-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Adalet.az xəbər verir ki, Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 166 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

## "Rəmiş" yeni yaşama vəsiqə aldı

Bax:səh-4

## *BMT: Əfqanıstanda 13 milyondan çox insan ərzaq çatışmazlığı ilə üzləşib*



**Ümumdünya Ərzaq Proqramı (ÜƏP) bildirir ki, Əfqanıstan ciddi iqtisadi problemlər, iş yerlərinin itirilməsi və iqlim sarsıntıları ilə üzləşməyə davam edir. Eyni zamanda, artan regional gərginlik ərzaq qiymətlərinin artmasına və ölkə daxilində ərzaq təhlükəsizliyi probleminin kəskinləşməsinə səbəb olub.**

Adalet.az xəbər verir ki, BMT-nin məlumatlarına görə, hazırda Əfqanıstanda 13,8 milyondan çox insan kəskin qida təhlükəsizliyi ilə üzləşib. Təxminən beş milyon uşaq və hamilə və ya əmizdirən qadınlar isə qida çatışmazlığından əziyyət çəkir.

ÜƏP xəbərdarlıq edir ki, artan iqtisadi və humanitar təzyiqlər qida çatışmazlığı ilə üzləşən qadın və uşaqların müalicəsi üçün istifadə olunan ixtisaslaşmış ərzaq məhsullarını ehtiyatının tükənməsinə gətirib çıxarıb.

"TOLOnews" yazır ki, ÜƏP-in Əfqanıstan üzrə nümayəndəliyinin direktoru Con Eyliffe bildirib: "Ərzaq yardımın göstərilməsi kimi proqramlar ikinci dərəcəli deyil, onlar mühüm əhəmiyyət kəsb edir".

## İlk tramvay xətti Bakıda bu istiqamətdə olacaq



**Tramvay uzun müddətdir müzakirə olunan mövzulardan biridir. 2025-2030-cu il dövlət proqramında tramvay haqqında xüsusi maddələr qeyd olunub.**

Adalet.az xəbər verir ki, bunu "Bakı Metropoliteni" QSC-nin sədri Vüsal Aslanov Trend Beynəlxalq İnformasiya Agentliyinə və "Azad Azərbaycan" Televiziyasına (ATV) müsahibəsində deyib.

O bildirib ki, hazırda tramvayın konseptual planı hazırlanır. İlkin olaraq Mehdiabad ərazisindən Bakı şəhərinin mərkəzinə alternativ bir neçə variant müzakirə edilərək tramvayın çəkilməsi planlaşdırılır. "Bakıda gələcəkdə 5 fərqli istiqamət üzrə tramvay olması planlaşdırılır. İlkin perspektivdə əhalinin sıx məskunlaşdığı və kütləvi ictimai nəqliyyat həllinə çıxışı olmayan ərazilərə tramvayın çəkilməsi nəzərdə tutulur. Məqsəd odur ki, tramvay metronu və avtobusu əvəzləməsin, əksinə, onları birləşdirən vasitə olsun", - deyə "Bakı Metropoliteni" QSC-nin sədri əlavə edib.

## Hərbçilərimiz paraşüt təlimində



**Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusunun iştirakı ilə Türkiyədə keçirilən "EFES - 2026" çoxmillətli təlimində növbəti tapşırıqlar uğurla icra olunub.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən xəbərə görə, təlimin planına uyğun olaraq, Azərbaycan, Türkiyə və Macarıstanlı hərbçilər tərəfindən paraşüt hazırlığı üzrə müxtəlif tapşırıqlar praktiki yerinə yetirilib. Müxtəlif yüksəkliklərdən paraşüt tullanışları zamanı iştirakçı ölkələrin və "EFES-2026" təliminin bayrağı daxil olmaqla ümumilikdə 53 bayraq Türkiyə səmasında dalğalandırılıb.

Qeyd edək ki, hərbi qulluqçularımız digər iştirakçılarla birgə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

*Əbülfət MƏDƏTOĞLU*

## ÇIXA BİLMƏDİYİM LABİRİNT

Bax:səh-8

## Bakıda ictimai nəqliyyatda ilk - Üztanıma ilə ödəniş olacaq

**Bakı Dəmiryol Vağzalında üztanıma ilə ödəniş sisteminin tətbiqinə hazırlıq gedir.**

Adalet.az Trend-ə istinadən xəbər verir ki, yaxın günlərdə bu sistemin sərnişinlərin istifadəsinə veriləcəyi gözlənilir. Bu sistem tətbiq olunacağı təqdirdə ictimai nəqliyyatda bir ilk olacaq.

## GÜNÜN LƏTİFƏSİ

Katibə müdirin otağına girib deyir:

**- Müəllim, qonaqlar gəldi. 3 ingilisdi, müqavilə ilə bağlı gəliblər.**

**- Gəldilər? Əla. Çağır gəlsinlər...**

Səliqəli geyinmiş qonaqlar katibə ilə otağa daxil olurlar.

Müdir dərhal ingilis dilində bildiyi bir-iki kəlməni deməyə başlayır:

**- Qud moning... Velkammm - beləcə bir neçə sözü ardıcıl deyir.**

Sonra katibəyə tərəf çevrilib:

**- Azzz, bu 3 xiyara çay gətir...tez.**

Qonaqlardan biri dərhal dillənir:

**- Müəllim, iki xiyara. Mən tərcüməçiyəm...**

# İlham Əliyev Fərman imzaladı



**"Yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri barədə hesabatların və məlumatların təqdim edilməsi haqqında" Fərmana dəyişiklik edilib.**

Bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Dəyişikliyə əsasən, Azərbaycan Respublikasının Baş naziri, Baş nazirinin müavinləri, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən yüksək səviyyəli nümayəndə heyətinin xarici dövlətlərə və xarici dövlətlərin nazirliklərinin və ya eyni statuslu dövlət orqanları rəhbərlərinin müavinləri və ya daha yüksək vəzifəli şəxsləri, beynəlxalq təşkilatların rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən yüksək səviyyəli nümayəndə heyətinin Azərbaycan Respublikasına, habelə rəhbəri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan dövlət adından yaradılan publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin xarici dövlətlərə və xarici dövlətlərin eyni statuslu vəzifəli şəxsləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin Azərbaycan Respublikasına edəcəyi səfərlər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılacaq, səfərlərin nəticələrinə dair hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

Səfərin proqramı (səfər üzrə hər bir tədbirin adı, məzmunu, iştirakçıları, yeri, tarixi) və əhəmiyyəti, tədbirdə əyani iştirakın zəruriliyi, ezamiyyə xərcləri və digər xərclər, maliyyələşmə mənbəyi, səfərdən gözlənilən nəticələr (effektivliyə dair proqnoz), nümayəndə heyətinin rəhbəri, digər üzvləri və onların iştirakının zəruriliyi barədə məlumat səfərin başlanmasına ən geci on beş iş günü qalmış təqdim edilməlidir. Məlumatı bu müddət ərzində üzrlü səbəblərə görə təqdim etmək mümkün olmadıqda, həmin məlumat üzrlü səbəblər əsaslandırılmaqla daha qısa müddətdə təqdim edilir.

Azərbaycan Respublikasını təmsil edən nümayəndə heyətinin tərkibinə iki və daha artıq dövlət orqanının (qurumunun) nümayəndələri daxil olduqda, bu Fərmanın 4-cü hissəsinin birinci cümləsində nəzərdə tutulan məlumatlar və nümayəndə heyətinin rəhbərinə dair təklif həmin dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla təqdim edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etməlidir.

# Prezident İlham Əliyev Paraqvay Prezidentinə məktub ünvanlayıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Paraqvay Respublikasının Prezidenti Santyaqo Penyaya məktub ünvanlayıb.**

Məktubda qeyd olunub:

"Hörmətli cənab Prezident,

Paraqvay Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Paraqvay arasındakı dostluq münasibətlərinin inkişafı, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə genişlənməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Paraqvay xalqına əmin-amanlıq və rifah diləyirəm".

# Azərbaycanla Türkiyə arasında konsulluq məsləhətləşmələri keçirilib

**12 may tarixində Ankara şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi arasında növbəti konsulluq məsləhətləşmələri keçirilib.**

XİN-dən Adalet.az-a verilən xəbərə görə, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin rəisi Emil Səfərov və Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin Konsulluq məsələləri və Xaricdə yaşayan Vətəndaşlar Baş idarəsinin rəisi Gülsun Erkul rəhbərlik edib.

Məsləhətləşmələrin birinci hissəsində iki ölkə arasında konsulluq sahəsində ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti, o cümlədən sahə üzrə müqavilə-hüquq bazasının inkişaf etdirilməsi, iki dövlətin vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, onlara zəruri konsulluq yardımının göstərilməsi, ədliyyə (o cümlədən hüquqi yardım), əmək və sosial müdafiə sahələrində münasibətlərin genişləndirilməsi mövzularında fikir mübadiləsi aparılıb.

Məsləhətləşmələrin ikinci hissəsinə Türkiyə nümayəndə heyətinə Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin Miqrasiya siyasəti və Viza məsələləri baş idarəsinin rəisi səfir Esin Çakıl rəhbərlik edib. Danışıqların ikinci hissəsində konsulluq sahəsində həyata keçirilmiş son yeniliklərlə yanaşı, miqrasiya və viza siyasəti barədə təcrübə mübadi-



ləsi həyata keçirilib, miqrasiya sahəsində yaranmış mövzular üzrə müzakirələr aparılıb, 2024-cü ildə Bakı şəhərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan Respublikası tərəfindən tətbiq olunan viza və miqrasiya qaydaları barədə Türkiyə tərəfinə məlumat verilib.

Məsləhətləşmələrdən sonra Azərbaycan nümayəndə heyəti Türkiyə Respublikasının Daxili İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Miqrasiya İdarəsinə (Köç idarəsi) nəzakət səfəri edib.

Nümayəndə heyəti Miqrasiya idarəsinin Əcnəbilərlə iş Baş idarəsinin rəisi Fatih Ayna ilə görüş keçirib, hazırda Türkiyə Respublikasında yaşayan Azərbaycan Respublikası vətəndaşlarımızla bağlı həyata keçirdiyimiz müxtəlif layihələrdə göstərdikləri dəstəyə görə qarşı tərəfə təşəkkür edilib, o cümlədən əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında müzakirələr aparılıb.

Görüşlərdə həmçinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Baş Prokurorluğunun, Türkiyə tərəfindən isə Türkiyə Respublikasının Ədliyyə, Daxili İşlər və digər aidiyyəti qurumlarının əməkdaşları iştirak edib.

# Deputat: "Bu, insan alveri qurbanlarının sayının azalmasına gətirib çıxara bilər"

**"Azərbaycan polisi ölkəmizdə sabitliyin və təhlükəsizliyin qarantıdır. Ali Baş Komandan İlham Əliyev daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirib, polis əməkdaşlarının dövlətçiliyin möhkəmləndirilməsində, ictimai asayişin qorunmasında və cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynadığını dəfələrlə qeyd edib".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatın müzakirəsi zamanı deputat Vüqar Bayramov deyib. O bildirib ki, işğaldan azad edilmiş torpaqlarda dövlətin suverenliyinin bərpası və ictimai təhlükəsizliyin təmin olunmasında Azərbaycan polisi xüsusi töhfəyə malikdir:

"Məlumatdan göründüyü kimi, insan alverinə qarşı mübarizədə 2025-ci ildə ciddi uğurlara imza atılıb. 2025-ci ildə diqqəti çəkən ən vacib istiqamətlərdən də biri də maarifləndirmə, təlim və treyninqlərə xüsusi diqqətin ayrılmasıdır.



İnsan alveri cinayətlərinin sayında 2025-ci ilin yekununda 2024-cü il ilə müqayisədə azalmanın qeydə alınması müsbət məqamdır. Burada həmçinin, həyata keçirilən maarifləndirmə tədbirlərinin təsirlərini də qeyd etmək lazımdır.

Azalma dinamikası özünü məhkəmə məsuliyyətinə cəlb edilmiş insan alverçilərinin sayında da göstərib. İnsan alverinə qarşı mübarizə vacib istiqamətlərdən biri də məcburi əməyin qarşısının alınmasıdır. Bu sahədə qanuverici baza möhkəmləndirilməklə yanaşı, qeyri-leqal məşğulluğun da səviyyəsi azaldılmaqdadır. Bu baxımdan, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi prioritet olaraq qalmaqdadır. Hazırda 1 milyon 784 min vətəndaşımız əmək müqaviləsi ilə çalışır ki, onlardan 870,6 min nəfəri dövlət sektorunda, 913,4 min nəfəri isə özəl sektorda fəaliyyət göstərir. Son 1 ildə özəl sektorda əmək müqaviləsi ilə çalışanların sayı 33 min nəfər artıb. Bu isə məşğulluğun rəsmiləşdirilməsi ilə bağlı aparılan islahatların nəticəsi kimi xarakterizə edilir.

Hesabatda qeyd edildiyi kimi, insan alveri cinayətlərinin 97 faizinin açılması bu sahədə həyata keçirilən peşəkar fəaliyyətin nəticəsi kimi qiymətləndirilməlidir.

Milli Fəaliyyət Planı çərçivəsində institusional və struktur əməkdaşlığının gücləndirilməsi vacib istiqamətlərdəndir. Bu sahədə fəaliyyətlərin sistemləşdirilməsi və güclü koordinasiya insan alveri qurbanlarının sayının daha da azalmasına gətirib çıxara bilər".

# Azərbaycanda metro niyə dayanmışdı?

**21 aprel "Nərimanov-Ulduz" mənzilini enerji ilə təmin edən yarımstansiyada qısaqapanma baş vermiş, həmin mənzildə tuneldə tüstülənmə qeydə alınmışdı. Biz sərnişinlərin təhlükəsizliyini təmin etmək üçün əvvəlcə hadisənin fəsadlarını aradan qaldırıb sonra hərəkəti bərpa etdik.**

Adalet.az xəbər verir ki, bunu "Bakı Metropoliteni" QSC-nin sədri Vüsal Aslanov yerli mediaya verdiyi müsahibəsində deyib.

Onun sözlərinə görə hadisə zamanı təxliyə operativ şəkildə təmin olundu.

"İlk öncə baş vermiş hadisəyə görə təəssüfümü bildirirəm və sərnişinlərimizdən bir daha üzr istəyirəm.

Hadisə zamanı sərnişinlər və əməkdaşlar arasında xəsarət alan olmadı, təxliyə operativ şəkildə təmin olundu. Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi əməkdaşlarına təxliyə zamanı və ilkin tibbi xidmət göstərən TƏBİB əməkdaşlarına, Bakı metropoliteninin məlumatlarının operativ ictimaiyyətə çatdıraraq çaşqınlıq yaranmasının qarşısının alınmasında xüsusi rolu olan media nümayəndələrinə təşəkkürümü bildirirəm.

Vüsal Aslanov qeyd edib ki, Dövlət Proqramında Bakı metropoliteninin enerji dayanıqlığının təmin edilməsi xüsusi bənd kimi yer alıb: "Ümumiyyətlə, Bakı Metropoliteninin elektrik şəbəkəsi dayanıqlı qurulub - istənilən sahə iki fərqli alternativ enerji mənbəyindən qidalanır.

Dövlət Proqramında Bakı metropoliteninin enerji dayanıqlığının təmin edilməsi xüsusi bənd kimi yer alıb. 2025-ci ildə xarici ekspertləri dəvət edib enerji sistemini tam texniki auditdən keçirdik və tədbirlər planı hazırladıq.

Artıq 2025-ci ildən iki mövcud yarımstansiyanın yenidən qurulması, bir yeni yarımstansiyanın tikintisi, kabel şəbəkəsinin yenilənməsi və SCADA sisteminin yenidən qurulması istiqamətində işlər görülür".

O qeyd edib ki, dizel generatorların əsas rolu xarici enerji təchizatının əvəzlənməsinə fokuslanıb, ona görə bu halda onlardan istifadə mümkün deyil.

"Bakı Metropoliteninin 21 ədəd dizel generatoru mövcuddur, bunlar mütəmadi olaraq texniki baxışdan keçir. Bu generatorların funksiyası xarici enerji təchizatında fasilə yarandığı zaman avtomatik işə düşməkdir. Biz ildə iki dəfə qəza məşqləri keçiririk.

Lakin bu hadisədə xarici elektrik şəbəkəsində problem yox idi - metronun öz yarımstansiyasında qısaqapanma baş vermişdi. Ona görə bu halda onlardan istifadə mümkün deyil". - Vüsal Aslanov qeyd edib.

# MEDİA: Azərbaycan mediası sülhün təbliğatçısı olmaldır

**Azərbaycan sülhü sadəcə şüar kimi səsləndirmir. Adalet.az xəbər verir ki, bunu MEDİA-nın icraçı direktorunun müavini Natiq Məmmədli Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Prezident İlham Əliyevin sülh strategiyası sabitliyin qarantıdır" mövzusunda keçirilən dəyirmi masada çıxışı zamanı bildirib.**




O qeyd edib ki, Azərbaycan regionda sülh müəllifidir və bu, böyük məsuliyyət daşıyan bir ifadədir:

"Azərbaycan regionda öz gücü hesabına sülh yaradıb və bu sülh artıq dünya üçün nümunəyə çevrilib. Dünyanın əksər siyasi liderləri sülhdən danışırlar. Lakin media və beynəlxalq ictimaiyyət bu çağırışların hamısına eyni səviyyədə önəm vermir. Prezident İlham Əliyevin sülh çağırışları isə təkcə Azərbaycan və region miqyasında deyil, qlobal müstəvidə də əsas müzakirə mövzularından birinə çevrilir".

Natiq Məmmədli bildirib ki, bunun əsas səbəbi sözlə əməl arasında vəhdətin olmasıdır:

"Azərbaycan sülhü sadəcə şüar kimi səsləndirmir. Bunun arxasında dövlətin siyasi iradəsi, Prezident İlham Əliyevin qətiyyəti və həyata keçirilən real siyasət dayanır. Məhz buna görə Azərbaycan Prezidentinin sülh çağırışları dünya liderləri tərəfindən prinsipial yanaşma kimi qiymətləndirilir".

Müavin vurğulayıb ki, bu prosesdə medianın da üzərinə böyük məsuliyyət düşür:

"Azərbaycan mediası dünyada sülhün təbliğatçısı olmalıdır. Sülh prinsiplərinin təşviqi medianın əsas missiyalarından biridir. Bu, həm də media etikasının prinsipləri ilə tam uyğun gələn yanaşmadır. İnanırıq ki, Prezidentin çağırışlarından sonra media bu funksiyanı da layiqincə yerinə yetirəcək".

# Sərhədçiləri görüb narkotiki dənizə atdılar

**Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmiş İran İslam Respublikasının 3 vətəndaşı barəsində başlanmış cinayət işi üzrə ibtidai istintaq Baş Prokurorluğun İstintaq İdarəsində tamamlanıb.**



Adalet.az xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb. Bildirilib ki, istintaqla Məxtumi Sadiq Arazqurban oğlu, Atcani Taher Halət oğlu və Qanqırme Omid Çalce oğlunun satış məqsədilə xüsusilə külli miqdarda narkotik vasitələri qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasının ərazisinə keçirmələrinə əsaslı şübhələr müəyyən edilib. Araşdırmalar zamanı müəyyən olunub ki, adıçəkilən şəxslər qabaqcadan əlbir olan bir qrup şəxs halında 45 kq-dan artıq qurudulmuş, eləcə də 328 kq-dan artıq qurudulmamış marixuananı satış məqsədilə qanunsuz olaraq əldə edib "Layner" tipli mühərrikli qayıq vasitəsilə Xəzər dənizinin Azərbaycan Respublikasına aid bölməsi üzrə gömrük sərhədindən qaçaqmalçılıq yolu ilə keçiriblər.

Daha sonra həmin şəxslər Xaçmaz rayonunun sahil hissəsinə yaxınlaşarkən sərhəd orqanı əməkdaşları tərəfindən aşkar ediləcəklərini anlayaraq cinayətin predmetini təşkil edən narkotik vasitələri dənizə atıblar. Keçirilmiş istintaq və əməliyyat axtarış tədbirləri nəticəsində qeyd olunan narkotik vasitələr Xəzər dənizinin Xaçmaz rayonuna aid sahil hissəsinində və dənizin digər ərazilərində aşkar edilərək götürülüb. Toplanmış sübutlar əsasında Məxtumi Sadiq Arazqurban oğlu, Atcani Taher Halət oğlu və Qanqırme Omid Çalce oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2, 234.4-1 (satış məqsədilə xüsusilə külli miqdarda narkotik vasitələri qanunsuz olaraq əldə etmə, saxlama və daşıma) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər. İstintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə onların barəsində həbs qətimkan tədbiri seçilib. Cinayət işi üzrə ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən təsdiq edilərək baxılması üçün Sumqayıt Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# "İran xalqı "Hörmüz" ilgəyini Trampın öz boğazına keçirməyi bacardı"

**"ABŞ prezidenti Trampın Çinə planlaşdırılan və İrana qarşı əməliyyatların uzanması səbəbindən təxirə salınan dövlət səfərinin tarixi, nəhayət, açıqlanıb. Artıq həm ABŞ, həm də Çin tərəfi təsdiqləyib ki, Tramp mayın 13-15-də Çində olacaq.Hazırda dünyanın nüfuzlu beyin mərkəzlərinin, ciddi analitiklərin hamısı, demək olar ki, tamamilə bu səfərə, qlobal liderlik uğrunda yarışan iki nəhəng dövlətin rəhbərlərinin görüşünün necə yekunlaşacağına, hansı mesajlar veriləcəyinə fokuslanıblar".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şükürlü deyib.

O, bildirib ki, əlverişli sövdələşmələr əldə etmək niyyətiylə hakimiyyətə gətirilən və qeyri-sabit xarakteriylə fərqlənən Trampın ABŞ-nin əsas rəqibi Çinlə nədə uzlaşa biləcəyi, bir tərəfdən, onun və respublikaçıların siyasi perspektivini, o biri tərəfdən də bütövlükdə ölkəsinin dünya siyasətindəki yerini müəyyənləşdirəcək:

"Tramp bu il yanvarın 3-də neft ehtiyatlarına görə dünya birincisi olan və çıxardığı neftin 80%-ni Çinə satan Venesuelanın prezidenti Maduronu oğurlatdıraraq, bu ölkənin zəngin neft ehtiyatlarını ələ keçirməyi bacardı. Fevralın 28-də isə Tramp neft ehtiyatlarına görə dünya üçüncüsü olan və çıxardığı xam neftin 90%-dən çoxunu Çinə satan İrana qarşı da müharibəyə başladı.Venesuela əməliyyatının uğurundan ruhlanan Tramp gözləyirdi ki, uzağı 3-4 həftə ərzində İranda da hakimiyyəti dəyişərək, ona təslimçi bir saziş imzalatdıracaq və bununla da təkcə İran neftinə yox, həm də onun strateji coğrafiyasına və limanlarına sahiblənməklə, Çinə öz şərtlərini qəbul etdirməyi bacaracaq. Ancaq qürurlu İran xalqı mətanətli direnişi ilə "Hörmüz" ilgəyini Trampın öz boğazına keçirməyi bacardı və ABŞ-İsrail ittifaqının planları Hind okeanındaca suya qərq edildi - Trampın Çinə həlledici səfərinə 1 sutka qalır, ancaq hələ də ABŞ və İran arasında hər hansı saziş imzalanmayıb. İran diplomatiyası çox məharətlə prosesi uzatmaqla, Tramp üçün çox qiymətli olan vaxtı da Çinin lehinə dəyişdi. Beləliklə, Çinə satılacaq neftə, eləcə də Çindən çıxan bütün quru yollarına nəzarət etmək üçün ABŞ-nin həm demokratlar, həm də respublikaçılar administrasiyasının uzun illər ərzində apardıqları "Çini təcridetmə və mühasirəyə alma" strategiyası tamamilə iflasa uğramaq üzrədir". E.Şükürlü deyib ki, Çinin qurudan mühasirəsi və iqtisadiyyatının nəzarət altına alınması üçün ABŞ-nin xüsusən 3 mühüm, açar ölkədə - Rusiya, Türkiyə və İranda hakimiyyətləri dəyişməsi və özünəmünasib hakimiyyətlər formalaşdıraraq, Mərkəzi Asiyaya daha rahat çıxış, gediş-gəliş və hərbi bazalar qurmaq imkanı əldə etməsi vacib idi ki, ABŞ nə Bayden, nə də Tramp dönəmində bunu bacardı: "Əksinə, son 10 il ərzində Rusiya, Türkiyə və İran həm öz aralarında, həm də Çinlə daha da yaxınlaşaraq və hətta əlbir hərəkət edərək, ABŞ-ın Mərkəzi Asiyada, Əfqanıstanda və Cənubi Qafqazda planlarını pozmağı bacardılar.İranla son müharibə isə ABŞ-ın Yaxın Şərqdən də hərbi bazalarını çıxarmasının təməllərini atmaq üzrədir - özünü qoruya bilməyən hərbi baza başqalarını necə qoruyacaq?!Beləliklə, 2017-ci ildəki səfərindən fərqli olaraq, Tramp bu dəfə Çinə SSRİ dağılandan bu yana ABŞ-nin üzərinə götürdüyü "qlobal lider" statusunu itirmiş prezident imicində gedir.Özü birbaşa yorucu, tükəndirici müharibələrə girməkdən yayınan, güclənərək uyğun zamanı gözləyən müdrik və səbirli Çin Xalq Respublikası müharibələrlə dünyanı idarə etməyə üstünlük verən ABŞ-nin qolobal liderlik iddiasına müsəlmanların fədakarlığı və əliylə son qoyur. Tramp - Si Cinpin görüşü Alyaskada keçirilən Tramp-Putin görüşünün daha məzmunlu və əhatəli davamı olmaqla, yeni dünya nizamının qurulması istiqamətində atılmış ikinci mühüm sövdələşmə mərasimi olacaq".



**Sübhan**

*Rüstəm Hacıyev*



# ABŞ-ın vasitəçiliyinin perspektivi görünmür...

**Finikal Times Ukrayna və Rusiya tərəfinin fikirləri ilə tanış olduqdan sonra belə qənaətə gəlib ki, ABŞ-ın vasitəçiliyi ilə aparılan sülh danışıqlarının bərpa edilməsi perspektivlərinin heç bir mənası yoxdur.**

**"Rusiya və Ukraynada hesab edirlər ki, Yaxın Şərqdə müharibə dayandırılsa belə, ABŞ-ın vasitəçiliyi ilə sülh danışıqların bərpa edilməsi perspektivləri heç bir nəticə verməyəcək"- deyə məqalədə deyilir.**

**ABŞ prezidenti Donald Trampın bütün çıxışlarında "Kiyev və Moskva razılaşmaya yaxındılar" bəyənatlarına baxmayaraq, münaqişə tərəfləri danışıqların davam etdiriləcəyinə inanmırlar.**

**Qəzetin mənbələrə istinadən yazdığına görə, Rusiya prezidenti Vladimir Putin "Kiyevə tələblərini genişləndirmək məqsədiylə diqqətini gələcəkdə Donbas vilayətinə tam nəzarəti ələ keçirməyə" yönəldib.**

**Dinald Trampda, Vladimir Putində münaqişənin tezliklə sona çatacağını bəyan edirlər. Sadəcə olaraq, ABŞ prezidenti münaqişənin bitməsi üçün Ukraynanın işğal olunmuş ərazilərin itirilməsi ilə razılaşmasında, Rusiya prezidenti isə, yeni ərazilər işğal etməklə Ukraynanı yenidən öz təsir dairəsinə qaytarmaqa görürlər.**

**Ukrayna prezidenti və xalqı isə, heç vaxt bu şərtlərlə razılaşmayacaqlarını və ərazi bütövlüyünün bərpası üçün sonadək mübarizə aparacaqlarını bəyan edirlər.**

**Belə bir vəziyyətdə həqiqətəndə kimin vasitəçilik etməsindən asılı olmayaraq, hər hansı sülh danışıqlarının perspektivlərindən danışmaq yersiz görünür.**

## *"O, ölkə iqtisadiyyatında müşahidə edilən tənəzzül qısa zamanda aradan qadırıldı"*

**"Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edən gənclər ulu öndər Heydər Əliyev məktəbinin, Prezident İlham Əliyev idarəçiliyinin yetirmələridir. Suverenliyimizin tam bərpasının banisi Milli Liderimiz, onu reallaşdıran isə Müzəffər Ali Baş Komandanımız və şanlı ordumuz oldu".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib. O, bildirib ki, Milli Lider yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkə iqtisadiyyatında müşahidə edilən tənəzzül qısa zamanda aradan qadırıldı: "Starteji baxış iqtisadi tənəzzülün qısa zamanda aradan qaldırılmasına, liberal iqtisadi islaharlar yolu mülkiyyət münasibətlərinin yeni mərhələyə qədəm qoymasına, sənaye, kənd təsərrüfatı və eləcə də iqtisadiyyatın fərqli sektorlarında islahatların dərinləşməsinə səbəb oldu. MDB məkanında ilk dəfə olaraq torpaq islahatı, yeni mülkiyyət növlərinin formalaşması və inkişafı, sosial ədalət və təmin sistemin formalaşması və gücləndirilməsi və eləcə də Azərbaycanın dayanıqlı inkişafa nail olunması üçün xarici iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Bu islahatlar starteji dövrdə Azərbaycan iqtisadiyyatının bünövrəsini formalaşdırdı". Onun sözlərinə görə, hazırda Azərbaycan tarixinin ən şanlı günləri və ən parlaq səhifələri yaşanır: "Azərbaycan MDB-də münaqişəyə məruz qalan ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən ilk ölkədir. Bütün bunlar, cənab Prezident İlham Əliyevin siyasi təmkini, beynəlxlaq arenada böyük diplomatik nüfuzu, hərb meydanında qəbul etdiyi cəsarətli qərarlar sayəsində mümkün oldu. 27 il həsrətlə baxdığımız torpaqlarda bu gün böyük quruculuq işləri həyata keçirilir".

**Vasif**

## *"Al Jazeera": İran uranı ölkədən çıxarmaqdan imtina edib*

**İran zənginləşdirilmiş uranın ölkə xaricinə çıxarma ehtimalını istisna edib və Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) nəzarəti altında zənginləşdirmə səviyyəsini müstəqil şəkildə azaltmağa hazır olduğunu bildirib.**

Adalet.az xəbər verir ki, bu barədə "Al Jazeera" mənbələrə istinadən məlumat yayıb. İran hökumət strukturlarındakı mənbəyə görə, ABŞ uranın zənginləşdirilməsinin mərhələli şəkildə dayandırılması üçün 20 illik müddət tələb edib, lakin Tehran bu şərti rədd edib.

İran uranın zənginləşdirilməsi səviyyəsini müstəqil şəkildə azaltmaq istədiyini açıqlayıb. Eyni mənbəyə görə, Vaşinqton İranın yüksək dərəcədə zənginləşdirilmiş uranın Rusiyaya təhvil verilməsi ideyasını rədd edib və mümkün alıcı kimi üçüncü bir ölkəni təklif edib.



*Səxavət Məmməd*

# Trampın Çin səfərindən "əli dolu" dönəcəyi inandırıcı görünmür

**ABŞ Prezidenti Donald Trampın Çin səfərindən "əli dolu" dönəcəyi inandırıcı görünmür. Çünki Trampın Çinə elə bir ciddi təklif və ya təzyiq rıçaqı ilə getmədiyi ortadadır. ABŞ Dövlət katibi Marko Rubionun "Çini İrana təzyiq göstərməyə, Körfəzdə kursunu dəyişməyə inandıracaqlarına ümid etdiyini" bildirməsi, əslində Vaşinqtonun hazırda diktə edən tərəf olmadığını təsdiqləyir.**

**Hazırda ABŞ-ın əlindəki yeganə təzyiq vasitəsi İran limanlarından çıxan gəmiləri blokadada saxlamaqdır. İranın isə Körfəzlə bağlı təsir rıçaqları daha genişdir. Tehran, faktiki olaraq, son hərbi gərginliklərdən sonra Fars körfəzi və Hörmüz boğazındakı status-kvonu öz xeyrinə dəyişib. Əslində, bu vəziyyətin yaranmasının əsas səbəbkarı məhz ABŞ-İsrail cütlüyüdür.**

**Müharibədən öncə də qeyd edirdim ki, genişmiqyaslı toqquşma başlayacağı təqdirdə İran Körfəzi təhdid altında saxlayacaq və Hörmüz boğazını bağlayacaq. O zaman bu iddiaya şübhə ilə yanaşanlar çox idi. Ancaq istər İran, istərsə də Ukrayna məsələsinə sırf hərbi rakursdan baxanların proqnozları daha dəqiq çıxdı. Bir çox politoloq və partiya funksionerlərinin təhlilləri isə reallıqdan uzaq, sadəcə arzulardan ibarət idi. Unutmaq olmaz ki, müharibələrin nəticəsini arzular deyil, resurslar müəyyən edir.**

**İran gözlənildiyi kimi Körfəz ölkələrinə qarşı təzyiqi artırır; bu tendensiya xüsusilə Küveyt və Bəhreyndə daha aydın hiss olunur. Hesab edirəm ki, əgər ABŞ risk edib yeni bir müharibəyə başlamasa, İranın Körfəzdəki davranışı daha təhdidkar xarakter alacaq. Çinin İrana təzyiq göstərəcəyi isə real deyil. Çünki Pekin fərqindədir ki, İran sıradan çıxarılacağı təqdirdə növbəti hədəf məhz Çin olacaq və bu, Pekinin Tayvanla bağlı planlarını ən azı yaxın gələcəkdə iflic edəcək.**

**Tramp hakimiyyətə gəlməzdən öncə Ukrayna müharibəsini qısa müddətdə bitirəcəyini vəd edirdi. Ancaq mövcud mənzərə göstərirdi ki, bu münaqişə bir şəxsin iradəsi ilə bitəcək səviyyədə deyildi. Hazırda ABŞ Ukraynada "ikibaşlı oyun" aparır: bir tərəfdən rəsmi Kiyevə müharibəni dayandırmaq üçün təzyiq göstərir, digər tərəfdən isə Avropa İttifaqından pulunu aldığı silahları Ukraynaya ötürməyə davam edir.**

**Son zamanlar Rusiya Ukrayna cəbhəsində hücumlarını bir qədər səngitsə də, Baltikyanı istiqamətdə aktivliyini artırıb. Rusiyanın müvəqqəti passivliyi Ukraynanı bir qədər cəsarətləndirmişdi - hətta Zelenski "9 may"la bağlı Moskvanı qıcıqlandıracaq qərarlar qəbul edirdi. Ancaq siyasətçilərin şousunu kənara qoyub hərbçilərin rəyinə baxdıqda mənzərə tamam başqa görünür. Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı Oleksandr Sırskinin də qeyd etdiyi kimi, Rusiya ordusu bütün cəbhə boyu ciddi hazırlıq mərhələsindədir.**

**Dünən Rusiya tərəfindən endirilən ağır zərbələr təkcə Ukrayna şəhərlərini deyil, Slovakiya və Polşa ilə sərhəd-keçid məntəqələrini də hədəf aldı. Slovakiyanın Ukrayna ilə quru sərhədini bağlaması da məhz bu hücumların birbaşa nəticəsidir.**

**Rusiyanın Baltikyanı ölkələrə müdaxilə ehtimalı xeyli yüksəkdir. Belarusun orduya döyüş hazırlığı əmri verməsi bu ehtimalı daha da gücləndirir. Belə bir müdaxilənin Ukraynadakı kimi "səngər müharibəsi" deyil, daha çox aviasiya, dron və raket zərbələri ilə həyata keçiriləcəyi gözlənilir. Rusiya Ukrayna müharibəsini Avropa ölkələrindən birinə zərbə endirərək "qısa yolla" yekunlaşdırmaq strategiyasını seçə bilər.**

**Rusiyanın aktivliyini artırdığı digər istiqamət isə Cənubi Qafqaz, konkret olaraq Ermənistandır. Hesab edirəm ki, Azərbaycanı ən çox düşündürən məsələ də məhz bu olmalıdır. Zelenskinin İrəvanda səsləndirdiyi bəyanatlardan xeyli vaxt keçsə də, Rusiya bu mövzunu gündəmdə saxlayır. Vladimir Putinin Nikol Paşinyanın Qərbə meylli addımlarına reaksiyası son dərəcə sərt və təhdidkar idi. Putin açıq şəkildə qeyd etdi ki, Ermənistan bu yolu davam etdirsə, Ukraynanın taleyini yaşaya bilər. Rusiyanın Ermənistandakı hərbi bazaları dövlət çevrilişi üçün kifayət etməsə də, Moskvanın uzaqdan zərbələr endirmək və ya hərbi bazasının təhlükəsizliyini təmin etmək bəhanəsi ilə qoşun yeritmək variantı mümkündür. Bu isə Gürcüstanın yenidən hərbi müdaxiləyə məruz qalması deməkdir.**

**Gürcüstan və Ermənistanda yaranacaq hər hansı hərbi xaos Azərbaycanı da birbaşa təhdid altına qoyur. Rəsmi Bakı bu təhlükəni anlayaraq, Rusiyaya qarşı olduqca ehtiyatlı və balanslı davranır. Məsələn, Azərbaycan öz meydanında Zelenskinin Rusiyaya qarşı bəyanatlar verməsinə şərait yaratmadı. Bakı anlayır ki, gücün hüququnu əvəz etdiyi müasir dünyada Rusiyanı birbaşa qarşıya almaq böyük risklər vəd edir.**

**Hazırkı vəziyyət onu göstərir ki, müharibələr səngiməyəcək, əksinə, daha böyük qlobal toqquşmalar üçün zəmin yaradacaq...**

# "Rəmiş" yeni yaşama vəsiqə aldı

**Dünən Libraff Park Akademiyada möhtəşəm bir ədəbiyyat tədbiri keçirildi. Tədbirin səbəbkarı Azərbaycan ədəbi ictimaiyyətinin hər zaman diqqət mərkəzində olan unudulmaz gitara ifaçısı Rəmiş və sevilən yazıçı Aqil Abbas idi.**




Fikrimizi bir az da genişləndirsək, onu da deyə bilərik ki, əslində bu görüşdə yazıçı- publisit Aqil Abbas hamımızın tanıyıb-sevdiyi Rəmişi bizə yeni-



dən təqdim etdi. Bu təqdimat isə onun "Rəmiş"i vasitəsiylə gerçəkləşdi.

Tədbiri Qanun nəşriyyatının təşkilatı rəgbəri Xatirə Əfşar açıq elan edərək tədbir iştirakçılarını salamlayaraq, əsərin nəşr prosessindən danışıb.

Sonra müəllif Aqil Abbas povetin bütövlükdə Rəmişin həyat və yaradıcılığından bəhs etdiyini qeyd edib. Rəmişlə xatirələrini dilə gətirib. Rəmiş kimi bir istedadı gələcək nəsillərin tanıması üçün "Rəmiş" povestinin çapının vacib olduğunu qeyd edib.

Mədəniyyət Naziliyinin kitab sənayesi şöbəsinin müdiri Vasif Qurbanzadə daha çox Aqil Abbasın oxucusu kimi tədbirə qarıldığını qeyd edib. Müəllifin əsərlərinə münasibət bildirib. Təxminən 15il sonra Aqil Abbası əli əsalı Ağdam "bulvar"ında görməyi arzulayıb.

Ulduz jurnalın baş redaktoru Qulu Ağsəs də povestin jurnalda çapından danışıb. Və əsərin ilk dəfə "Ulduz"jurnalında çap olunduğunu qeyd edib.

Dünya şöhrətli alim Rafiq Əliyev Rəmişlə eyni vaxtda tar sinfində oxuduğu zamanları xatırlayıb. Əsərin xatirələrlə dolu olduğunu qeyd edib. Povest ümumilikdə Rəmişin xarakterindən ibarət olduğunu vurğulayıb.

Millət vəkili İlham Məmmədov müəllifə povest üçün təşəkkürünü bildirib. Belə bir əsəri yalnız Aqil Abbas yaza biləcəyini qeyd edib. Ağdamın və ağdamlıların özünəməxsus koloriti olduğunu vurğulayıb. O, Rəmişi bir zamanlar özünə qəhrəman seçdiyini söyləyib.

Millət vəkili Fazil Mustafa əsərin üslubundan söz açıb. Əsərdə əsas məqsədi Ağdamın xarakterini cəmiyyətə göstərmək və yaşatmaq olduğu vurğulayıb.

Yazıçı Seyran Səxavət Rəmişin istedadından, onunla xatirələrindən danışıb. O, Aqil Abbasın özünün xüsusi bir janr olduğu söyləyib. Rəmişlə görüşlərinin hər birini böyük bir hadisə adlandırıb.

Filologiya elmlər doktoru Cahangir Məmmədli çıxışında Aqil Abbası xalq adamı adlandırıb. Onun Ağdama bağlılığını dilə gətirib.

Rejissor Rza Rzayev Aqil Abbasla "Dolu" filminin çəkilişlərində zarafatlarını xatırlayıb. Müəlliflə xatirələrini bölüşüb. Müəllifin yaradıcılığının unikal olduğunu vurğulayıb.

Millət vəkili Elşən Musayev Aqil Abbasın yoldaşlığından, yaradıcılığının zənginliyindən danışıb.




Tədbirdə Seyfəddin Altay, Əsəd Cahangir, Qəşəm Nəcəfzadə, Şərif Ağayar, Rauf Qərib v.s kimi ədəbiyyat və mədəniyyət nümayəndələri iştirak edib.

Tədbir müəllifin yenidən çıxışı ilə başa çatıb.

Sonda tədbir iştirakçılarına müəllifin kitabları təqdim olunub.

**Əntiqə KƏRİMZADƏ**

# «Yaponiya Azərbaycandan neft idxal edir»

**"Təxminən on gün əvvəl Yaponiyanın Baş naziri Sanae Takaiti enerji böhranı fonunda maraqlı bir mesaj vermişdi. Başqa ölkələr, qənaət çağırışı edəndə o, deyirdi ki, iqtisadi həyat zəifləməməlidir, hökumət yeni çıxış yolları tapmalıdır. Bu gün həmin yanaşmanın nəticəsi görünür.Fevral ayına qədər Yaponiya idxal etdiyi neftin təxminən 95 faizini Yaxın Şərqdən alırdı".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, Hörmüz boğazında risklər artandan sonra Tokio yeni istiqamətlərə üz tutdu açmağa başladı:

"Əvvəlcə ABŞ nefti, sonra Rusiyaya sanksiyalar yumşalan kimi Saxalın-2 layihəsindən hasil olan neft və indi də Azərbaycan bu siyahıya daxil oldu.Ən maraqlısı budur ki, Yaponiya hazırda 205 günlük neft ehtiyatına malikdir. Bunun 121 günü dövlət ehtiyatlarında, 83 günü özəl sektorda saxlanılır.İndi isə



Yaxın Şərqdə gərginlik başlayandan sonra ilk dəfə Azərbaycan nefti Yaponiya bazarına daxil olur.Bu halda azad iqtisadi sistem üçün təbiidir. Çünki, azad bazarlar neftin haradan çıxmasına yox, kimin etibarlı tərəfdaş olmasına baxır. Hazırda Azərbaycan məhz bu etimad qazanan ölkələr sırasında mövqe tutur.Və düşünürəm ki, bu gələcəkdə Azərbaycanın Şərqi Asiyada enerji tərəfdaşı kimi mövqeyini gücləndirə, yeni investisiya əlaqələri, uzunmüddətli tədarük müqavilələri və logistika əməkdaşlığı üçün əlavə imkanlar aça bilər".

**Sübhan**

# Fotonun alt sətri nə idi?

**"Və niyə məhz belə bir foto ilə Prezident mesajını qeyri-siyasi təqdimatla bəyan etdi? İnsan öz evində rahat olur, sərbəst davranır və bu, onun ən qabarıq instinktidir. Lakin Zəngilandan, İlham Əliyevin istirahət və qələbə mesajı verdiyi nöqtədən Ermənistana aşağı-yuxarı 3 km olar, olmaz. İstirahət hüquqdan əvvəl arxayınlıq, təhlükəsizlik və özünəinamın təcəllisidir ki, kimsə onu orada təhdid edə bilməz".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

"Qalibiyyətin işarəsini isə görüşdə zatən bəyan etmişdi:"Biz istəmirdik ki, Ermənistanla savaşaq və onu məcbur qalaraq məğlub edib, özümüzdən asılı vəziyyətə salaq". Zatən Ermənistandakı



seçkilərin baş şüarı da bu deyilmi? "Paşinyan Əliyevin vassalıdır", - deyir müxalifət.Yeri gəlmişkən, burada zidd heç nə yoxdur, təbiidir və bu əsər də Prezident Əliyevin gücünün ifadəsidir. Sadəcə Paşinyan örnəyini Koçaryana, Karapetyana da göstərdi ki, revanşizmin fərqli aqibəti ola bilməz və erməni xalqı üçün hazırda açılan qapıları birilərinə görə əbədi bağlamağa dəyməz.Koçaryan demişkən, bu əcaib varlıq seçkilər çərçivəsində Göyçənin Şişqaya kəndinə gəlib, bir xeyli də sərsəmləmələrdə bulunub.Amma xatırlatmaqda fayda var:General Madatovun başını külləyib Qarabağın kəndlərini Mehdiquludan aldığı dövrü çoxdan bizdə qapadıblar. Allah Ələsgərə rəhmət eləsin, Göyçə torpağı da sevənləri üçün müqəddəsdir, oradan da Qarabağ qoxusu gəlir.Belə bir fotonu Göyçə sahilində də görəcəyik, lakin dediyimiz kimi, işğalla deyil", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

# "Onun Azərbaycan dövləti, xalqı və dövlətçiliyi naminə göstərdiyi misilsiz xidmətlər hər zaman ehtiramla xatırlanacaq"

**"İnsanlar həyatda faydalılığına görə seçilirlər. Cəmiyyətə və dövlətə faydalı olan insanlar hər zaman tarixdə yaşayır, hörmətlə xatırlanır və uca tutulurlar. Cəmiyyətlər və dövlətlər insanlara yalnız niyyətlərinə görə deyil, eyni zamanda ortaya qoyduqları nəticəyə, xidmətə, xalqa qazandırdıqları dəyərlərə görə qiymət verirlər. Tarix dəfələrlə sübut edib ki, xalqına xidmət edən, dövlətinə sahib çıxan şəxsiyyətlər zaman keçsə belə unudulmurlar".**



Adalet.az xəbər verir ki, "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, tarixdə bir çox liderlər, alimlər və dövlət adamları məhz xalqına verdiyi töhfəyə, dövlət quruculuğunda oynadığı rola, sabitlik yaratmasına, elmə, mədəniyyətə və milli dəyərlərə göstərdiyi diqqətə görə yadda qalmış, milyonların hörmətini qazanmışlar:

"Çünki əsl liderlik və tarixi şəxsiyyət olmaq sadəcə müəyyən bir vəzifəni daşımaq deyil, millətin taleyində silinməz iz qoymaqdır. Bizim tarixi şəxsiyyətlərimizdən biri də Ümummilli Lider Heydər Əliyev olmuşdur. Heydər Əliyev dövlətçilik və idarəçilik bacarığı ilə hər zaman seçilmiş və seçilməkdədir. Onun prinsipiallığı, mürəkkəb siyasi şəraitdə uzaqgörən mövqe nümayiş etdirməsi və güclü siyasi iradəsi Azərbaycan dövlətçiliyində mühüm idarəçilik məktəbi formalaşdırdı. Məhz Heydər Əliyevin siyasi fəaliyyəti və dövlətçilik baxışı vasitəsilə müasir Azərbaycanın möhkəm siyasi təməli qoyulmuşdur. O, Azərbaycanı ağır və mürəkkəb dövrlərdən çıxararaq dövlətçiliyin xilaskarına çevrildi, milli birliyi təmin etdi və ölkənin gələcək inkişaf istiqamətini müəyyənləşdirdi. Bu siyasi kurs və dövlətçilik ənənəsi bu gün də cənab Prezident İlham Əliyev tərəfindən uğurla, qətiyyətlə və müasir çağırışlara uyğun şəkildə davam etdirilir.Tarixi şəxsiyyətlərə təsadüfi şəkildə "tarixi şəxsiyyət" deyilmir. Onlar tarixdə iz qoymuş, müsbət keyfiyyətləri, öz millətinə və dövlətinə bağlılığı, xalqa sədaqəti, ləyaqəti və xidmətləri ilə bu zirvəyə yüksəlmiş insanlardır".

O, bildirib ki, belə şəxsiyyətlər zaman keçdikcə sadəcə bir lider deyil, bütöv bir ideologiyanın, dövlətçilik düşüncəsinin və milli ruhun simvoluna çevrilirlər: "Bu, danılmaz və dəyişməz bir həqiqətdir. Azərbaycan üçün Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti xüsusi tarixi əhəmiyyət daşıyır. O, həm regionda, həm də beynəlxalq müstəvidə Azərbaycan üçün elə bir siyasi yol və strateji istiqamət müəyyənləşdirdi ki, xalqımız bu gün həmin yolu böyük inam və uğurla davam etdirir. Azərbaycanın bu gün qazandığı uğurların, beynəlxalq nüfuzunun, güclü dövlət modelinin təməlində məhz Heydər Əliyevin formalaşdırdığı dövlətçilik fəlsəfəsi dayanır.Heydər Əliyevin hakimiyyəti Odlar Yurdu Azərbaycan üçün ən mühüm siyasi mərhələlərdən biri idi. Bu hakimiyyət dövrü dövlətçiliyin qorunması, xalqın gələcəyə ümidinin yenidən bərpası və Azərbaycanın müstəqil inkişaf yolunun müəyyənləşdirilməsi ilə tarixə həkk olundu.

Bu gün Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad edir. Çünki tarix göstərdi ki, xalqa xidmət edən böyük şəxsiyyətlər zaman keçdikcə daha da ucalır, onların ideyaları isə yaşayaraq gələcək nəsillərə yol göstərir.Allah Ümummilli Lider Heydər Əliyevə rəhmət eləsin, məqamını uca etsin.

Onun Azərbaycan dövləti, xalqı və dövlətçiliyi naminə göstərdiyi misilsiz xidmətlər hər zaman ehtiramla xatırlanacaq, qurduğu siyasi irs isə gələcək nəsillər üçün mühüm bir yol və örnək olaraq yaşayacaq".

**Vasif ƏLİHÜSEYN**

# "Putin Rusiyanın Ermənistana satdığı qazın qiymətini qaldıracağını da nəzərdə tutub"

**"Rusiya Prezidenti Vladimir Putin faşizm üzərində Qələbə günü münasibətilə keçirilən tədbirlərdən sonra Kremldə ayaqüstü mətbuat konfransında Ukraynaya qarşı müharibə və Yaxın Şərqdəki gərginlikdən danışarkən Ermənistanın baş naziri Nikol Paşinyana da xəbərdarlıq mesajı göndərməyi unutmayıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, Kreml sahibi Paşinyanla son görüşündə ona söylədiyini bir daha təkrarlayıb:

""Ermənistan Avrasiya İqtisadi İttifaqında üzvlüklə Avropa İttifaqına inteqrasiya kursu arasında seçim etməlidir"". Ancaq Vladimir Putin bu dəfə mövzuyla bağlı iki əlavəsini də edib. Birincisi, Rusiya Prezidentinin sözlərinə görə, İrəvan Avropa istiqamətini seçəcəyi təqdirdə Rusiya ilə "yumşaq və mədəni ayrılıq" baş verəcək. İkincisi, Putin Paşinyana Ermənistanın Avropa inteqrasiyası məsələsiylə bağlı referendum keçirməyi təklif edib. Putin bunları deyərkən, erməni cəmiyyətinə də mesaj göndərib: "Ermənistan Avrasiya İqtisadi İttifaqında ciddi üstünlüklər əldə edib". Yeni



Putin erməni cəmiyyətini xəbərdar edib ki, Paşinyan referendum keçirərsə və ermənilər Avropa İttifaqına inteqrasiya kursuna üstünlük verərlərsə, itirəcəkləri olacaq. Putin bunu açıq deməsə də, Rusiyanın Ermənistana satdığı qazın qiymətini qaldıracağını da nəzərdə tutub".

E.Şahinoğlu bildirib ki, Nikol Paşinyan parlament seçkilərində qələbə qazanarsa, ilk növbədə Konstitusyanı dəyişdirib Azərbaycanla sülh sazişi imzalamaq və Türkiyə ilə sərhədin açılmasını və bu ölkə ilə ticarətin başlamasını təmin etməyə çalışacaq: "Bununla paralel olaraq "Tramp yolu"nun tikintisinə başlanacaq. Əlbəttə, Nikol Paşinyan Rusiyanın yerinə Avropa İttifaqı ilə inteqrasiyanı seçmək istəyər, ancaq reallıq budur ki, İrəvan istəsə belə Ermənistan qısa zaman kəsiyində Avropa İttifaqının üzvü olmayacaq. Bunu Paşinyan da anlayır, Putin də. Ona görə də, Putin "seçim et" tələbiylə Paşinyanı güncə sıxmağa və bu yolla Ermənistandakı radikal müxalifətin əlini gücləndirməyə çalışır".

**Sübhan**

# "Ermənistanda müxalifət revanşist siyasət yürüdür"

**"Ermənistanda seçkilərdə müharibə və sülh tezisi əsas müzakirə predmetidir. Erənistanda seçkilər öncəsi Qarabağ mövzusu əsas gündəmə çevrilib. Xüsusilə Rusiyaya yaxınlığı ilə tanınan Robert Köçəryan və Samvel Karapetyan seçki kampaniyalarında Qarabağ məsələsini davamlı şəkildə ön plana çıxarırlar. Onlar Azərbaycanla paraflanmış sülh sazişinə yenidən baxacaqlarını və "itirilmiş torpaqlara" qayıdacaqlarını bəyan edirlər. Seçkiyə qatılan müxalifətin əsas siyasi gündəmi məhz bu məsələdən ibarətdir".**



Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Onun sözlərinə görə, bunun nə qədər təhlükəli proses olduğunu erməni cəmiyyətinin müəyyən hissəsi anlayır: "Göründüyü kimi, Ermənistanda müxalifət revanşist siyasət yürüdür və seçki təbliğatını əsasən Rusiyanın narrativləri üzərində qurur. Robert Köçəryan ölkənin müxtəlif regionlarına səfərlər edərək Rusiyaya bağlılığı və Qarabağa qayıdış ideyasını təbliğ edir. Baş nazir Nikol Paşinyan isə sülh gündəliyini önə çəkir. O, Qarabağın heç vaxt Ermənistanın tərkib hissəsi olmadığını və bu məsələnin artıq bağlandığını bildirir. Paşinyan həmçinin Qarabağ məsələsinin Ermənistanın müstəqilliyi üçün təhdidə çevrildiyini qeyd edir. Ermənistanda seçkilərə müharibə və sülh tərəfdarlarının qarşıdurması fonunda gedilir və seçki gündəminin əsas mövzusu Qarabağ məsələsidir. Ermənistan xalqının sülhə üstünlük verəcəyi şübhə doğurmur. Lakin revanşist qüvvələr hakimiyyətə gələrsə, Azərbaycan Zəngəzur istiqamətində təhlükəsizlik tədbirlərini və nəzarət mexanizmlərini gücləndirməklə öz nəzarətinə almalıdır".

**Vasif**

## "Bu seçki Azərbaycan üçün də həyati əhəmiyyət daşıyır..."



**"Parlament sədri Simonyanın sonuncu müsahibəsindən anlaşılan budur ki, 7 iyun seçkisi Ermənistan üçün müharibə, yoxsa sülh, həqiqi müstəqillik, yoxsa amorf ölkə məsələsidir".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Qulu Məhərrəmli deyib.

"Paşinyanın qalib gəlməsi arzulanan bu seçki Azərbaycan üçün də həyati əhəmiyyət daşıyır. Bu yandan Putin də məlum paraddan sonra Ermənistanın daxili işlərinə aktiv şəkildə burun soxmağa başlayıb: gah Ukrayna ilə paralellər aparır, gah "mədəni boşanma"dan dəm vurur, gah da Ermənistanın Avropa İttifaqına girməsi üçün "referendum keçirilməlidir" deyir.

Sözün qısası, Cənubi Qafqazda proseslər 7 iyun seçkiləri kontekstində çox təhlükəli fazaya qədəm qoyur", - deyə o, bildirib.

## "Ermənistanda keçiriləcək paradda komik səhnələr istisna deyil..."



**"Mayın 28-də Ermənistanda hərbi parad keçiriləcək. Hazırlıq başlayıb. Yəqin ki, Fransa E.Makron və onun Ermənistana verdiyi az sayda silahların bir neçəsi paradda iştirak edəcək".**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib. O, bu haqda bir neçə məsələnin onu maraqlandırdığını bildirib:

1. Hərbprezidentii parad son illər ərzində dəfələrlə döyüş meydanında məğlub olan və 4 dəfə kapitulyasiya aktı imzalayan ordunun nəyinə və harasına yaraşır?

2. Hərbi paradda 30 illik işğal, talan və vandalizm tarixinə malik erməni ordusu ictimaiyyətə necə təqdim ediləcək?

3. Hərbi paradda diktor Ermənistan ordusunun hansı yadda qalan fəaliyyətlərini qeyd edəcək?

4. Ermənistan hərbi sahədə ənənəvi olaraq Rusiya, Fransa, Hindistan və İran ilə əməkdaşlıq edib və ya edir. Odur ki, bu paradda komik səhnələr istisna deyil.

5. Ermənistan rəhbərliyinin məğlub ordunu təbliğ etmək niyyəti aşkar şəkildə görünür, amma bunun üçün avtobusda özgə hesabına gəzmək kimi ucuz videolar paylaşmaq fayda verməz.

6. Ordu yalnız və yalnız Qələbəsi ilə təbliğ oluna bilər, odur ki, məğlub erməni ordusunun hərbi paradı yerli əhali tərəfindən kəskin etirazlara səbəb olacaq. Əgər parad zamanı fors major və ya komik bir hu vəziyyət yaranarsa, bu etirazları daha da kəskinləşdirəcək.

7. Hərbi parad Əsgərin döyüş meydanında mütləq Qələbəsi ilə müşaiyət olunanda siyasi və hərbi əhəmiyyət daşıyır".

## Politoloq: "9 may paradı Rusiyanın taktiki və strateji çöküşü idi"



**"Rusiya hər il 9 may hərbi paradını öz hərbi potensialını nümayiş etdirmək və güc nümayişi kimi təntənəli sürətdə qeyd edirdi. Bir növ, 9 may Rusiyanın gücü kimi təqdim olunan bir təqvimə çevrilmişdi. Bu güc təqvimi ötən gün 9 mayda sona çatdı".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Onun sözlərinə görə, Rusiyanın qürurla və əzələ nümayişi kimi təntənəli qeyd etdiyi qələbə günü kimi Ukrayna prezidenti V. Zelenskinin sərəncamı ilə baş tutduğunu qeyd etmək olar:

"Bu parad hərbi texnikasız keçirildi. Bununla da Rusiyanın rəqibləri qarşısında strateji zəifləməsinin göstəricisi idi. Çünki, keçirilən paradlarda raket artilleriya qurğuları, qitələrarası ballistik raketlər, strateji bombardmancı təyyarələr nümayiş etdirilirdi. Bu, Kremlin Qəribə qarşı güc nümayişi idi. Bu il isə, Moskvada keçirilən parad sönük və yalnız canlı qüvvənin keçidi kimi reallaşdı. Bununla da Rusiya imperiyasının Qərb qarşısında taktiki məğlubiyyəti oldu.Bu paradın baş tutub -tutmaması Kremldən deyil, məhz "üç günə işğal" edəcəyi Kiyevin qərarından asılı idi.V. Zelenski isə, Qırmızı meydanda paradin keçirilməsinə icazə verən sərəncam imzalamaqla V. Putinə böyük bir psixoloji zərbə vurdu".

**V. ƏLİHÜSEYN**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Ölməyə də yeri yoxmuş...

**... Adam həftələrlə, aylarla toya hazırlaşır və onu çox çətiiklə yola verir. Bəs onda qəfil yas düşəndə necə çıxış yolu tapmaq olar??? Bu suala cavab vermek elə də asan məsələ deyil! Bilirsiniz niyə? Çünki imkanlı adamlar yaxını, əzizi rəhmətə gedəndə çox asanlıqla bu məsələləri həll eləməyi bacarır. Belə ki, bir çoxları əvvəlcədən baha qiymətə olsa da, qəbir yerləri alıblar, hətta bəziləri neçə-neçə qəbir yeri alıb, sonra da onu baha qiymətə başqalarına satır. Yəni onlar bundan da pul qazanırlar! Varlığa nə darlıq, pulları var, nə desən eləyə bilərlər! O ki, qaldı başqa imkanlı adamlara, onlar da Bakıda istənilən yerdən, baha da olsa, qəbir yeri ala bilir.**

**Ancaq mövcud qanunla qəbir yerləri pulsuz olmalıdır. Görəsən, Bakıda pulsuz qəbir yeri alan varmı??? Şəxsən mən buna inanmıram ki, pulsuz qəbir yeri olsun! Varsa, nə gözəl! Əgər kimsə, belə qəbir yeri alıbsa, bizə desin, o qəbir yeri satanların ölənlərinə hər gün rəhmət oxuyaq! Kasıb adamların yası düşəndə vəziyyət daha da çətinləşir. Yəni o kasıb adam bilmir ki, qəbir yeri alıb, rəhmətə gedənini dəfn eləsin, yoxsa camaata ehsan, yemək versin! Bakıda isə qəbir yerləri mərkəzdən və ucqardan asılı olaraq 2500 manatla, 15000-20000 min civarındadır! Təbii ki, bu pul da hər adamda olmur.**

**Elə kasıb adam tanıyıram ki, rəhmətə gedənini Bakıda dəfn edə bilməyib, götürüb aparıb rayona! Məgər, belə hadisələr az olub! Bakıda hər qəbiristanlığın öz yiyəsi var. Və hər qəbiristanlığın da müəyyən edilmiş qiymətləri var! Və Yeni Günəşlidəki, eləcə də Dədə Qorquddakı qəbir yerləri də kifayət qədər bahadır. Buralarda qəbir yerə almaq üçün gərək 2500-4000 manatından keçməlisən! Hər gün də adını çəkdiyim qəbiristanlıqda nə qədər rəhmətə getmiş insan dəfn edilir.**

**Bəs, o pullar kimin cibinə axır??? Təbii ki, qəbiristanlığın müdiriyyəti o pulları tək yeyə bilməz! Onlara "qorxma" deyən, arxasında duran vəzifə sahibləri var! Başqa sözlə demiş olsaq, onlara havadarlıq edilir. O havadarları biz tanımasaq da, aidiyyəti qurumlar çox yaxşı tanıyır. Bu işdə bələdiyyələrin də məsuliyyəti az deyil. Elə götürək Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindəki bələdiyyəni. On ildən çoxdur ki, o bələdiyyənin sədri İxtiyar müəllimdir. Bu on ildə hörmətli İxtiyar müəllim gözə görünən bir iş görməyib. Əhalidən yığılan pullar hara xərclənir, o da bilinmir. Bilinən odur ki, bir çox vəzifəli şəxslər yerində deyil və onlara göstərilən etimadı layiqincə doğrultmurlar!!! Bakıdakı qəbiristanlıqlarda baş alıb gedən özbaşınalıqların qarşısını kim alacaq??? Aidiyyəti dövlət qurumları bu barədə insanların narahatlığını nəzərə almalı və çıxış yolu tapmalıdır!!!**

**Burda Vaqif Bayatlı Odərin bir bənd şeiri yadımıza düşür:**

*Bu dünyada sirr axtarma,*
*Bu dünyanın sirri yoxmuş,*
*Yaşamağa yer axtarma ,*
*Ölməyə də yeri yoxmuş...*

## "Moskva tammiqyaslı müharibəyə qayıtsa, Kiyev də eyni cavabı verəcək"



**Rusiya iki gündür genişmiqyaslı hücumlar həyata keçirmədiyi üçün Ukrayna da uzaqmənzilli hücumlardan çəkinir. Lakin Moskva tammiqyaslı müharibəyə qayıtsa, Kiyev də eyni cavabı verəcək.**

Adalet.az xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski axşam video müraciətində deyib. "Sevindirici haldır ki, bu günə qədər genişmiqyaslı hücumlar - raket zərbələri, hava hücumları baş verməyib. Lakin cəbhə bölgələrində, cəbhəyə yaxın ərazilərdə atışmalar, eləcə də cəbhə boyunca müxtəlif növ dron hücumları olub", - deyə Prezident bildirib.

Zelenski qeyd edib ki, son 24 saat ərzində və bu günə qədər artıq 150-dən çox hücum, yüzdən çox atışma və təxminən 10.000 kamikaze dron hücumu olub. "Yəni, Rusiya ordusu cəbhədə sükuta əməl etməyib və hətta xüsusilə də cəhd göstərmir. Bütün Ukrayna bölmələrimiz güzgü kimi hərəkət edir, mövqelərimizi lazım olduğu kimi müdafiə edir", - deyə Zelenski bildirib.

Prezident həmçinin deyib ki, dünən və bu gün Ukrayna Rusiyadan kütləvi hücumların olmamasına cavab olaraq uzaqmənzilli hücumlardan çəkinib.

## Qaranlıqdan işığa...




**Azərbaycanın bir çox şairi, yazıçısı, alimi, filosofu Sovet dönəmindən xalq düşməni kimi cəmiyyətə çatdırılıb. Amma bu " xalq düşmənləri" vətənini , millətini hamıdan çox istəyiblər. Onlar xalqda milli şüuru, milli düçüncəni yaratmaq istəyiblər.**

Hüseyn Cavid də belə olub, Mikayıl Müşfiq də belə olub , Əhməd Cavad da belə olub, Əhməd Ağaoğlu da belə olub... Onlara üsünü qara buludlar nə qədər alsa da , onlara nə qədər böhtan atılsa da , axırda gün işığı kimi çaxaraq millətin düsüncəsini, təfəkkürünü və həyatını işıqlandırıblar!

Filologiya elmləri doktoru, professor Şahbaz Şamıoğlu ( Musayev) böyük Azərbaycan ziyalısı, görkəmli yazıçı- mütəfəkkir , millətinə və xalqına son nəfəsinə qədər sadiq olan Əhməd Ağaoğlu barəsində çox mükkəməl elmi monoqrafiya hazırlayaraq nəşr etdirib. Kitab belə adlanır:" Əhməd Ağaoğlu həyatı , mühiti, nəsri və epistolyar irsi". Kitab " Elm və təhsil" nəşriyyatı tərəfindən çap edilib. Kitabın elmi redaktoru filologiya elmləri doktoru Nikpur Cabbarlı, rəyçilər filologiya elmləri doktoru Abid Tahirli , filologiya üzrə fəlsəfə doktoru Güldəniz Qocayevadır! Monoqrafiyanın birinci fəslində görkəmli mühacir, yazıçı- mütəfəkkir Əhməd Ağaoğlunun həyatı və mühiti , ikinci fəslində bədii - fəlsəfi, üçüncü fəslində bədii - sənədli nəsri, dördüncü fəslində epistolyar irsi tədqiq olunmuşdur. Kitabda bir epizoda diqqət yetirək:" Əhməd Ağaoğlu Azərbaycan ədəbi- mədəni, elmi-fəlsəfi, içtimai - siyasi fikir tarixinin təkrarsız nümayəndələrindəndir. O, 19- cu əsrdə Avropa təhsili görmüş çox az sayda ziyalılardan , geniş elmi biliyə və zəngin dünyagörüşə malik yazıçı- mütəfəkkirlərdəndir. Şərq və Qərb mədəniyyətinə dərindən bələd olan Ə. Ağaoğlu zəngin yaradıcılığı və çoxşaxəli fəaliyyəti ilə yalnız vətəni Azərbaycana və ikinci vətəni Türkiyəyə deyil, bütöv türk- islam aləminə layiqli xidmət göstərmiş, böyük bir coğrafiyada yaşayan türklərin müasirləşməsi, sivil dünya xalqları səviyyəsinə qalxması üçün əlindən gələni etmiş, eyni zamanda türkün şanlı tarixinin öyrənilməsi və təbliği istiqamətində yorulmadan çalışmışdır..."

Kitab ədəbi - elmi ictimaiyyət, filoloji ixtisaslar üzrə təhsil alanlar üçün nəzərdə tutulmuşdur!

## Qəzet oxuyanlar niyə azalıb?



**Biz çox vaxtı belə söhbətin şahidi oluruq. İki adam bir- biri ilə söhəbət edəndə deyir ki, əşi, indi qəzet oxuyan kimdi? Sosial şəbəkələr , saytlar çıxsmdan sonra qəzet oxuyan lap azalıb. Çünki çoxlu sayda insanlar informasiyaları ya sosial şəbəkələrədən , ya saytlardan , ya da həmin qəzetlərin elektron variantlarından alır. Az sayda oxucu pul verib qəzet alır. Əvvəllər 15- 20 min tirajla çıxan qəzetlər indi 1500- 5000 nüsxə çap edilir.**

Üstəlik də, bu qədər qəzetin hey yarısı satılmır. Satılmayan qəzetlər isə üzüqara qız kimi redaksiyaları qaytarılır..Bilirsiniz , bu nə deməkdir? Bu, artıq qəzetlərin can verməsi deməkdir. Qəzetlərə axırıncı güclü zərbə bu ilin fevralında dəydi. Yəni bütün redaksiyalar qışın oğlan çağında , ağına- bozuna baxılmadan " Azərbaycan" Nəşriyyatından çıxarıldı.Bir qədər imkanı olanlar yer tapdı, imkanı olmayanlar isə çöllərdə qaldı.

Tay bundan sonra qəzetin nə hörməti, nüfuzu qalacaq. Qəzet köşklərində qəzetdən başqa hər şey satırlar, bircə qəzet satmırlar! Yəni hər tərəfdən qəzetin nəfəsliyi bağlanıb və həm də qəzetlərin " kitabı" bağlanıb! Amma insanların ürəyində qəzet sevgisi bu gün də yaşayır. Və yaşlı nəslin nümayəndələri qəzet alıb oxuyur , onu yaşadır. Əgər 20-25 il bundan əvvəlki kimi qəzetlərin satışı düzgün təşkil edilsə , müyyən qurumlar tərəfindən kömək edilsə, qəzet oxuyanlar da çox olar, hər bir qəzet də yaşayar!!!

## Deyirlər, bizim millətdən futbolçu çıxmaz!



**Futboldan söhbət düşəndə deyirlər ki, ancaq Avropada, Braziliyada , Argentinada olur... Düz sözə nə deyəsən... Amma bu o demək deyil ki, başqa ölkələrdə futbol yoxdur! Var, ancaq onlar kimi ulduz, dünyaşöhrətli futbolçular təbii ki , yoxdur.Çox vaxt bizim millət barəsində də deyirlər ki, Azərbaycanda futbol olmayıb və yoxdur. Bax bu fikirlə heç razılaşmaq mümkün deyil! Əksinə , ölkəmizdə futbol həmişə olub və bu gün də var!**

Hələ sovet dövründə Ələkbər Məmmədov kimi dünyaşöhrətli futbolçumuz var idi! Mən Anatoli Banişevskini demirəm. Təkcə Səmədağa Qurbanovun, İsgəndər Cavadovun, Maşallah Əhmədovun adlarını çəkmək bəs edər. Onlar zamanın ən yaxşı futbolçusu olublar!Görürsünüz ,bizim millət də futbol oynamağı bacarır. Sadəcə olaraq biz Dünya və Avropa Çempionatlarında uğur qazana bilməmişik. Amma buna baxmayaraq, " Qarabağ" Çempionlar liqasında öz sözünü dedi və bir tarix yazdı. Əgər ölkəmizdə uşaq futbolu inkişaf etsə, çox istedadlı futbolçular üzə çıxar! Xaricdən baha qiymətə gətirilən ligonerlərə bir o qədər də belə bağlamaq olmaz. Onlar bir müddət oynayır, məşhurlaşır, pul qazanır və sonra gözləri ayaqlarının altına görmür, çıxıb gedirlər! Ona görə də, yerli futbolçulara güvənmək və ümid bağlamaq lazımdır! Onları axtarıb tapmaq və böyük futbola gətirmək lazımdır. Bu işləri görmək üçün Qurban Qurbanov kimi təcrübəli və vətənpərvər məşqçilərə ehtiyac var! Kim deyir ki, bizim millət futbol oynaya bilmir,düz demir! Sadəcə olaraq onları axtarıb tapmaq lazımdır.Ən yaxşı futbolçular rayonlarda , kəndlərdədir!!!

## İki manata olan diş məcunu üç manata...




**Bu gün çox şeyin qiyməti sürətlə bahalaşır. Axşam yatıb səhər oyanıb görürük ki, dünənkinə nisbətinə qiymət yenə artıb. Bu artımı bizim bir çox iqtisadçılar dünyada gedən proseslərlə əlaqələndirirlər.**

Qoy olsun! Bununla hamı razılaşır. Amma camaat onunla razılaşmır ki, bir məhsulun qiyməti marketdə başqa qiymətə , digərində ondan fəqrli qiymətədir. Məsələn, əvvəllər iki manatlıq diş məcunları indi üç manata satışa çıxarılır ." Ballı" marketdə bu məhsul 3 manat 50 qəpiyə, " OBA" da isə üç manata satılır.

Bir çox market və mağazalar süni qiymət artımı yaradırlar. Bu da istər - istəməz alıcıların narazılığına səbəb olur. Süni qiymət artımı ilə bağlı aidiyyəti qurumlar hələ ki, ciddi bir addım ata bilmir.Və buna görə də satış mərkəzlərində qiymət artımı sabit qalmır və günbəgün yüksəlir.Təbii ki, əhali də bundan heç də razı qalmır!!!

## Qapalı yerlərdə çox olmayın...



**Son vaxtlar ölkə ərazisində qripə yuluxsnların sayı artıb. Təbii ki, bir çox səbəblərlə əlaqədardır. Həmin səbəblərdən biri havanın tez - tez dəyişməsidir. Belə ki, yay fəsli olsa da, havada payızın və qışın soyuqluğu olur.**

Aydındı ki, bu cür havalarda immunitet zəif olan insanlar, xüsusilə də uşaqlar və qocalar qripə daha tez yoluxurlar.Üstəlik də bu xəstəliyi keçirən insanlar qapalı və kütləvi yerlərdə maskadan istifadə etmir, hətta xəstə olduğunu bildiyi halda , başqa insanlarla öpüşməkdən belə çəkinmir.Bu isə qripin sürətlə yayılmasına təkan verir!

Bax ən qorxulusu elə budur. Birmənalı olaraq xəstə insanlar ev şəraitində qalmalı və müalicə almalıdırlar.Əks- təqdirdə xəstəlik sağalmır və uzun çəkir. Həkim- ekspert Nailə Əhmədova deyir ki, ölkədə epidemiya yoxdur. İnsanlar həmişə olduğu kimi, adi qripə yoluxurlar. Bu o qədər də qorxulu deyil! Qorxulusu odur ki, qripə yoluxan inasanlar sanitar - gigyenik qaydalara əməl eləmir, xəstə olduğu halda avtobusda, metroda tibbi maskalardan istifadə eləmir və başqa insanları yoluxdurur.

Ona görə də cəmiyyətin maarifləndirilməsinə böyük ehtiyac var! Özünüzü bu xəstəlikdən qoruyun ki, başqalarını da qripə yoluxdurmayasınız!!!

## İndi balıq yemək olar?



**Deyirlər ki, "r" hərifi olmayan aylarda balıq yemək olmaz! Bunu isti aylarla əlaqələndirirlər.Guya isti aylarda yeyilən balıq insanları zəhərləyə bilər!**

Bunun nə dərəcədə həqiqətə uyğun olduğunu deyə bilməsək də , amma çoxlarının yay aylarında balıq yediyinin şahidi olmuşuq.Qida üzrə ekspert Cavanşir Məmmədov deyir ki, balığı istənilən ayda istehlak etmək olar.Yetər ki, o balıq təzə olsun. Onu da qeyd edim ki, balıq digər qırmızı ətlərlə müqayisədə insan üçün daha xeyirlidir.

Çünki onun tərkibində dana və qoyun ətilə müqayisədə xolesterin yoxdur. Xüsusilə ürək- damar və göz xəstəlikləri olan adamlar balıqdan istifadə etməsi daha məqsədəuyğundur! Təzə və köhnə balığı da müəyyənləşdirmək heç də bir o qədər çətin deyil.Bunun üçün bir balaca diqqətli olmaq lazımdır!

Həkimin dediyi kimi, ilin istənilən fəslində, istənilən ayında balıq yemək olar. Sadəcə olaraq hər adamın sözünə yox, balıqçıların , mütəxəssislərin dediklərinə inanmaq lazımdır!!!

Emil FAİQOĞLU



# Azərbaycanda bu halda ağacların kəsilməsinə icazə veriləcək



**Əkin torpaqlarında ağac və kolların götürülməsinə dair yeni qayda müəyyənləşir, ağaclar dəyəri ödənilməklə kəsiləcək, kollar üçün isə ödəniş alınmayacaq.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Yaşıllıqların mühafizəsi haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, məqsədli təyinatı əkin, çoxillik əkmələrin altında olan kənd təsərrüfatı təyinatlı torpaqlardakı yaşıllıqlar kənd təsərrüfatı fəaliyyətinə mane olduqda yaşıllıqların götürülməsinə yol veriləcək. Bu halda yaşıllıqların götürülməsi (kəsilməsi) ağaclara münasibətdə onların bərpa dəyərini təşkil edən vəsaitlər ödənildikdən və ya bu öhdəliyin icrasına təminat verildikdən sonra həyata keçirilməlidir.

Layihəyə əsasən, bu halda kol, gül-çiçək və ot bitkilərinin kəsilməsinə görə bərpa dəyəri ödənilməyəcək. Kolların kəsilməsi ilə bağlı isə məlumatlandırma icraatı həyata keçirilməlidir.

Ərizəçi tərəfindən kolların kəsilməsindən əvvəl müvafiq məlumatlar təqdim olunur. Yalan və (və ya) təhrif olunmuş məlumatın verilməsi qadağandır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 10 (on) təqvim günü müddətində həmin kolların kəsilməsinə dair irad ərizəçiyə təqdim edilmədikdə, ərizəçi kolların kəsilməsini həyata keçirə bilər. İrad olduqda, həmin irad normativ hüquqi aktlara istinad olunmaqla və onların pozulan tələbləri dəqiq göstərilməklə əsaslandırılmalıdır.

Qeyd edək ki, hazırda ağac və kol bitkiləri yerüstü və yeraltı mühəndis-kommunikasiya təminatı sistemlərinə mane olduqda da yaşıllıqların götürülməsinə yol verilir. Təklif olunan dəyişikliyə görə, bu halda da ağaclara münasibətdə onların bərpa dəyərini təşkil edən vəsaitlər ödənildikdən və ya bu öhdəliyin icrasına təminat verildikdən sonra prosesin həyata keçirilməsi şərti müəyyənləşir.

Layihədə ağac və kol anlayışları da əksini tapıb. Əgər hazırda yaşıllıqların götürülməsi qanunda icazə verilən hallarda ağac, kol və digər bitkilərin yerinin dəyişdirilməsinə (kökündən çıxarılmasına) və ya bərpa edilməsi şərti ilə kəsilməsinə yönəlmiş tədbir sayılırdısa, yeni təklif oluna dəyişikliklərlə əlaqədar bu sıraya ağac, kol və digər bitkilərin bərpa edilmədən kəsilməsi daxil edilir.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq I oxunuşda qəbul edilib.

# "Əsasən Rusiyaya bağlı qrupların hazırki baş nazirə qarşı mübarizə aparması..."

**"Ermənistanda məlum olduğu kimi növbəti parlament seçkilərinin 2026-cı il iyunun 7-də keçirilməsi gözlənilir. Ümumiyyətlə indiyəcən keçirilmiş ənənəvi seçkilərdən fərqli bir seçki prosesinin olması gözlənilir. Paşinyanın seçki mühitini daha demokratik formatda təqdim etmə görüntüsü də onun reputasiyasını qaldırmağa hesablanıb və xüsusilə Qərbin diqqətini cəlb etmək üçündür. Yoxsa Ermənistanda əhali hələ tam demokratik seçki keçirmək və seçib - seçilmək potensialında deyil".**



Bunu Adalet.az-a açıqlamasında siyasi şərhçi Tural İrfan deyib. O, bildirib ki, ölkə parlamentli respublika olduğu üçün bu seçkilər yeni hökumətin və baş nazirin müəyyənləşdirilməsi baxımından həlledici əhəmiyyət kəsb edir: "Sözü gedən seçkilərdə 19 siyasi qüvvə iştirak edəcək ki, bunlardan 2-si blok, 17-si partiyadır. İştirakçı partiyalardan "Vətəndaş müqaviləsi" partiyası, hazırkı baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi iqtidar partiyasıdır. "Ermənistan" (Hayastan) bloku isə keçmiş prezident Robert Köçəryanın rəhbərlik etdiyi müxalifət blokudur. Paşinyanın partiyasının mövqeyi Qərb, Köçəryanın blokunun istiqaməti isə Rusiyadır. "Güclü Ermənistan" bloku da Narek Karapetyanın rəhbərlik etdiyi və tərkibinə bir neçə partiyanın daxil olduğu digər müxalif qüvvədir. İndiki baş nazirə qarşı iki blok tərkibində birləşmiş partiyalar mübarizə aparır. Seçkiqabağı təşviqat kampaniyasına rəsmi olaraq 2026-cı il mayın 8-də start verilib. Ancaq xaricdə yaşayan Ermənistan vətəndaşları üçün seçki məntəqələri açılmayacaq. Yalnız diplomatik xidmətdə olan şəxslər və onların ailə üzvləri elektron qaydada səs verə biləcəklər". Onun sözlərinə görə, Paşinyanın rəqibləri Rusiya maraqlarını təmsil etdiyindən əsasən Rusiyada yaşayan çoxsaylı ermənin iştirakının məhdudlaşdırılması da anlaşılandır: "Bu seçkilər regiondakı geosiyasi vəziyyət, o cümlədən Azərbaycanla sülh prosesi və daxili siyasi qütbləşmə fonunda ciddi izlənilən proseslərdən biridir. Əsasən Rusiyaya bağlı qrupların hazırki baş nazirə qarşı mübarizə aparması, eyni zamanda Kilsənin də rəqiblər arasında olması seçkinin gərgin mühitdə davam edəcəyini göstərir. Daxili siyasi qütblərin mübarizəsindən əlavə Ermənistanda Qərb - Rusiya mübarizəsi davam edəcək. Keçmiş prezident Robert Köçəryanın sülhə və Qərbə qarşı olması daxili auditoriya ilə yanaşı regional maraqları izləyən xarici qüvvələrdə də narahatlıq yaradır. Lakin Köçəryan blokunun və Narek Karapetyanın blokunun real hakimiyyətə gəlmək şansı azdır. Müəyyən sayda yerlər uğrunda mübarizədə ola bilsin effektiv dəstək alsınlar. Lakin indiki baş nazirin komandasının qalib gəlməmək ehtimalı azdır".

**Vasif ƏLİHÜSEYN**

# Azərbaycanda bir çox avtomobil bahalaşdı

**Azərbaycan Qiymətləndiricilər Palatası (AQP) 2026-cı ilin aprel ayı üzrə avtomobil bazarında qiymət indekslərini açıqlayıb.**



Palatadan Adalet.az-a bildirilib ki, bahalaşma davam etsə də, əvvəlki aylarla müqayisədə artım tempində zəifləmə müşahidə olunub. Hesabata əsasən, 2025-ci ilin dekabr ayının baza dövrü kimi qəbul edildiyi indeks üzrə ümumi bazar göstəricisi aprel ayında 105.8 bəndə yüksələrək baza dövrü ilə müqayisədə 5.8%, mart ayı ilə müqayisədə isə 1.3% artıb. Bu isə bazarda yüksəliş trendinin davam etdiyini, lakin qiymət artımının daha sabit mərhələyə keçdiyini göstərir. Palatanın təhlillərinə görə, bazarda əsas hərəkətverici qüvvə yenə də ikinci əl avtomobillər seqmenti olub. İkinci əl avtomobillər üzrə indeks aprel ayında 108.2 bənd təşkil edib ki, bu da dekabr ayı ilə müqayisədə 8.2%, mart ayı ilə müqayisədə isə 2.1% artım deməkdir. Yeni avtomobillər seqmentində isə artım daha zəif olub. Belə ki, yeni avtomobillər indeksi baza dövrü ilə müqayisədə 3.5%, mart ayı ilə müqayisədə isə 0.8% yüksəlib.

**Vüqar Abbasov**
**Avropa Xəbər Agentliyinin**
**(European News Agency) əməkdaşı**



# Sülh, yoxsa müharibə?

**Avropa Xəbər Agentliyində (European News Agency) yayımlanmış məqaləmi Azərbaycan dilində "Ədalət"in oxucuları ilə bölüşürəm.**

**Yazıya keçid linki: https://www.european-news-agency.de/politik/peace_or_war-93682/**

***

**Azərbaycan xalqı sülh istəyir. Erməni xalqı isə bu sualın cavabını qarşıdan gələn parlament seçkilərində verəcək.**

**Hazırda dünyanın bir çox ölkələrinin diqqəti həm də Cənubi Qafqaza yönəlib. İyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkilərinin nəticəsi regiondakı mövcud vəziyyətə ciddi təsir göstərə bilər. Əgər Baş nazir Nikol Paşinyan və onun rəhbərlik etdiyi partiya yenidən qalib gəlsə, regionda uzunmüddətli sülhün yaranacağına inananların sayı az deyil. Çünki Paşinyan Azərbaycanla sülh müqaviləsinin imzalanmasında maraqlı olduğunu açıq şəkildə nümayiş etdirir.**

**Rusiya meyilli siyasi qüvvələr isə Paşinyanı Qarabağı Azərbaycana "satmaqda" ittiham edir və açıq şəkildə bəyan edirlər ki, hakimiyyətə gəlsələr, yenidən Rusiya yönümlü siyasət aparacaq və Qarabağ uğrunda müharibəyə başlaya bilərlər. Bu mövqeni həm Robert Koçaryan rəhbərlik etdiyi "Hayastan" Alyansının, həm Karapetyanın başçılıq etdiyi "Güclü Ermənistan" alyansının, həm də Paşinyana qarşı olan digər siyasi qüvvələrin seçki kampaniyalarında görmək mümkündür.**

**Paşinyan isə Ermənistanın istiqamətini açıq şəkildə Qərbə və Avropaya çevirdiyini gizlətmir. Rusiya rəhbərliyi də bunu görür və Azərbaycan Prezidenti İlham Əliyevin də dediyi kimi, Ermənistandakı revanşist qüvvələrə açıq dəstək verməkdən çəkinmir.**

**Təsadüfi deyil ki, Rusiya Prezidenti Vladimir Putin mayın 9-da keçirilən paraddan sonra Kremldə təşkil etdiyi mətbuat konfransında Ermənistana qarşı sərt mesajlar səsləndirib. O, Ermənistanı Avropa ilə Rusiya arasında seçim etməyə çağırıb və bu ölkə haqqında kəskin ifadələr işlətməkdən çəkinməyib.**

**Burada qısa bir xatırlatma etmək yerinə düşər. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan məhz Rusiyanın dəstəyi ilə Azərbaycanın ərazilərinin 20 faizini işğal etmişdi. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi və sonrakı hərbi əməliyyatlar nəticəsində Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Azərbaycanlılar bu müharibəni "sülh əldə etmək üçün aparılan müharibə" adlandırırlar və məncə, bunda haqsız deyillər.**

**Çünki Paşinyanın özü də dəfələrlə bildirib ki, Rusiya Qarabağ məsələsindən istifadə edərək Ermənistanı daim öz nəzarətində saxlamağa çalışıb. Moskva həm də regiondakı təsir gücünü bu məsələ vasitəsilə qorumaq istəyirdi. Tarixin müxtəlif dövrlərində Rusiya məhz Azərbaycan və erməni xalqlarını qarşı-qarşıya qoymaqla Cənubi Qafqazda mövqeyini gücləndirib və uzun illər buna nail olub. İndi isə həmin təsir aləti onun əlindən çıxmaq üzrədir.**

**Paşinyan, görünür, Ermənistan dövlətinin mövcudluğunu qorumağa və ölkəsini gücləndirməyə çalışan ən realist liderlərdən biridir. O, özü də dəfələrlə etiraf edib ki, əsas məqsədi Ermənistanın təhlükəsizliyini və dövlətçiliyini qorumaqdır. Həmçinin bir neçə dəfə bildirib ki, Qarabağ beynəlxalq hüquqa görə Azərbaycan ərazisidir və belə də qalmalıdır.**

**Rusiya isə özünü sanki Ermənistanın təhlükəsizliyinin və dövlət kimi mövcudluğunun qarantı kimi təqdim edir.**

**Halbuki reallıq tam fərqlidir: Rusiya bütövlükdə Cənubi Qafqaz üçün təhlükə mənbəyinə çevrilib. Ermənistanda Rusiya yönümlü qüvvələrin hakimiyyətə gəlməsi isə təkcə Ermənistan üçün deyil, bütün region üçün ciddi risklər yarada bilər.**

**Bu səbəbdən Azərbaycan tərəfi də müxtəlif vaxtlarda dolayısı ilə Paşinyana dəstək mesajları verib. Məsələn, Prezident İlham Əliyevin aşağıdakı fikri buna nümunə ola bilər:**

**"Biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına və dövlətinə nifrətlə yanaşan kifayət qədər dairələr var. Əgər onlar hakimiyyətə gəlsələr, Ermənistan xalqının özü böyük problemlərlə üzləşəcək."**

**BBC News Azərbaycanca bu çıxışı dolayısı ilə Paşinyana dəstək kimi qiymətləndirib.**

**Azərbaycan həm də praktiki addımlarla regionda sülh şəraitində yaşamaq istədiyini göstərir. Bunun ən bariz nümunələrindən biri Azərbaycanın Ermənistana neft məhsulları ixrac etməsidir. Azərbaycan ötən ilin dekabr ayından etibarən Ermənistana neft məhsulları göndərməyə başlayıb.**

**Azərbaycan və Ermənistan sülhə heç vaxt olmadığı qədər yaxındırlar. Ötən ilin avqust ayında Əliyev və Paşinyanın Vaşinqtonda sülh sənədinə imza atmaları da bunun açıq göstəricisi oldu.**

**Azərbaycanlı ekspertlər də iyunun 7-də Ermənistanda keçiriləcək seçkilərin region və sülh üçün həlledici əhəmiyyət daşıdığını bildirirlər. Məsələn, tanınmış jurnalist, siyasi şərhçi və filologiya elmləri doktoru Qulu Məhərrəmli özünün Facebook səhifəsində yazır:**

**"Parlament sədri Simonyanın son müsahibəsindən görünür ki, 7 iyun seçkiləri Ermənistan üçün müharibə, yoxsa sülh; həqiqi müstəqillik, yoxsa amorf dövlət məsələsidir. Paşinyanın qalib gəlməsi arzulanan bu seçkilər Azərbaycan üçün də həyati əhəmiyyət daşıyır.**

**Digər tərəfdən Putin məlum paraddan sonra Ermənistanın daxili işlərinə daha fəal şəkildə müdaxilə etməyə başlayıb: gah Ukrayna ilə paralellər aparır, gah 'mədəni boşanma'dan danışır, gah da Ermənistanın Avropa İttifaqına daxil olması üçün referendum keçirilməli olduğunu deyir. Bir sözlə, Cənubi Qafqazda proseslər 7 iyun seçkiləri fonunda çox təhlükəli mərhələyə daxil olur."**

**Bəli, Ermənistanda keçiriləcək parlament seçkiləri bütün region üçün son dərəcə vacibdir. Ermənistan xalqı Avropa yönümlü siyasəti, yəni Paşinyanın rəhbərlik etdiyi siyasi qüvvəni, yoxsa Rusiya yönümlü qüvvələri seçəcək? Sülhə, yoxsa müharibəyə səs verəcək?**

**Bu seçkilər göstərəcək ki, Ermənistan cəmiyyətinin əksəriyyəti həqiqətən sülh istəyirmi, yoxsa yox. Keçmişdən nəticə çıxarıblarmı? Regionun gələcəyini qarşıdurmada, yoxsa əməkdaşlıqda görürlər?**

**Bütün bu sualların cavabı yaxın günlərdə məlum olacaq.**

**vugarabbasov@hotmail.com**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# ÇIXA BİLMƏDİYİM LABİRİNT

## PSİXOZDAKI HƏYAT VƏ ÖLÜM MÜCADİLƏSİNİN CİZGİLƏRİ

***(Yazıçı, Millət Vəkili İMAMVERDİ İSMAYILOVUN əsəri haqqında düşüncələrim)***

Etiraf etməliyəm ki, son illərdə bu ağırlıqda, bu tutumda yazı oxumamışdım. Və son illərdə sözün altında, fikrin burulğanında batıb qalmamışdım. Amma indi elə batmışdım ki, nəfəs almağım da çətinləşmişdi. Öz-özümə hətta niyə oxudum bu əsəri, niyə birinci abzasından qatlayıb qoymadım bir kənara bu qəzeti deyə suallar da keçirtdim ürəyimdən. Sizə bu halım, bu düşüncəm qəribə gələ bilər, amma bir olan Allah şahiddir ki, mən təkrar-təkrar həm də günün müxtəlif saatlarında, özümün müxtəlif ovqatlarında oxudum bu povesti. Hər dəfə də yenidən o burulğana düşdüm, yenidən o boğulmaq təhlükəsi ilə üz-üzə qaldım.

**Açığını deyim ki, mən yazının adını oxuyanda özümdə müəyyən təsəvvür yaratmışdım. Çünki mənası dolaşıqlıq, qarmaqarışıqlıq olan bu başlığın arxasında bir nəfəs genişliyini düşünmək doğru olmazdı. Amma bu qədər də yox da. Elə bil ki, müəllif həqiqətən də labirinti, hətta nəfəs almaq üçün də çıxılmaz bir qala edib. O qalanın içərisində ancaq yük daşımalısan, özü də fikir yükü. Bir nöqtədən o biri nöqtəyə çatdırmalısan ki, sözün əvvəlindəki fikir sondakı fikirdə yozumunu tapsın. Və sondakı fikir də özündən sonra gələcək fikrin özülü olduğunu hiss etdirsin. Deməli, sözün əvvəlindən sonuna qədər fikir yükü adamı beynindən deyil, həm də ürəyindən elə sıxır ki, az qala gicəllənməkdən özünü güclə tutub saxlayırsan. Bu fikir sərxoşluğu səni o labirintdən çıxmağa yönəldə bilmir. Ona görə ki, labirintin içi ancaq yüklü fikirdi. Qalaq-qalaq fikirlər...**

*Mən qələminə yaxşı bələd olduğum və yaradıcılığını, həqiqətən də, izlədiyim yazıçı İmamverdi İsmayılovun son illərdə sözü bu qədər fikrə çevirmək və həmin fikirləri də təkcə özünün yox, həm də oxucunun fikirləri ilə bir sıraya çəkib gətirmək məharətinə heyran qalmışam.*

Sanki istedadlı söz adamı yazı masası arxasında deyil, cəmiyyətin elə bir nöqtəsində dayanıb ki, hamını görür, hamının içini, beynini oxuyur. Ürəklə beyin arasındakı gəlişmələri çözür, incələyir. Və sonra onun hamısını qələminin ucuyla hərflərə çevirir, o hərflərdən söz yaradır, o sözdən də cümlələr qurur. Və sonda da bu cümlələr fikir hökmünə, fikir ittihamına, fikir gerçəkliyinə, hətta az qala fikir bəyanatına çevrilir. Oxuduqca o fikirlər səninlə həmsöhbət olur. Sanki sənin içindən keçənin cavabı kimi durur gözünün qarşısında...

**Bunlar mənim fərziyyələrim, təxəyyülümün bəhrəsi deyil. Bunlar bir oxucu olaraq, oxuduğum əsərin mənə keçdiyi dərsin, verdiyi bilginin cavabıdır.** Biraz da açıq şəkildə ifadə etmiş olsam, öyrəndiyimin öyrədənə cavabıdır. Deməli, söhbət o labirintin içindəki dərsdən gedir, həyat dərsindən, fikri çözməyi öyrənmək dərsindən. Çünki o labirintin içindəki adam fərd deyil. Bütün cəmiyyət onun içərisindədir. Mən də, sən də, o da. Yəni hamımız. Ona görə də o labirintin içindəki fərdin konkret adı yoxdur. O, bütöv bir cəmiyyətin obrazıdır - varlısıyla, kasıbıyla, ağıllısıyla, dəlisiylə, uşağıyla, böyüyü ilə, hətta təbiət ilə də. Çünki bu labirintin içində ölən dəniz də var, gül satan uşaq da var, özəl klinikanın həkimi də. Üstəlik bu labirintin içində xaotik bir həyat da var. Hər kəs istədiyi kimi yaşayır, amma həm də hər kəs bacardığı kimi yaşayır. Deməli, orda pul var, mənsəb var, orda ehtiyacını, güzəranını, hətta dərman almaq dərdini zülümlə yaşayanlar da var.

*Bax, elə cəmiyyətin ən yüksək nöqtəsində dayanıb bütün bunları görən və gördüklərinin də fikir ifadəsinə təkcə rəssamlıq yox, həm də folklordan, xalq deyimindən gələn inancları qatan ədib mənə görə ahıl bir müdrik kimi bütün bunları danışır, xırdalayır. Özü də zərgər dəqiqliyi ilə.*

Yazıçı İmamverdi İsmayılovun "Labirint" adlandırdığı, həm də "Bir ölüm haqqında povest" kimi qiymətləndirdiyi bu yazıda mən ilin dörd fəslinin necə bir nöqtədə üst-üstə düşdüyünün də şahidi oldum. Təsəvvür edin ki, müəllif oxucu olaraq mənim əlimdən elə birinci abzasda tutur. Şəxsən mən həmin abzasda öz yaşantımı görürəm. Hətta bu barədə yazdığım şeirimi də xatırlayıram. Söhbət darıxmaqdan gedir. Birmənalı olaraq mən artıq darıxmaqdan utanıram. Evimdə, ailəmdə, iş yerimdə nə edəcəyimi, necə edəcəyimi, bəzən bir fikri on dəfə təkrar etməkdən, düşünməkdən artıq özümü də, ətrafdakıları da bezdirirəm. Onlar məndən uzaqlaşır, mən onlardan küsürəm.

Və mənə elə gəlir ki, artıq mən doymuş məhlulam. Adamlar məndə təzə, maraqlı heç nə görmürlər. Ona görə də məni yola verirlər. Bu gerçəklik mənim içimə hakim olduğundan "Bir ölüm haqqında povest"in elə ilk abzasında düşündüm ki, bu, bəlkə də fikrə qoşulmadı. Müəllif də ruhən mənim və mənim kimilərin fikirlərinə qoşulub. Ona görə də bu povestdə bir çıxış yolu tapacağıma, bir xilas kəndirindən tutacağıma ümidləndim. Və...

**Yazıda günümüzün bir reallığı ilə qarşılaşdım.** Ekranlarımızı gen-bol zəbt edən həkim məsləhətləri ilə. Heç kim dana bilməz ki, hətta şou proqramlarda belə həkimlərin iştirakı, dərmanların reklam edilməsi adi bir hala çevrilib. Çoxumuz məhz həmin həkimlərin "xidmətləri"ndən yararlanırıq. Günün nəbzini çox ustalıqla tutan yazıçı da həmin detaldan istifadə edərək, məni və mənim kimi oxucuları çəkib aparır labirintin içərisinə. Həkim də təmkinini pozmadan adi bir işgüzarlıqla dinləyir, sonra da xəstəliyimizin adını deyir:

- Obsessiv!!!

Təsəvvür edin ki, yazının adı labirintdi, oxucunu cəlb edir və



düşündürür. Xəstəliyin adı obsessivdir. Həm qulaq üçün, həm də dil üçün cəlbedicidir, maraqlıdır. Deməli, bu da düşündürür. Hər iki halda düşünən oxucudur, yəni o labirintin içərisində bir araya gəlmiş cəmiyyətdir. Özü də hər kəs öz ağlına, öz savadına, öz dərketmə qabiliyyətinə görə düşünür.

*Heç kim "yatıb vaxtını satmır".*

***Heç kim "könül süfrə deyil ki, açıb töksün..."* deyimini unutmur və heç kim də hara getdiyinin fərqində deyil. Sadəcə hamı düşünür, hamı içində danışır, hamı da gedir. Ölümdən ölümə doğru.**

Bu yol uzunu baş verənlər isə müxtəlif çalarlardan bəhrələnir. O çalarların işıqlı tərəfləri də var, qaranlıq tərəfləri də. Şeytan xisləti adamın içində yurd salanda çapmaq, talamaq, acgözlük, əxlaqsızlıq, daha nələr... adamı adamlıqdan çıxarır. Əl tutmaq, dayaq durmaq, haya çatmaq, Allahı başının üstündə görmək, sevgini, diqqəti, saygını yaşatmaq adamı irəliyə çəkir, sabaha istiqamətləndirir. Deməli, bütün bu hallar bir fərdin timsalında ifadə olunsa da, o fərdin özünün tənhalığı, təkliyi bu işıqlı və qaranlıq tərəflərin vuruşunda gücsüz edir.

**O, yalnız özü-özünü qınamaqla təsəlli tapır. Çünki cəmiyyət böyük güc, o isə xəstəliyi ilə vuruşan tənha fərddir.**

Bütün bunların fonunda, acı həqiqətlər hətta insanların bir-birinə qarşı nə qədər etinasız olduqlarını pərdələmir. Çünki həmin acı həqiqətlər, çayı, gölü qurudan, dənizi çirkaba batırıb balıqları dənizdən uzaq salan nəfsin diktəsidir, nəfsin bəhrəsidir.

*Nəfs güc gəldikcə həqiqətlər daha acı olur. Onda var-gəl etməkdən, "səhər naxır, axşam axur" yolunu ölçməkdən başqa əldə tutacaq başqa bir şey qalmır.*

Digər tərəfdən, yalanın həqiqət kimi at oynatması da cəmiyyətin psixozunu bir az da artırır. Gözün gördüyü ilə qulağın eşitdiyi bir-birini inkar edir. Bu da məhz labirintdəki reallığın nə qədər çözülməz olduğunu göstərən bir detaldır.

**Bu bir həqiqətdir: təsir əks-təsirə bərabərdir.** Və göz də nəyi görürsə, ilk öncə o görünüşə, o mənzərəyə diqqət ayırır. Həmin diqqət də müəyyən fikir formalaşdırır. Bundan sonra ağıllı adamlar gördüklərinin məzmununa daxil olurlar, onun mahiyyətini çözürlər. Gərəklilik düsturunu tapırlar. Deməli, cəmiyyət də bu mənada axtarışdadır. Amma bu axtarış həm də xaotikdi. Ona görə ki, hərənin öz görmə bucağı var. Biri görmək üçün baxır, biri baxmaq üçün. Məntiqi olaraq ünvan birdir, istiqamət bəllidir. Amma ora kim niyə gedir, necə gedir və orda gedənləri nə gözləyir, bütün bunlar hamısı sualdır. O sualların öncədən yozumu yoxdursa, deməli, bu bir axındır, seldir. Yuyub dağıdacaq, silib süpürəcək... Bax cəmiyyətin də o labirintin içində çabalamasının, vurnuxmasının, öz-özünə danışıb özü-özünü qiymətləndirməsinin, haqlı və haqsızlıq prizmasının səbəblərini axtarmaq da elə burdan başlayır. Ona görə də fikir yükü adamın çiyinlərindən basır, beynini kütləşdirir. Təkrar olsa da, vurğulamaq istəyirəm ki, burda nəfs cəld, daha pərgardır. İnsan nəfsin quluna çevrildiyindən gördüyünün üzərinə özünü daha tez atır. Daha çox qoparmaq, daha çox qazanmaq üçün.

Bu yerdəcə, düşünürsən ki, bizim xəstəliyimizin müalicəsi həkim reseptindən asılı deyil. Onun vərəqə nə yazmasından asılı olmayaraq, bu cəmiyyət psixozundan çıxmaq üçün Allah tərəfindən yaradılan insan hara getdiyini bir an da olsun unutmamalıdır. Bilməlidir ki, kimliyindən, mövqeyindən, maddi gücündən asılı olmayaraq, SON - birdir, bir!..

O bir olan da elə Allahın vahidliyinin, tək olmasının iradəsinin diktəsidir. Məncə, o SON olmasa insan idarəolunmaz bir duruma yuvarlanar. Onda bir labirint yox, yüz, bəlkə min də olsa belə faciələrin, dağıntıların, hətta qətliamların belə ardı-arası kəsilməz. **Axı insan nəfsi qılıncdan itidir!..**

Povestin son sətirlərini oxuyanda, bir daha artıq məni öz labirintində çabaladan fikirlərin burulğanına qayıdıram. Özü də elə belə yox, çıxartdığım, özüm üçün müəyyənləşdirdiyim reallığın hara gedib çıxacağını fəhm etmək üçün. Bu yerdə yenə tam səmimiyyətlə etiraf edim ki, mən müəllifin bizi hara aparacağını təxmin etməyə çalışırdım. İstəyirdim mən də onun fikirlərinə qoşulum. Buna azacıq da olsa nail ola bildim. Çünki əsərin qəhrəmanı tutulduğu xəstəlikdən çıxış yolunu ən yüksək mərtəbədən cəmiyyəti, olduğu mühiti, yaşadığı ərazini seyr edə-edə üzü aşağıya göz atmaqda görür. Yəni o, ən yüksək qatdan yerə baxdıqca, sanki, yolu ölçür və məsafəni yaxınlaşdırır.

**Hətta bu intihar anında da o, cəmiyyətdəki psixozdan ayrıla bilmir, çünki LABİRİNTDƏDİR, çünki xəstəliyinin adı OBSESSİVDİR!**

Azərbaycan oxucusunun imzasını yaxşı tanıdığı İmamverdi İsmayılovun sonuncu povestini təkrar-təkrar oxuyub, onu öz içimdə ələdikcə, yadıma ötən il oxuduğum və hələ də unuda bilmədiyim bir əsərini də saldı. O əsərdə də bağ qarovulçusu ilə bayquşun mənə yaşatdığı real mənzərə sanki daha böyük bir güclə, daha böyük bir aura ilə "LABİRİNT"də almışdı məni öz caynağına. Bu əsərləri mən bir-birinin davamı kimi gördüm. Üstəlik, "LABİRİNT"də mən həm də müəllifin insan psixologiyasına elmi baxımdan da nə qədər munis olduğunu, tibbi nəzərdən dəqiq bələdçiliyini də müşahidə etdim.

Təbii ki, İmamverdi müəllim bir yazıçı olaraq sözü oxucuya həzm etdirmək və o sözün gücünə inandırmaq keyfiyyətlərini çoxdan bizə sübut edib. Lakin mən son iki əsərdə tamamilə fərqli, yeni bir üslubun, yeni bir bəşəri yanaşmanın və istedadlı bir söz adamının nəfəsinin oxucusu oldum...

**Bu, mənim üçün, yazıçı İmamverdi İsmayılovu yenidən kəşf etmək idi...**

**Düşünürəm nə qədər ki, bu "LABİRİNT"dən tam çıxa bilməmişəm, deməli, hələ çox qayıdacam o "LABİRİNT"ə və təzədən oxuyub yeni düşüncələrə dalacam...**

**...Amma, sizdən də bir ricam var, əziz oxucular, oxuyun bu əsəri!..**

**Oxumağa və düşünməyə dəyər!..**

# HƏR ANINDAN SƏNSİZLİK TÖKÜLƏN...

## BİR İLİN ELEGİYASI







**Zamanın sürəti inanılmazdı... Mən bunu son bir ildə canımda, qanımda, həyatımda açıq-aşkar hiss etdim... Bu sürətin içimdən, üstümdən necə biganə, etinasız, hətta dəlicəsinə tozanaq qopararaq keçib getdiyini anbaan yaşadım... Daha doğrusu, buna məhkum edildim... Bu bir il mənə bir göz qırpımı, qaşla göz arası, "Salam-sağ ol!" məsafəsi qədər yaxın oldu... Hər gün onu gördüm... Hər gün Ondan və Onunla danışdım... Hər gün indicə mənə zəng edəcəyinə inandım... Amma...**

Mən kənddə doğulmuşam. Yaşım da az deyil. Demək olar ki, bu dünyanın hər bir üzünü, hər sifətini görmüşəm. Sərt qışını da, şaxtasını da, boranını da, qocaman ağacları kökündən qoparıb aparan selini də, daşqınını da, ucundan tutub göyə çıxmaq mümkün olan yağışını da, hətta ayağının ucunu görməyə imkan verməyən dumanını da...

Mən müharibəni də görmüşəm. O müharibənin başlanğıcı olan qaçqınlığı da yaşamışam. Daş atmaqla başlayan müharibənin ağır silahlarla, döyüş texnikaları ilə davam etməsinin də şahidi, iştirakçısı olmuşam. Bütün bunları ona görə yazıram ki, mən ölümün nə olduğunu, kim olduğunu bəlkə də hamıdan yaxşı və hamıdan çox bilirəm. Çünki səngərdə müsahibə götürdüyüm igidin elə gözümün önündəcə mərmi qurbanına çevrildiyini görüb yaşamışam. Ona görə də anti-terror əməliyyatından sonra düşünürdüm ki, ölüm məni heç vaxt ağlatmaz, ölüm məni heç vaxt büküb yumağa döndərməz. Çünki özümü ölümə alışmış, ölümün daşlaşdırdığı ürək sahibi hesab etmişdim. Amma həyatımda, sən demə, ən böyük yanlışı düşünmüşəm. Çünki 2024-cü ilin 24 aprelində anamı itirəndə elə ağladım ki, hələ də o ağrıyan ürəyimin sızıltısını canımda, ruhumda hiss edirəm. Və mənə doğmalar dedilər ki, bu hönkürtü hamımızı ağlatdı. Eşitməmişdik belə hönkürtü. Düşündüm ki, yəqin son ağlamağımdı, ona görə də bütün gücümlə içimdəki göz yaşlarımı axıtmaq istəmişəm. Təəssüf... yenə yanıldım... Çünki 2025-ci ilin may ayının 15-də günün bitən anında elə ağladım ki...

Bəli, mən kənddə doğulmuşam. Budanan ağacın kəsilən yerlərindən göz yaşlarının necə damcılandığını görmüşəm. O kəsilən yerlərə torpaq basıb sarımışıq və bu da bizdən ağaca bir təsəlli olub. Sakitləşdirmişik ağacı. Anlatmaq istəmişik ki, "Ay ağac, biz sənə qayğı göstəririk, cavanlaşdırırıq, ömrünü uzadırıq..."

Hə, beləcə özümüzün uydurduğumuz təsəlli ilə sakitləşdirmişik ağacı. Amma ağacın bizimlə həmfikir olduğuna razılaşdığına heç əhəmiyyət də verməmişik. Çünki qərarı biz vermişdik, hicranı da biz etdik, budanan isə ağac oldu...

İndi oturub fikirləşirəm. Və yadıma sala bilmirəm ki, kimsə onun barəsində mənə və yaxud hansısa bir yaxınımıza, doğmamıza giley etmiş olsun, narazılıq bildirsin. Heç cür xatırlamıram. Çünki o, doğulduğu kimi yaşayırdı, öz xarakteri ilə, öz kobudluğu və səmimiyyəti ilə. Heç vaxt ütülü danışmırdı. Sözü seçmirdi. Kimə nə deyirdisə, dilindəkini yox, ürəyindəkini deyirdi, hamıya da əl uzadırdı. Heç bir vəzifəsi yox idi, adicə fəhlə idi, yəni sürücü. Yolda gördüyünü maşınına mindirirdi, qapısına gələni xoş üzlə qarşılayırdı. Hardasa bir xəbər eşidəndə özünü çatdırırdı. Çörəyi də tək yeməzdi, mütləq ya ailədən kimsə oturmalı idi, ya yoldan keçən kimsəni çağırmalı idi ki, gəl, bir stəkan çay içək. Uca səslə danışardı. Məni o qədər danlayardı ki, elə bir atamdı. Əslində, sonbeşiyimiz idi. Lakin iradlarında həmişə haqlı idi. Çünki xətrə dəyməkdən qorxmurdu. Dəqiq bildiyini, əmin olduğunu adamın üzünə deyirdi, gözlərinin içinə baxa-baxa, zarafatı da belə idi, incik danışmağı da. Bilmirəm, Allah onu hansı saatda, hansı imtiyazla yaratmışdı. Bircə onu bilirəm ki, o, ailəmizdə hamıdan fərqli idi, elə kəndimizdə də. İndi də xatırlayıram... Ötən ilin may ayının 14-nü... gecə saat 22:20-də məni rayona çağıranda ağlıma onunla bağlı heç nə gəlmədi. Yalnız yolun yarısında düşündüm ki, əgər ailədə kimsə narahatdırsa, niyə özü mənə zəng vurmayıb. Bax, onda yaxınlarımın birinə özüm zəng etdim. O da bilmədən dilindən qaçırtdı. Və bax onda anladım ki, Cənnətə köçüb Sabir, köçüb və bu səbəbdən özü mənə zəng etməyib...

*Baş açmadım mən sonuncu olaydan,*
*Bu dünyaya gəlib getdi qardaşım...*
*Geri dönüb ömrümdəki dolaydan,*
*Bu dünyaya gülüb getdi qardaşım.*

*Tanıyan tək doqquzundan onunu,*
*Sökük gördü əynindəki donunu.*
*Elə bil ki, hiss elədi sonunu -*
*Bu dünyanı - bilib getdi qardaşım.*

*Böyütmədən kin-küdurəti ürəkdə,*
*Yaşadırmış bu qüdrəti ürəkdə!*
*Gülümsəyib o nifrəti ürəkdə -*
*Aparmadı, silib getdi qardaşım!*

*O, Allahın saf zərrəsi bir idi,*
*Mənim üçün sığındığım yer idi!*
*Varlığımda mələklər tək diridi,*
*Deməyin ki, ölüb getdi qardaşım,*
*Mənlə ömrü bölüb getdi qardaşım.*

İnsan yaşadığı dönəmdə həqiqətən çox şeylərə, çox məqamlara, bəzən diqqət yetirmir, laqeydlik göstərir, bəzən də əhəmiyyətsiz sayır. Amma sən demə hər anın, hər görülən işin və diqqətdən yayınan nəsnələrin həyatımızda izi var.

Və biz həyatımızda olan hər şeyi nə qədər görməməzliyə vursaq da, onlar da öz işlərini görməkdədi. Yəni bizə də öz təsirlərini öz gücləri daxilində göstərməkdədirlər. Bu mənada biz kiminsə itirəndə düşünürük ki, insan öz sağlamlığı ilə maraqlanmalıdı, manelərdən keçməlidi... onu etməlidi, bunu etməlidi. Öncə can sağlığını düşünməlidi və s. və i. Amma biz bunu məhz əzizimizi, yaxınımızı itirəndə düşünürük və o düşündüyümüz də həmin ağrı ilə birlikdə yenə elə yaddaşımızda qalır növbəti ağrıya qədər. Çünki bir Türk olaraq bizim üçün can sağlığından daha çox görəcəyimiz işlər önəmlidir. Üzərimizə düşən vəzifə, ailə qayğıları və digər məsələlər ömrümüzü elə mənimsəyir ki, yatağa düşəndə son nəfəsdə bilirik sağlığın, sağlamlığın nə olduğunu.

Bax, bu mənada ömrün ən gözəl çağında itirdiyim qardaşımın bir dəfə də olsun sağlıq durumunun ciddi bir narahatçılığını eşitmədim. Adi həyatını yaşadı, qaçqınlığı, sonra da sürücü kimi çalışıb ailəsini dolandırdı. İndi onun qəfil ölüm səbəbini hərə bir tərəfə yozur.

Daha çox da damar tutulmasına bağlayırlar. Bilmirəm, bu nə qədər həqiqətdir, sadəcə bildiyim odur ki, itirdiyimiz hər bir adam yaşından, cəmiyyətdəki yerindən asılı olmayaraq bizdən nəyisə özü ilə alıb aparır. Bu mənada mən ailəmdə ən çox sevdiyim, ən çox güvəndiyim qardaşımı itirməklə ata-anamdan sonra birmənalı olaraq yetimliyi qəbul etdim. Başa düşdüm ki, ata ocağında oturan qardaşım daha yolumu gözləməyəcək, mənə zəng vurmayacaq və mən də bu ocağa üz tutanda məni qarşılamayacaq.

Bu hisslər, inanın ki, içimdə ürəyin budanması gedir - özü də küt bir balta ilə, dəhrə ilə, xəncərlə budanır ürəyim.

***Budanmış ağac kimiyəm,***
***Ümid quşu hara qonsun?!***
***Həm ölü, həm də diriyəm -***
***Az qalır ki, qanım donsun.***

***Gözümü göydən çəkmirəm,***
***Yer məni yaman üşüdür.***
***O mələk olub, bilirəm -***
***Hər nə deyirəm, eşidir.***
***Odur ki, susmur xəyalım,***
***Danışır açıq, həm içdə...***
***Yer tapmıram ki, dayanım -***
***Yoxdu məndə bu səriştə...***

***Sirri nədədir görəsən,***
***Ərimir, olubdu bu qar, daş...***
***Əlini mənə verəsən -***
***Bərk tutub dikələm, qardaş!***

Düşünməyin ki, mən dərdimi, ağrımı sizə yükləyirəm. Elə bilməyin ki, mənim üçün siz hardasa yalnız kədərimi, ağrımı paylaşmaq üçün bir ünvansınız.

Xeyr, mən nə havalanmışam, nə dəli olmuşam, nə də bilərəkdən, bilməzdən sizə ağrı yükləmirəm. Əslində mən özüm-özümlə danışıram, divarla danışıram, göylə, yerlə, Allaha ağır gedəcəyini bilsəm də, hətta asi oluram. Amma bu mənim içimdəki ağrının göynərtisində və bir də gözlənilməz gəlişində baş verir.

Çünki heç vaxt onunla bağlı kədərli, qəmli heç nə ağlımın ucundan da keçməyib. İllah da ki, ölüm. Kimsə bu sözü mənə hansısa bir qohumum, doğmam barəsində desəydi inanardım. Mümkündü deyərdim.

Amma Sabirin barəsində bu, mümkünsüz idi. İndi mən bu yazını yazanda da onun səsini eşidirəm. Onunla göz-gözə dayanmışam.

Onun sifəti, təbəssümü, yorğunluğu və bir az da küskünlüyü mənim üçün qardaşımın həyatdakı varlığı deməkdir.

Çünki o, belə idi, hər an, hər gün belə idi. Elə belə də görürəm. Və belə gördüyüm qardaşımın son addımını elə onun belə olması ilə bağlayıram.

Çünki atam, anam sonbeşik qardaşıma daha çox meyil salmışdılar. Onunla bir yerdə yaşayırdılar. Və onların hər ikisi də məhz Sabirin yanında, gözünün önündə bu dünyaya əlvida demişdi və Sabir də atamın ölümündən 5 il, anamın ölümündən 1 il 21 gün sonra çıxıb getdi onların yanına.

Elə bil məndən cəsarətli çıxdı, məndən cəld tərpəndi, hamımızı qabaqladı, istəmədi onlar orda tək qalsınlar. Axı, atam, anam da hər sözü, hər tapşırığı, hər arzunu ona deyirdilər.

Darıxdı Sabir, çox darıxdı ataana üçün. Elə darıxdığına görə də bizə heç nə demədi. Bildi ki, razı olmayacağam.

İllah da onunla hər yerə, hər bir işin dalınca birgə gedən iki nəvəsi Tuncay və Tunar indi də babalarını axtarırlar.

Orta məktəb şagirdi olan bu azyaşlılar yalnız "baba" deyirlər. Onların məsləhət yeri də, güvən yeri də, bir sözlə, hər şeyləri babaları idi. Baba isə...

Mən düşünürəm, baxıram, nə edəcəyimi, nə deyəcəyimi qərarlaşdıra bilmirəm. Ona görə də anama üz tuturam.

Ona incik bir məktub yazıram, giley dolu. Göz yaşı hopmuş bir məktub.

***Anam, yaman darıxırdın,***
***Küsürdün hətta atamdan...***
***Deyirdin uzaq düşərmi -***
***Oğul, uşaq da adamdan?..***

***Gileyin çatırdı mənə,***
***Yuxu ilə, ya xəyalla.***
***Özümə saysam da tənə -***
***Barışmışdım tay bu halla...***
***Cəld tərpəndi sonbeşiyin,***
***Keçdi hamımızdan önə.***
***Atdı burda ev-eşiyi,***
***Gəlib qonşu oldu sənə!..***

***İndi gedib gələn yerin,***
***Qulluğunda duranın var...***
***Silərək ayrılıq tərin,***
***Təzə binə quranın var.***

***Siz orda oğul sevdalı,***
***Mən burda qardaş dağlıyam...***
***O oldu ana-atalı -***
***Bilmirəm, kimə ağlayam!..***

Bəli, mayın 15-nə kimi, yəni Sabiri atamın, anamın yaxınlığında torpağa tapşırana kimi yalnız atamı, anamı ağlayırdım. İndi onlar bir ailədi, övladı olan bir ailə. Mən də bilmirəm, kimi ağlayım? Ailəmimi, qardaşımımı, atamımı, anamımı? Bilmirəm, ana! Bilmirəm... Öyrənmək istəməyə də kimsə yox... Və ağıllı, bilikli saydıqlarımdan da soruşa bilmirəm... Çünki onların ayaqlarının ucuna dikilmiş baxışları özlüyündə hər şeyi deyir.. Onlar da susurlar... Mən isə bağırmaq istəyirəm... bağırmaq... Özü də o qədər bərkdən ki, səsim ona gedib çatsın... Eşitsin məni... Bilirəm ki, eşitsə cavab verəcək... O həmişə mənə "Hə, qağa, eşidirəm" deyibdir... İndi isə o da susur... Bəs mən ... Mənsə onun məzarı ilə söhbət edirəm:

***Görüşdük, sarıldım, o isə susdu***
***Baxdı təbəssümlə, baxdı gülüşlə.***
***Sonra da gözümün içinə dedi -***
***Kimi aldadırsan belə gəlişlə!***

***Mən burda atalı-analı adam -***
***Sən orda yetimsən! - vurdu üzümə...***
***Elə bil od düşdü, alışdı odam -***
***Qayıda bilmirəm hələ özümə...***

***Çözməyə gücüm yox bu olanları -***
***Canımın ağrısın üfürüm göyə...***
***Sayım bircə-bircə tez solanları -***
***Onda tez yetişər küfürüm göyə...***

***Mənim var olmağım, yox olmaq qədər***
***Eyni yozumdadı doyanlar üçün...***
***Allahın verdiyi üzücü kədər -***
***Ölümün özüdü duyanlar üçün!..***

Bəli, bir ildir bu sözü deyə bilmirəm!!! Yaraşdırmıram!!! Ona layiq bilmirəm! Elə bilmədiyim üçün də demirəm...

**Əbülfət MƏDƏTOĞLU**

# RUHLAR



Rəhman HACIYEV

**"Ey Məhəmməd səndən ruhlar haqqında soruşacaqlar, onlara söylə ki, bu rəbbimin əmrindədir. Mənə isə bu barədə çox cuzi bir məlumat verilib". Bu kəlamlar Peyğəmbər əfəndimizə aid olan hədislərin birindəndir.**

Bəri başdan söyləyim ki, hansı mövzudan bəhs etdiyimin fərqindəyəm və məsuliyyətinin indidən çiyinlərimdə, kürəklərimdə özünün bütün ağırlığını hiss etməkdəyəm. Bəhs edəcəyim mövzu nə qədər çətin olsa da, oxuduqlarımdan, eşitdiklərimdən faydalanaraq möhtərəm, düşüncəli oxucularıma bu sahədə bəzi mülahizələrimi çatdıra biləcəyim fikrindəyəm. Elə bu üzdən reallıqları olduğu kimi çatdıra bilmək üçün bütün bilik və duyğularımdan, həmçinin dünyasını çoxdan dəyişmiş insanların da dediklərindən faydalanacağım heç də istisna deyildir.

Adətən belə söyləyirlər ki, insanın vücudu bədənindən deyil, ruhundan ibarətdir. Ruh çoxlarının başa düşdüyü kimi, deməliyik ki, heç də dini bir məfhum deyildir, o insanın bütün əza və orqanlarını hərəkətə gətirən, ürəyin döyüntüsünü belə böyük məharətlə nizamlayan, gözəgörünməz bir xəyali tüstü selindən ibarətdir. Və bu tüstü seli adlandırdığımız meyar insanın bətnində, içində olduğu müddətcə onu yaşadır, eyni zamanda dünyaya MEYDAN oxutdurur, - desək heç də yanılmarıq. Elə bəlkə də buna görədir ki, ruh bədəni tərk etdiyi andan insanın bütün orqan və əzaları öz fəaliyyətini dayandırır, başqa sözlə desək, - Ölüm faktı baş verir. Bu bioloji ölüm barədə ölməz sənətkarlarımız, böyük dramaturq Cəfər Cabbarlı fikirlərini belə ifadə etmişdir:

*"Ölmək, o geniş körpü ki, hər kəs keçəcəkdir.*
*Bir badə ki, ondan bütün aləm içəcəkdir.*
*Hər süslü çiçək sonda saralmış quru torpaq,*
*insan, nədir o, əvvəli torpaq, sonu torpaq..."*

Ruh müəmmalı, insanı düşündürən həm də çox maraqlı bir anlayışdır; o daima əzizlərinin başının üstündədir və onları ciddi - cəhdlə mühafizə edir. Təsadüfi deyildir ki, dünya şöhrətli müğənni, özünün ürəkləri fəth edən səsi və dinamik rəqsləri ilə böyük nüfuz qazanmış Ledi Qaqa müsahibələrinin birində söyləmişdir ki, əldə etdiyim şöhrətə görə məhs ruhlara borcluyam. Onlar məni daima mühafizə edir və uğurlarımın təminatçısı onlardır......

Biz isə bir az da irəli gedərək mövzumuza aid problemlərin çözülməsinə daha dərindən nüfuz edək.

Ta qədimdən insanların şüurunu, zehnini, əqlini zaman-zaman məşğul edən narahat fikirlərdən biri də ölümdən sonrakı həyatın varlığı, ruhun mövcudiyyət dinamikası olmuşdur. Bu hal keçmişdə də, indi də və çox güman ki, hələ uzun illər bəlkə də əsirlərlə insan intellektinin diqqət mərkəzində olacaqdır.Əgər qədim kensepsiyaya əsaslanaraq deyə bilərik ki, fiziki bədən tam funksiyasını itirib dağılandan sonra insan vücudunun müəyyən hissəsi yaşamaqda davam edir. Daim mövcud olan bu hadisə ruh, şüur, varlıq, idrak və sair adlanır, lakin adları müxtəlif olsa da insanın fiziki ölümündən sonra başqa dünyaya köçməsi onun ən qədim inamlarından biri olaraq qalmaqdadır. Türkiyə ərazisində yüz min illədək yaşı olan qəbirlər aşkar edilərkən artıq onların üstündəki daş izlər əsasında müəyyənləşdirilmişdir ki, bu qədim insanlar öz ölülərini çiçəklərə bürüyərək dəfn etməklə ölümdən sonra bədəndənkənar mövcudluğa böyük inam bəslənmişdir.

Bəzən deyirlər ki, ölüm şüurun yoxa çıxmasıdır, bəziləri də eyni inamla bildirirlər ki, ruhun və ya şüurun, reallığın başqa ölçüsünə keçməsidir.

Bir jurnalist olaraq bu fikirlərdən birini təsdiq, digərini inkar etməkdən tam uzağam, sadəcə ruhlar barədə anlayışımı Siz oxucularla birlikdə müzakirə etmək niyyətindəyəm.

Beləliklə bu barədə faktlar və müşahidələr:

... Əhvalat baş verən vaxt mən broxlarımın şiddətli astma tutmasından və emfizemdən bərk əzab çəkirdim. Hazırda bu xəstəliklər hərdənbir məni yenə də incidir. Bir dəfə bərk öskürək vaxtı, ola bilsin onurğa sümüyümün aşağı hissəsini bərk zədələmişdim. İki aydan sonra şiddətli ağrılar məni bir qrup həkimə müraciət etməyə vadar etdi. Nəhayət, onlardan biri məni neyrocərrah ixtisaslı həkimin yanına göndərdi. O, məni müayinə etdikdən sonra təcili xəstəxanada yatmalı olacağını söylədi. Razılıq verdim.



... Vəziyyətimin ağırlığı üzərimdə cərrahi əməliyyat aparan həkimi bərk narahat edirdi. Bununla belə o, bazar ertəsi üzərimdə əməliyyat aparacağına razılıq verdi. Əməliyyat həftənin cümə gününə təyin olunmuşdur. Həmən gün yeni bazar ertəsi axşam səhərə kimi rahat yatdım. Lakin, çərşənbə axşamı sübhdən bərk ağrılar məni yuxudan oyatdı. Mən bir böyrüm üstündən o biri böyrüm üstünə çevrilir, ağrıların azalması üçün rahat bir vəziyyət axtarırdım. Elə bu vaxt tavanın küncündən işıq göründü, bu diametri 12-15 mm olan topa oxşar, işıq saçan şar idi. O peyda olan kimi məni qəribə bir hiss bürüdü. Yox, bu qorxu hissi deyildi, bu tam rahatlıq və dinclik hissi idi. İşığın mənə tərəf uzatdığı əli gördüm. O, dedi: "Gedək mənimlə, sənə bir şey göstərəcəm. Dərhal, tərəddüd etmədən mənə sarı uzadılmış əli tutdum. Bu zaman nəyinsə məni çəkdiyini və bədənimi tərk etdiyini hiss etdim. Dönüb arxaya baxanda bədənimi çarpayıda hərəkətsiz uzanan gördüm, amma bu vaxt otağın tavanına tərəf uçurdum. Mən işığın bədən formasını almışdım. Bu bədən deyil, sadəcə tüstü ya da, buxar topası idi. Bu mənə şam işığı ətrafında üzən sıqaret tüstüsünü andırırdı. Bu forma rəngarəng idi: narıncı, sarı və çox da aydın seçilməyən mavi, sürməyi....."

Yuvarlaq formalı bur ruhu varlığın əlləri vardır. Bu əllər yaxşı yadımdadır, çünki, işıq yanıma enəndə mənə sarı uzadılmış əli öz əlimlə tutdum, eyni zamanda bədənimi tərk eləyib işıqla birlikdə qalxanda qolum və əllərim hərəktsiz vəziyyətdə yataqda vücudumla birlikdə qalmışdı. Ruhi əllərimi işlətməyəndə isə bədənim şaraoxşar forma alırdı. Beləliklə ilk dəfə işığı gördüyüm yerdən onunla birlikdə tavanı, palatanın divarlarını keçərək dəhlizə çıxdıq, sonra dəhlizdən mərtəbələrə xəstəxananın birinci mərtəbəsinə çatdıq. Biz bütün qapılardan və divarlardan heç bir çətinlik olmadan keçdik. Biz yaxınlaşanda onlar elə bil ki, aralanıb bizə yol verirdilər.

Məndə belə bir duyğu yaranmışdı, - sanki biz səyahət edirik, bilirdim ki, hərəkət edirik, amma bu surət çox deyildir, birdən dərhal mənə çatdı ki, biz cərrahi əməliyyatdan sonrakı palataya tərəf hərəkət edirik. Bu anadak bu palatanın xəstəxananın hansı hissəsində yerləşdiyini belə bilmirdim. Biz orada olduqda tavanın küncündən aşağı yaşıl xalatlı həkimləri və tibb bacılarını seyr etdim, palataya qoyulmuş çarpayıları da görüm. İşıqsaçan varlıq mənə dedi ki, daha doğrusu göstərdi ki, bax, sən burada olacaqsan, əməliyyatdan sonra səni gətirib bu çarpayıya qoyacaqlar, amma sən ayılmayacaqsan. Səni əməliyyat otağına apardıqları andan ta bir neçə vaxtdan sonra sənin dalınca gələcəyim dəqiqələrə qədər ətrafda nə baş verdiyindən xəbərin olmayacaq.

Bütün bunların mənə sözlə çatdırıldığını deyə bilmərəm, çünki bu, eşidilməyən səs idi, yoxsa onu otaqda onlar eşidərdilər. Bu nəisə təsəvvürümə gətirdiyimizdən də daha geniş məfhun idi. Bütün bunlar elə təbii, elə canlı idi ki, onu eşitmədiyim, ya da hiss etmədiyimi söyləyə bilmərəm. Bu , tamamilə aydın bir şey idi.Mən ruhi formada olanda gördüklərimi adi fiziki varlığımda olduğumdan daha tez qavrayırdım. Anladım ki, o mənə əməliyyatdan sonrakı otağı və otağın sağ tərəfindəki yatacağım çarpayını göstərmək üçün buraya gətirmişdir. O bütün bunları mənə ona görə göstərirmiş ki, ruhum bədənimdən ayrılan vaxt qorxmayım və məni nə gözlədiyini əvvəlcədən bilim. O məni inandırmağa çalışırdı ki, mən qorxmayım, çünki o bir müddət keçdikdən sonra yenə mütləq yanıma gələcək, ancaq mən əvvəlcə bir sıra duyğulardan keçməliyəm, bu zaman o məni qoruyacaq və axırda mənimlə olacaq.

Ruh olub onunla birlikdə əməliyyatdan sonrakı palataya səyahətdən sonra müəyyən mənada biz bir-birimizə tam qaynayıb-qarışmış, sanki bir olmuşduq, eyni zamanda biz ayrı-ayrı ruhlar idik. Çünki başçı o idi. Bu birliyi mən hətta biz divarları və tavanları yarıb keçəndə də hiss edirdim. Mənə elə gəlirdi ki, heç bir qüvvə məni ondan ayıra bilməz. Eyni zamanda dinclik, sakitlik, aydınlıq hissi mənə hakim idi. Özümü əvvəllər heç vaxt belə hiss etməmişdim. Beləliklə bütün bunları mənə söylədikdən sonra geriyə-palataya gətirdi. Çarpayıda uzanan bədənimi qoyub getdiyim vəziyyətdə gördüm və ona daxil oldum.

Cərrahi əməliyyata bir gün qalmış palatada olarkən birdən-birə məni ağlamaq tutdu. İlk dəfə idi ki, belə hönkürtü ilə ağlayırdım. Deməliyəm ki, mən arvadımla bacım oğlunu himayəmizə götürmüşdük. Arvadımla münasibətimdə ondan bərk narahat idim. Elə buna görə də hönkürtü məni boğurdu. Bu an mən yanımda yenə həmin varlığın mövcudluğunu hiss etdim, əvvəllər olduğu kimi indi də mənə yalnız fikirlər, ya da sözlər çatmırdı. O mənə deyirdi: "Sən niyə ağlayırsan? Mən əminəm ki, sənə mənimlə yaxşı olacaq". Mən cavab verdim: "Hə, mən ağlayıram, mən sənin yanında olmağı çox istəyirəm".

- Bəs onda niyə ağlayırsan ?

- Mən:

- "Siz bilirsiniz ki, bacıoğlu ilə münasibətimiz çox gərgindir, qorxuram arvadım ona düzgün tərbiyə verməyi bacarmasın".

Hansı hisslər keçirdiyimi sözlərlə izah etməyə çalışır və ona deyirdim ki, bacımoğlunu tərbiyələndirməkdə arvadıma kömək etmək istərdim, həmçinin xahiş edirdim ki, mənim hələ ki, ailədə olmağım hər şeyə kömək edirdi.

Bu sözlərdən sonra işığa bənzər şar bu fikirləri mənə çatdırdı "Ey, bir halda ki, sən başqası barədə fikirləşir və ondan ötrü xahiş edirsən, mən sənə kömək edəcəm . Bacınoğlu yetkin kişi olana qədər sən yaşayacaqsan".

Həqiqətən əməliyyatdan sonra mən narkozun təsirindən oyananda həkim təəccüblə bildirdi. "Bu mənim imkanlarım xaricində idi. Mən ömrümdə indiki qədər sarsıntı keçirməmişəm. Bütün ləvazimatları gətirmişdim, amma sənin həyata qayıtmağında onların heç bir gərəyi olmadı".

Bunlar ölümdən sonrakı həyatın mövcudluğu fenomeninin tədqiqi ilə məşğul mütəxəssislərin apardıqları təcrübələrin nəticələrindən idi. İndi isə:

***Şirinbəyim nənənin gördükləri***

Hələ uşaqlıqdan tanıdığım, sinni yüzü haqlamış Şirinbəyim nənə naxoşlayıb çarpayıya düşdüyündən ona baş çəkməyə getmişdim. Yarıqaranlıq otaqda qurulmuş qədimi çarpayıda hərarətdənmi ya təzyiqdənmi gözlərini yumub yatmış, bir əsrin qabırğasını sındırmış bu qarını heç birimiz oyatmağa cürət etməyib, oğlu Aydın ilə bir-birimizlə güclə eşidiləcək bir pıçıltıyla söhbətləşirdik. Şirinbəyim nənənin isə sanki heç oyanmaq fikri yox idi. Söhbət isə nənənin yaxşı hafizəli olmasından, iti yaddaşından gedirdi.

Gözlənilmədən Şirinbəyim nənə yuxudan oyandı və yaşı altmışı keçmiş oğlu Aydın kişini çağırdı.

Ay oğul, Aydın, gəl məni dikəlt.

Aydın kişi bədəninin şişmanlığına baxmayaraq anasının səsini eşitcək, yerindən şimşək kimi çaxaraq anasının çarpayısına tərəf şığıdı. Onu, arvadın ürəyi istədiyi kimi çarpayıda rahatladıqdan sonra soruşdu:

Nolub, ay arvad, nədən diksinib oyandın, yuxu zad gördün bəyəm?

Hə bala, görməyinə gördüm, amma bu heç də yuxu filan deyildi.

Nə gördün ki, ay ciji, yoxsa rəhmətlik dədəmimi görmüsən yuxuda?

Yox rəhmətlik dədəni görməmişəm yuxuda, rəhmətlik qonşumuz, mərhum Quba arvad gəlmişdi. Rəhmətə getməzdən iki ay əvvəl hansı paltarını geyinmişdisə (Şirinbəyim nənə onun geydiyi paltarları olduğu kimi təsvir elədi) elə o paltarlarda da gəlmişdi.

Bəs, nə dedi ay arvad, bir söz söyləmədi - deyə oğlu Aydın kişi tələsə ona sual etdi. Quba arvad on il bundan əvvəl yetmiş yaşında ikən dünyasını dəyişmişdi. Hansı səbəbdənsə Şirinbəyim nənənin gözləri doldu... O , ağlayırdı...

Dedi a bala, dedi. Dedi də çıxıb getdi də.

Bəs nə dedi, ay ana ?

Şirinbəyim nənə udqunaraq Quba arvadın dediklərini birnəfəsə söylədi.

Dedi ki,

***Yoruldum ağlamaqdan***
***Ağa, göy bağlamaqdan.***
***Bağda yarpaq qalmadı***
***Yarama sarımaqdan.***

Bunu da yüz yaşlı Şirinbəyim nənə, qonşusu mərhumə Quba arvadın ruhu ilə görüşdükdən sonra söylədi... Və bu bayatı indiyədək heç bir yerdə söylənməmişdir.

**(ardı 16-cı səhifədə)**

## *Yazda sağlam qalmaq üçün nələrə diqqət etməliyik?*

**Fəsil dəyişiklikləri orqanizmə birbaşa təsir göstərir. Xüsusilə yaz aylarında havaların isinməsi, allergiyaların artması və qidalanma rejiminin dəyişməsi sağlamlıqla bağlı bəzi problemlərə səbəb ola bilər.**

Adalet.az xəbər verir ki, mütəxəssislər yaz mövsümündə bir sıra məqamlara diqqət etməyi tövsiyə edir. Bildirilir ki, əgər sağlamlığınızın qayğısına qalmaq istəyirsinizsə, mütləq yeyib-içdiyinizə, vərdişlərinizə fikir verməlisiniz:



**Allergiyalara qarşı tədbir görün**

Yaz aylarında ən çox rast gəlinən problemlərdən biri mövsümi allergiyalardır.

Ağac və çiçək tozları burun axması, asqırıq, göz yaşarması və nəfəs darlığı yarada bilər. Allergiyası olan şəxslərə səhər saatlarında açıq havada az vaxt keçirmək və həkim məsləhəti ilə dərmanlardan istifadə etmək tövsiyə olunur.

**Qidalanmanı yüngülləşdirin**

Qış aylarında ağır və yağlı qidalar üstünlük təşkil etsə də, yazda daha yüngül qidalanmaq vacibdir. Mövsümi meyvə-tərəvəzlər, göyərti və bol maye qəbulu orqanizmin vitamin ehtiyacını qarşılayır və immuniteti gücləndirir.

**Su qəbulunu artırın**

Havanın istiləşməsi ilə bədən daha çox maye itirir. Gün ərzində kifayət qədər su içmək həm enerji səviyyəsini qoruyur, həm də maddələr mübadiləsini sürətləndirir.

**İmmuniteti gücləndirin**

Mövsüm keçidlərində immun sistem zəifləyə bilər. D vitamini, C vitamini və minerallarla zəngin qidalar qəbul etmək, kifayət qədər yatmaq və fiziki aktiv olmaq vacibdir.

**Soyuqdəyməyə qarşı diqqətli olun**

Yaz aylarında hava dəyişkən olduğu üçün səhər və axşam saatlarında qalın geyinmək tövsiyə edilir. İnsanlar isti havaya aldanaraq nazik geyindikdə soyuqdəymə halları arta bilər.

**Fiziki aktivliyi artırın**

Yaz gəzmək və idman üçün ən uyğun fəsillərdən biridir.

Açıq havada yürüş etmək həm fiziki sağlamlığa, həm də psixoloji vəziyyətə müsbət təsir edir.

**Mütəxəssislər bildirirlər ki, düzgün qidalanma, aktiv həyat tərzi və profilaktik tədbirlər yaz aylarını daha sağlam keçirməyə kömək edir.**



Allahverdi Eminov

# Səməd Vurğuna çamur atanlar: Zəngili...

**Mən Səməd Vurğun poeziyası haqqında dəfələrlə yazmış və "Səməd Vur-ğunun poetikası" monoqrafiyasını (Bakı, 1999, 224 səh.) çap etdirmişəm. Otuza yaxın şairin yaradıcılığına aid qəzet və jurnal məqaləsinin müəllifiyəm. Bundan əlavə şairə ölümündən sonra böhtan atanları vaxtında mətbuatda cavablandırmı-şam. O, Azərbaycan poeziyasının "balı, duzudur", bayraqdarıdır. Çox şairlər özünü S.Vurğuna bənzətmək istədilər, onun "yerişini" yamsıladılarsa... O, şeirdə elə meteordu, ona yaxınlaşmaq müşkül olardı.**

Səməd Vurğun çox da uzun sürməyən ömründə o zirvəni fəth elədi - bir şair ömrünə sığan iş deyil, İlahinin verdiyi qeyri - adi paydır.

Şairin poeziyası bu gün də - XXI əsrdə diqqət mərkəzindədir, şairlər daha çox həyəcan keçirir, qibtə edir və sakitləşirlər. Belə həqiqəti duyan şairlər ona ya şeirlər həsr edir, ya onun şəxsiyyətinə hörmətlə yanaşır, ya da qibtə hissini rəva görürlər. B.Vahabzadə, Hüseyn Arif, N.Həsənzadə, Məmməd Araz, Qabil, Zeynal Xəlil, O.Sarıvəlli vaxtilə ən səmimi şeirlərini qələmə almışlar. Digər qism şairlər isə S.Vurğun irsini araşdırmaqla təsəlli tapmışlar. Belə şairlər sırasında poeziya-mızda öz dəsti - xətti olan, istedadlı şair və alim İslam Sadığı xüsusilə fərqləndi-rərdim. Onun poeziyası haqqında bir neçə il əvvəl geniş məqaləmlə "Ədalət" qə-zetində çıxış etmiş, dəfələrlə görüşmüşəm. İslam Sadıq yaşıdlarından fərqli olaraq məhsuldar və orijinal düşüncəli, obrazlı deyimli şeirlər müəllifidir. Hələlik ilhamı ona xəyanət etməmişdir. Mən şəxsi arxivimi səliqə - sahmana salarkən şair - təd-qiqatçının "Mənəm bu dünyada bəlalar çəkən" məqaləsilə (bax: "Ədəbiyyat qəzeti", 29 iyul, 2017-ci il) rast gəldim. (Qəzet bu yazını çap etməklə xeyirxah iş gör-müşdür). Bir şeirin yazılma tarixçəsinə toxunan İ.Sadıq 30-cu illərdə - repres-siyanın "qoxusu" duyulan ərəfədə sifarişlə yazılan "Zəngili" təxəllüslü bir şəxsin məqaləsidir. Bu imza ilə maraqlandım: ədəbiyyatda yeri olmayan, peşəkarlıqdan uzaq, "böhtançı" kimi tarixə düşmüşdür.

İslam Sadıq araşdırmasında - yozumunda Zəngilinin böhtan dolu iftiratını elmi əsaslarla sübuta yetirmişdir, məhz repressiyaya "hazırlıq" görüldüyünə oxucu-ları inandırmışdır. S.Vurğun gənclik illərindən Hüseyn Cavidə, Çingiz İldırıma, hacı Kərim Sanılıya rəğbət bəsləmişdir. O, erkən cavanlığında poetik ilhamını orta-ya qoymuş, sonralar "Dağlar", "Şair, nə tez qocaldın sən?", "Çə-kil", "Unut", "Ayın əfsanəsi", "Talıstan" və s. əsərlərilə oxucuların görüşünə gəldi! 1924-1932-ci illər 18 yaşlı şair dövrün ab-havasını bütün dərinliyilə dərk edə bilməzdi. Müstəqilli-yimizdə - Sovet Dövlətinin çöküşündən sonra siyasi - mənəvi prosesləri anlamaq hünər deyil! Bu dövrü təhlil edərkən şair həyat ziddiyyətlərinin çalarlarını tərənnüm edirdi bu və ya başqa ovqatda. İnsanın dünyagörüşü, həyata baxışı onun yaşı və təhsililə də bağlıdır. O dövrün poeziyasının ideya - istiqamətini saf-çürük edəndə, ədəbi faktlara nəzər yetirəndə şəxsi motivlərində şairlərin yaradıcılığında hansı nüansları axtarmalıyıq? S.Vurğun İ.Stalinə, "26-lar"a, Kommunist Partiyası-na yazdığı şeirlərə irad tutmaq, "Günahlandırmağ"ın özü ədəbi günahdır"! "Rəhbə-rə salam", "Köhnə dostlar", Yoldaş,



Hinger, maxanaqo", "Zamanın bayraqdarı" və s. əsərlər yazılmalı idi. Azərbaycanda Sovet hakimiyyətinin 15 illiyi münasibətilə Kremldə başda Mir Cəfər Bağırov olmaqla Azərbaycan nümayəndə heyətinin tər-kibində otuz yaşlı Vurğun da olmuş və "Rəhbərə salam" şeirini pafosla, həyəcanla oxumuş, İ.V.Stalinin göstərişilə "Lenin" ordeniylə mükafatlandırılmışdır. Bu tarixi fakta irad tutmağa dəyərmi? Ulu öndər, Azərbaycan Respublikasının sabiq Prezi-denti Heydər Əliyev ədəbi şəxsiyyətlərimizi müxtəlif fəxri mükafatlara layiq gör-müşdür. Eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. Bu tarixi şəxsiyyətlərə, dövlət xadimlərinə şeirlər, poemalar yazılmışdır və şairlər canlı tarix qarşısında borclarını ödəmişlər! Bu, nə vaxtdan qəbahət sayılır?!

Hacı Kərim Sanılı Qori Müəllimlər Seminariyasının məzunu, görkəmli maa-rifçi, M.F.Axundovdan sonra ilk "Əlifba" dərsliyinin (ptofessor Əhməd Seyidovla birlikdə) müəllifi idi. Böyük şair və dramaturq Hüseyn Cavidə, şair Çingiz İldı-rıma, dövlət xadimi və dramaturq N.Nərimanova dərin hörmət bəsləmişdir.

Maraqlı faktdır ki, Səməd Vurğun şöhrətləndikcə ona qarşı qələm yoldaşları çamur yaxmağa başladılar, hətta İ.Stalinə, M.Bağırova danoslar ünvanladılar.

İslam Sadıq yazır: "Azərbaycanda 37-ci il repressiyasına ən geci Nəriman Nərimanovun öldürüldüyü (S.Orcanikedze tərəfindən zəhərlənmiş, evindən çıxar-kən qəfildən dünyasını dəyişmişdir - A.E.) gündən başlanmışdır. Həmin vaxtdan siyahılar tutulur, böhtanlar, qarayaxmalar düşünülür, üzə duracaq adamlar hazır-lanır, materiallar toplanılırdı"! Təbii ki, belə böhtanlar sırasında Zəngili də yox de-yildi... Amma vaxt üçün qarayaxanlar tələsmirdilər, məqam gözləyirdilər və nəha-yət, 1931-ci ildə 25 yaşlı Səməd Vurğunun "Şairin andı" şeirlər kitabı çapdan çıxdı. Oxucular ilk şeirlər kitabını təntənəylə qarşıladılar. Və müəllifin gələcəyini qılınclamaq qərarına gəldilər. Bununla kifayətlənməyən Zəngili Mikayıl Müşfiqin "Küləklər", Almaz İldırımın "Dağlar səslənirkən" kitablarını da hədəfə aldı. Böh-tançı Zəngili Səməd Vurğun barədə bəzi "notlar" üzərində "Gəzişmişdi".

***Söylə, nə göstərim bu günə dair,***
***Könüllər sərbəstdir, duyğular azad.***
***Bu yeni dünyanın yolçusu şair***
***Dərdli günlərini heç edərmi yad?***

Zəngili hətta S.Vurğunu "qolçomaq" dünyasına qapılması iftirasına rəvac verir. Guya "Səməd Vurğun təkcə Moskvaya yox, harada olursa - olsun, Azər-bay-canı tamam unutmalı, onun haqqında düşünməməliymiş"...

Maarifpərvər pedaqoq Hənəfi Zeynallını "hədəf" seçən Zəngili yazır ki: "Kür çayı" Sanılıya ithaf edildiyi kimi, büsbütün onun təsiri altına düşmüşdür. "Kür çayı" şeirinin bu gün üçün heç bir əhəmiyyəti yoxdur. Səməd Vurğun Sanılı mahnılarını çalır. "Konsert axşa-mı"da Sanılının bir sıra əsərləri kimi, şəhərdən qor-xaraq əski kəndi idealizə edir... Səməd Vurğun ən qüvvətli şeirlərindən hələ Sanılı kimi əski kəndi idealizə edir. Hər halda Səməd özünün yenidən tərbiyəsinə əhə-miyyət verməlidir". Zəngili məntiqsiz, quru, mənasız fikirlərilə gənc şairi "ittiham" etməyə çalışır və şairlərin qələm yoldaşlarına ithaf şeirlərinin əleyhinə çıxır. Görünür, poeziyanın bir funksiyasını da dolaşıq sanır.

**Otuzuncu illərə qayıtmalı olsaq, maraqlı nüanslar ortaya gəlir: İstedadlı, il-hamlı şairlərə atılan "ataşlərin" səsi nəyə xidmət edirdi? Sovet siyasətinəmi, Stalin repressiyasınamı? Gənc şairləri fiziki cəhətdən məhv etməyəmi? Necə ki, nisbətən yaşlı Hüseyn Cavid, Əhməd Cavad, Çingiz İldırım timsallı şairlərin ölümünə! Bir təsadüfmü, bir tale xoşbəxtliyimi S.Vurğun, S.Rüstəm, Rəsul Rza bu "qanlı taun"dan kənarda qaldılar. Görünür, Allah Təalanın vəhyidir Azərbaycan poezi-yasını bu üç şairə qıymadı! Bu gün dahi söz ustadı S.Vurğunun anadan olmasının 120 illiyi tamam olur, ayın, günün fərqi yoxdur, bu il "Səməd Vurğun ilidir" demə-yə haqqımız çatır və Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Xalqın şairinə dərin hörmətin ifadəsidir!**

# Bütün dünyada işıq kəsiləcək

**Alimlər və enerji mütəxəssisləri dünyanı mümkün qlobal elektrik böhranı ilə bağlı xəbərdar edibləر.**

Adalet.az xəbər verir ki, NASA-nın yeni araşdırmasına görə, son illərdə Günəş aktivliyində gözlənilməz artım müşahidə olunur və bu vəziyyət böyükmiqyaslı elektrik kəsintilərinə səbəb ola bilər. Məlumata görə, uzun illərdir zəiflədiyi düşünülən Günəş fəaliyyəti yenidən güclənməyə başlayıb. NASA-nın Jet Propulsion Laboratory (JPL) komandası Günəş küləklərinin sürətində, temperaturunda və maqnit sahəsində ciddi artım qeydə alıb. Araşdırmalara əsasən, maqnit sahəsinin gücü son illərlə müqayisədə 31 faiz artıb.

Ekspertlər bildirirlər ki, güclü geomaqnit fırtınaları elektrik şəbəkələrinə ağır zərbə vura bilər. Belə halda transformatorların sıradan çıxması, peyk sistemlərinin dayanması və internet-kommunikasiya xətlərində problemlər yaşanması mümkündür. Kiçik və böyük ölkələrin hamısının risk altında olduğu vurğulanır.Mütəxəssislərin sözlərinə görə, xüsusilə GPS sistemləri, mobil rabitə, bank əməliyyatları və hava nəqliyyatı bu cür Günəş fırtınalarından ciddi şəkildə təsirlənə bilər. Astronavtlar və qütb marşrutları ilə uçan təyyarələr üçün də radiasiya təhlükəsinin artdığı bildirilir.

Qeyd olunur ki, daha əvvəl İspaniya və Portuqaliyada milyonlarla insanı təsirləndirən böyük elektrik kəsintisi yaşanmışdı. Enerji ekspertləri dünya ölkələrinin enerji infrastrukturunu mümkün Günəş fırtınalarına qarşı gücləndirməsinin vacib olduğunu deyirlər.

*İkinci Qarabağ müharibəsindən sonra Şuşada Vaqif Poeziya Günlərində iştirak etmək unudulmazdır. Biz, illərlə həsrətində olduğumuz, nisgil odunda qovrulduğumuz doğma torpaqlara savaş meydanında düşməni yenmiş ordumuzun qüruruyla getmişdik. Elə ilk gündən Borçalının dəyərli yetirməsi Deyanet Osmanlı, Norveçdə yaşayan Güney Azərbaycanlı mühacir Hadi Qaraçay, mən və bir də Şuşada tanış olduğumuz dəyərli aydınımız, Bütöv Azərbaycan sevdalı, Turan ruhlu şair Tapdıq Əlibəyli ilə əməlli-başlı yoldaşlığımız başladı. Mən və digər dostlar Tapdıq müəllimlə tanışlığımızdan son dərəcə mutluyduq. İş elə gətirdi ki, bir yerdə də gecələməli olduq. Söz-sözü, söhbət-söhbəti çəkib gətirdi. Bir-birimizlə kifayət qədər yaxınlaşıb dostlaşdıq.*

*Görkəmli şair Yusif Nəğməkarla Tapdıq bəyin şeir üzərinə elədikləri şirin söhbət, yaddaqalan debat, apardıqları dadlı-duzlu polemika da xatırladıqca xatırlanası məqamlara çevrildi...*

*Tapdıq müəllimin yazdığı şeirlərin əksəriyyətinin vətən, torpaq, yurd bağlılığı, Azərbaycan və Bütöv Azərbaycandan bəhs etdiyini, türk dövlətlərinin birliyini, Turan dövlət fəlsəfəsini qapsayan nəğmələrini duyanda, təəccüblənmədim. Ona görə təəccüblənmədim ki, bu cür işıqlı, mehriban, sevəcən, bütövlük aşılayan xarakterə sahib bir kişidən, söz adamından başqa nə gözləyəcəkdin ki...*

*Bəstə boyu, düz qaməti, fiziki və mənəvi yorulmazlığı, bəyazlığa doğru çoxalan saçları, işıqlı siması, baxışlarındakı qartal kəskinliyi onun həm də daxili dünyasındakı zənginlikdən, son-*

# ŞUŞADA TAPDIĞIM ŞAİR TAPDIQ



*suzluqdan, böyüklükdən, insanilikdən xəbər verirdi. Bəli, mən və dostlar Tapdq müəllimi Şuşada tapdıq. Şuşada tapılan da Şuşa kimi torpaqdır, Şuşa kimi vətəndir, Şuşa kimi nisgildir, sevgidir, mədəniyyətdir.*

*İki-üç günlük biryerdəliyin Şuşadan başlaması və Şuşa təməlli olması da, ayrıca düşündürücü bir gerçəklik olmuşdu. Unudulmaz Vaqif Poeziya Günləri ilə bağlı tədbirdən geri döndükdən sonra Tapdıq bəylə münasibət, ünsiyyət davam etdi. Sosial şəbəkələrdə onun qürurlu və əyilməz xarakter aşılayan rəsmləriylə bir vətən övladının görüntüləri, şəxsən mənim gözlərimin işığını artırır. Üstəlik, Tapdıq müəllimin sanki hər gün ictimai-siyasi-mədəni tədbirlərdə məclislərin başında oturması, nüfuzlu birlik-təşkilat- məclislərdə söz sahibi olması, məni çox sevindirir desəm, ona olan dərin rəğbətimin səmimi ifadəsi olar. Çünki həyatımızı əhatə edən tədbirlər, məclislər bayağı adamlarla dolub daşır. Onların təmənnalı sözləri, çıxışları, yorucu hərəkətləri, reklam xarakterli özünü tanıtım çarxları adamı yorub yerə soxur... Tapdıq bəyin qarışıq, anlaşılmaz, daha çox neqativə köklənmiş dönəmdə, barəsində danışdıqlarım fonundakı "detalların" tam əksinə işləyən obrazı, kimliyi, şəxsiyyəti ən azı dostluqdan başlayan və heysiyyatda davam edən bir ucalığa sahibdir. Mən, belə mükəmməl kişilərin cəmiyyətimizdə varlığını, fəaliyyətlərinin isə daha çox olmasını ürəkdən istəyirəm.*

*Seçlən şairimiz, ictimai xadim kimi tanıdığım sevimli bir insan, nəhayət, dost deyə biləcəyim sənətkar qardaşımıza 65 illik yubiley çağında, onu hər zaman beləcə aktiv, şux, sıcaqqanlı, çarpışan, vuruşan bir qeyrətlə öz zəkası, ağlı, düşüncəsi, duyğuları üzərində sappasağlam görmək ümidiylə uğurlar diləyirəm.*

*Zəruri qeyd: o gözəl Şuşalı günlərdən hərəmizdən bir yazı, mətn qaldı. Tapdıq Əlibəylidən isə şeirlər ərməğanı unudulmaz bir səmimiyyətlə yaddaşımızın ən həzn guşəsində yerini aldı. İstərdim ki, Tapdıqsevərlər bu şeirlərdən biri - "VAQİFİN MƏQBƏRƏSİNDƏ" ilə həm də mənim bu kiçik yazımda da tanış ola bilsinlər. Hansı ki, o şeiri Tapdıq Əlibəyli elə tədbirin gedişində-cə Vağifin məqbərəsindəki dərin hisslərindən, həmin anın ruhundan ilham alaraq qələmə alıb.*

*Şair yazır: "Vaqif Poeziya Günləri"nin açılışında şairin məqbərəsi önündə duşüncələrim)*

*Ruhumda şeir havası,*
*Könlümdə Şuşa həvəsi,*
*Bəmdədi Bülbülün səsi*
*Vaqifin məqbərəsində.*
*Şəhidin zəfər şöləsi,*
*Şahanə söz şəlaləsi,*
*Dilimdə sözün səlisi*
*Vaqifin məqbərəsində.*
*Şuşanın şirin şivəsi,*
*Sözümün şəhdi-şirəsi,*
*"Qarabağ-Xan şikəstəsi"...*
*Vaqifin məqbərəsində.*
*Dilimdə Vaqif ahəngi,*
*İstədim tər söz çələngi,*
*Şuşatək çaları, rəngi*
*Vaqifin məqbərəsində.*
*Dünyada xarıbülbültək*
*Olarmı bir rəmz gül-çiçək?..*
*Şairə salam söyləyək*
*Vaqifin məqbərəsində.*

*Xanəmir Telmanoğlu,*
*şair-publisist,*
*Azərbaycan Yazıçılar Birliyi*
*İdarə Heyətinin üzvü*

# Nazim Əhmədli poeziyasında misraların gəraylı və bayatı düzümü



*Ramiz Göyüş,*
*Yazıçı-publisist*

**Nazim Əhmədlinin yaradıcılığı, xüsusi ilə poeziyası öz özəlliyi ilə həmişə mənim diqqətimi özünə cəlb edib. Onun bənzərsiz şeirlərini, şeirlərinə yazılmış türküləri xeyli müddətdir ki, ölkəmizin aparıcı ədəbi mətbu orqanlarından və sosial şəbəkələrdən izləyirəm. Nazim Əhmədlinin şeir və hekayələri, publisistikası yaradıcılığının erkən vaxtlarından ədəbi cameənin diqqətini cəlb etmiş, Nizami Cəfərov, Nizaməddin Şəmsizadə, Ənvər Əhməd, Ağasən Bədəlzadə, Orxan Aras, Qurban Bayramov, Şirindil Alışanlı, Esmira Fuad kimi görkəmli ədəbiyyat adamları, Nəriman Həsənzadə, Vaqif Bəhmənli, Rəşad Məcid, Sərvaz Hüseynoğlu kimi məşhur söz sərrafları, adını saymadığım digər söz və sənət adamları onun yaradıcılığı haqqında maraqlı və diqqətəlayiq fikirlər söyləmişlər. Bu günlərdə təsadüfən Nazim Əhmədli ilə mətbəələrin birində rastlaşdıq. Bir az da yaxından tanış olmaq imkanı yaranmışdı. İki gün keçmiş çay süfrəsi arxasında görüşdük. İki kitabını - "Mən bir günah elçisiyəm" və "Unutduğum göy üzü" kitablarını mənə hədiyyə etdi. Evə gələn kimi isti-isti kitabları varaqlamğa başladım...**

Belə bir təkzibolunmaz fikir var ki, şairləri tanımaq, onların istedadına, yaradıcılıq miqyasına, daxili aləminə, sözə verdiyi dəyərə, zövqünə bələd olmaq üçün onların şeirlərini oxumaq kifayət edir. Şeirlər şairlərin ən gözəl və aydın güzgüsüdür:

*güzgüdən baxırsan mənə,*
*kimsən, mənə oxşar adam;*
*səsin, səmirin də çıxmır,*
*içində danışan adam;*

Bəli bir çox hallarda özü ilə danışır, içində danışır, dünyada baş verənləri, ətrafında cərəyan edən hadisələri içindən keçirir, özününkü edir, özünə sual verir, Nazim Əhmədli:

*Salam, necəsən ürəyim,*
*sinəmin altı necədi;*
*məni hər yana çapırsan,*
*mindiyin atın necədi;*

*bu qələmim lələk deyil,*
*şair hələ mələk deyil,*
*hamı sənə ürək deyir,*
*adın, soyadın necədi;*

*bilmirəm ki, qışam, yazam,*
*saçıma baxdım, bəyazam;*
*gərək sənə nəsə yazam,*
*şeir, bayatı, necədi?*

Və elə şair, şeir, bayatı yazmaqla özünü ovundurur. Sözünü də, gileyini də, sevncini də, kədərini də, narazılığını da şeirləri- qoşmaları, gəraylıları, bayatıları vasitəsilə ifadə edir:

*gözlərin nə yaman dolub,*
*al yanaqların bal dadır;*
*əlini qoy sinəm üstə,*
*gör ürəyim nə haldadır;*

*məni kim tapa, kiridə,*
*bu qərib dərdi əridə;*
*bir ömür qalıb geridə,*
*nə sağdadı, nə soldadı.*

Nazim Əhmədlinin yuxarıda adını çəkdiyim iki kitabına daxil edilmiş şeirlərin əksəriyyəti ənənəvi xalq şeri olan gəraylı, qoşma və bayatı üstündə köklənib. Mənim qənaətimcə yaradıcılıq, istedad Tanrının verdiyi bir nemət olmaqla yanaşı, həm də genetik xarakter daşıyır. Nazim Əhmədli deyir ki, onun ata babası Aşıq Məşədi Dadaş aşıq olub və "Aşıq Qərib" dastanını qələmə alıb. Qaçaq Nəbi haqqında yazılan şeirlərin çoxunu ana babam Aşıq Salman yazıb "Atam da, anam da bədahətən şeir deyirdilər. Atam nəfəs aləti üzrə musiqiçi olub. Ailəmizdə üç şair var, mən, qardaşım Vüqar Şamiloğlu, oğlum Vüsal Nazimöğlu, və mərhum bacım Ləman Şamilqızı. Doğulduğum Laçın mühitində folklor çox güclü olub". Düşünürəm ki, Nazim Əhmədlinin şeirlərinin əsasən xalq yaradıcılığı üslubunda yazması onun genetik yaddaşından, böyüyüb boya-başa çatdığı Laçının mühitindən irəli gəlir. Anacaq bu şeirlər, həm də klassik qoşma, gəraylı və bayatılardan tamamilə fərqlənir, tamamilə yeni məzmunda, yeni obrazda, yeni düşüncə tərzi və yeni poetik ifadələrlə təqdim olunur. Onun deyimləri də, obrazları da, ifadə formları da yenidir. Yeni olmaqla özəldir, heç kimə bənzəmir , orjinaldır, Nazim Əhmədliyə məxsusdur, onun öz nəfəsi və səsidir. Diqqət yetirək onun anasına həsr etdiyi "anam" şeirinə-bayatısına:

*anam köçəndən bəri,*
*gözüm yuxu yatmayıb;*
*hər gün məktub yazıram,*
*biri gedib çatmayıb;*

*ruhum oyaqdı, deyib,*
*dərdim qayıqdı, deyib;*
*anam, bayatı deyib,*
*saçını boyatmayıb;*

*bu dünya bir qalacıq,*
*gəlib, gedən yol açıq;*
*anam, quş olub uçub,*
*bir daha qayıtmayıb.*

Adətən deyirlər ki, bayatı yazılmır, çağrılır. Klassik xalq ədbiyyatında cəmi dörd sətirdən ibarət olan, dərin məna kəsb edən və bayatı çağıranın ən incə duyğu və hisslərini ifadə edən bu janrdan istifadə edərək Nazim Əhmədli anasına olan sevgisini görün nə qədər kövrək və ülvi hisslərlə ifadə edib. Və ya "sıxdı uzaqlar məni " adlı şeirində yurd nisgilini və həsrətini incə və yanıqlı ifadə edir.

Sanki müəllif nə vaxtsa Murov dağından üzünü Laçına tutb həsrətli bir bayatı çağırır:

*sıxdı, uzaqlar məni,*
*həsrətim yarpaqladı;*
*burdan çoxdan getmişəm,*
*məni kim soraqladı;*

*kimin oduna düşdüm,*
*yarpaq kimi bürüşdüm;*
*dağlar yadıma düşdü,*
*içim-çölüm ağladı;*

*alışıb yanır içim,*
*ovcunu tut su içim;*
*hardan atdanım, keçim,*
*sel-su yolu bağladı.*

Onun şeirlərində həm sevinc, həm də kədər bildirən, həm sevgi, həm də ayrılıq bildirən, həm nəsihət, öyüd bildirən, təbiəti və həyatı özündə ehtiva edən gəraylılar öz əksini tapıb. Belə gəraylılardan birini aşağıdakı nümunə ilə oxucuların diqqətinə çatdırmaq istədim:

*ah çəkim, səni çağırım*
*oyan ahıma bu gecə;*
*yastığımı çevirəcəm,*
*gəl, gir yuxuma bu gecə;*

*ulduzlar çiçək-çiçəkdi,*
*Ay hamısından göyçəkdi;*
*ruhumu göy üzü çəkdi,*
*qarış ruhuma bu gecə.*

Nazim Əhmədlinin şeirləri son dərəcə sadə, sadə olduğu qədər də dərin məna kəsb edir. Onun şeirlərində bir əsrar var, oxuduqca səni düşünməyə vadar edir. Şeirlərdə bütün sözlər yerli yerində işlənir, bir-birini tamamlayır, sözlərdən muncuq kimi sətirlər düzəlir, sətirlərdən minbir naxışlı xalı toxunur, tamamlandıqca da fikir bütövləşir. Nazim Əhmədlinin bir şair kimi böyüklüyü də bundadır ki, o sadəlikdə böyüklüyü, dərinliyi ifadə edir.



*gəl, verək baş-başa burda,*
*bu bom-boş küçədə qalaq;*
*bir sən ol, bir də mən olum,*
*bu aylı gecədə qalaq;*

*gəl, bu oyaq yuxuma gəl,*
*gəl, bir az da yaxına gəl;*
*gəlib qoşul ruhuma, gəl,*
*bir az, bir tikə də qalaq.*

Nazim Əhmədli yaradıcılığında diqqəti çəkən məqamlardan biri, bədii təsvir vasitələrindən məharətlə istifadə etməsidir. Onun, mövzu və məzmunundan asılı olmayaraq bütün şeirlərində metaforik düşüncə, təşbeh və epitetlərdən məharətlə istifadə xarakterikdir. Bu baxımdan onun təbiət təsvirlərinə həsr etdiyi şeirləri oxuduqca heyrətini gizlədə bilmirsən. Onun məni məftun edən həmin şeirlərdən birini nümunə gətirmək istəyirəm, diqqət yetirin:

*Zirvə açıb yaxasını Günəşə,*
*duman basıb, dərədə ağ gecədi;*
*ildırımın tək səbiri gəlmədi,*
*qara buld göy üzündə çaçədi;*

*tellərini döşə yayıb qız bulaq,*
*dağ çayına pay göndərir yüz bulaq;*
*bir qayanı yarıb çıxan buz bulaq*
*düyməsindən pərvazlanan qönçədi.*

Təbiətlə insan hər zaman vəhdətdədir. Azərbaycan ədəbiyyatında təbiəti öz əsərlərində təsvir edən şairləri saymaqla bitməz. Bu baxımdan təbiət lövhələrini öz əsərlərində təsvir etmiş minlərlə şeir örnəkləri misal gətirmək olar. Ancaq gəlin etiraf edək ki, Nazim Əhmədlinin təbiət lövhələri son dərəcə heyrətamizdir. Təbiətin şeirdə ifadə forması təbiətin özü qədər əsrarəngiz və füsünkardır. Bu nümunələri oxuduqca hiss edirsən ki, Nazim Əhmədlinin təkcə metoforik ifadə tərzi, poetik istedadın gücü deyil, həm də onda bir bəsirət gözü, bəsirət düşüncəsi var. İstər təbiət təsvirlərinə, istərsə də digər mövzulara həsr olunmuş şeirlərində metoforik ifadə bir deyil bəş deyil, onun bütün yaradıcılığı üçün xasdır. Dediklərimin təsdiqi üçün həmin şeirlərdən daha bir nümunə gətirmək istəyirəm:

*çiçəklərin yanağına qonan şeh,*
*boz dumanın dodağının nəmidi;*
*göy talada dalğalanan lalələr*
*elə bildim od vurulmuş zəmidi;*

*min təzad var çeşmələrin səsində,*
*meşə itib ilk baharın sisində;*
*daş kahalar qayaların köksündə -*
*bu dağların yuva-yuva qəmidi;*

*çeşmə açıb sərin sulu ovcunu,*
*qonaq edir gəlib-gedən yolçunu;*
*harayladı bir insaflı ovçunu,*
*tərlan qovan bir kəkliyin ümidi.*

Nazim Əhmdəli ilə münasibəti olan hər kəs bilir ki, o ufologiya elmi ilə məşğul olur. Ufoloq yadplanetlər haqqında məlumatları toplayan, təsnifləşdirən onların izahını, şərhini verən insanlara deyilir. Nazim Əhmədli də bu elmlə aktiv məşğul olan bir insan kimi öncəgörmə, yuxuyozumları, ruhların mövcudluğu ilə məşğul olduğu üçün onun yaradıcılığında yuxu, ruh və göy adamına aid kifayət qədər şeirlər vardır və bunlar təkcə onun ufoloq olmağından irəli gəlmir, həm də onun istedadından və onun üzünün şüuraltı yaddaşından və "göy adamı" olmasından irəli gəlir.

Nazim Əhmədlinin yaradıcılığı haqqında araşdırma aparmış müəlliflərin əksəriyyəti də onu "Göy üzünün adamı" adlandırır. Akademik Nizami Cəfərov Nazim Əhmədlinin yaradıcılığına həsr etdiyi məqaləsini " Yer üzünün göy üzü", filologiya elmləri doktoru Esmira Fuad "Yer üzünün qonağı, göy üzünün adamı", tənqidçi, ədəbiyyatşünas alim Qurban Bayramov "Göy üzünün yaddaşı", yazıçı-publisist Süleyman Qaradağlı "Göy üzünə yazılan misralar", tanınmış şair-publisist Şərvaz Hüseynoğlu onun yaradıcılığına həsr etdiyi kitabını "Nazim Əhmədlinin çəhrayı yuxuları" adlandırıb. Sösüz ki, bu misalların sayını çoxaltmaq da olar. Ancaq məncə, Nazim Əhmədlinin "göy adamı" olmasını təkcə onun haqqında yazan müəlliflər deyil, həm də şeirlərində özü etiraf edir, öz kitablarından birini "Unutduğum göy üzü" adlandırması da özlüyündə nəyi isə deyir. Həmin şeirlərdən bir neçəsini misal gətirmək istədim:

*mən bir qərib, qərib adam,*
*adam, soyuq kəlmə kimi;*
*üzümə soyuq baxmayın,*
*göy üzündən gəlmə kimi;*

*yaşım min illər o yana,*
*daş atdım ruhum oyana;*
*yaddaşım daşdan boylana,*
*naxışlana ilmə kimi;*

"Göy üzünün adamı"ndan daha bir nümunə gətirməık istəyirəm:

*hərdən qayıdır canıma,*
*bir sınıq ağrı, gecələr;*
*ulduzlar göydən perikib,*
*hayana axır, gecələr;*

*kimsə məni qaralayıb,*
*dağ başında qar allıyıb;*
*göy üzünü aralayıb,*
*fələklər baxır, gecələr;*

*buludlar papaq-papaqdı,*
*göydən yenə ulduz axdı;*
*deyən Tanrı da oyaqdı,*
*bu son, bu axır gecələr.*

Bütün bunlar onu göstərir ki, Nazim Əhmədlinin yaradıcılığında bir metafizika , dərin fəlsəfi məna, bir ruhani düşüncə var. Maraqlıdır, Nazim Əhmədlinin şeirlərində sətirlərin heç birinin sonuna nöqtə qoymur, misralar biri-birindən nöqtəvergüllə ayrılır. Nöqtələri şeirlərin son misrasında qoyur. Bu da Nazim Əhmədlinin bir özəlliyidir. Düşünürəm o, bununla fikir tamamlanmayıb, şeir hələ davam edir deməк istəyir və davam etdikcə şeirdən şeir doğulur:

*durum, tərpənim, yüyürüm,*
*söz bükdərim, söz əyirim;*
*hələ bitməyib şeirim,*
*dəftərimin ağ yeri var.*

Nazim Əhmədlinin şeirlərini oxuduca hiss edirsən ki, bu şeirlər içi bayatı , nəğmə, oxşama ilə dolu bir qəlbin nəğmələridir. Şeirlərin böyük əksəriyyəti son dərəcə axıcı və qəlbə yatan olmaqla nəğmə , türkü mətnləridir.

Və təsadüfü deyil ki, həmin mətnlər bir andaca nəğmə mətininə çevrilir və dildən-dilə, ağızdan-ağıza keçir:

*nəsə demək istəyirdin,*
*sözünü saxla sabaha;*
*gəlib söndürmə ocağı,*
*közünü saxla sabaha;*

*sünbülü ver , süsəni ver,*
*könlüm səndən küsəni ver;*
*dodağından busəni ver,*
*üzünü saxla sabaha;*

*həsrətim min ildir mənim,*
*bir az danış, güldür məni;*
*öldürürsən, öldür məni,*
*özünü saxla sabaha.*

və yaxud:

*gəl, gizlicə çıxıb gedək,*
*bağçanızın gül yerinə;*
*mənə bir şeir bəstələ,*
*oxuyaq bülbül yerinə;*

*söz deyim gülsün ürəyin,*
*sözə bükülsün ürəyin;*
*danışa bilsin ürəyin,*
*ağzındakı dil yerinə*

*bax, ulduzlar qönçə-qönçə,*
*gözün göyçək, belin incə,*
*gəl canımı al, bu gecə,*
*apar, əzrayıl yerinə.*

Maraqlıdır ki, Nazim Əhmədlinin türkü mətni olan şeirləri qardaş Türkiyəmizdə daha çox sevilr və bu şeirlər üstə oxunan türkülər onun şeirləri kimi könülləri riqqətə gətirir.

**Nazim Əhmədlinin nəinki bütöv yaradıcılığı, bir kitabı, onun istənilən tək bir şeiri bir geniş təhlilin, bir yazının mövzusudur. Təəsüf ki, onun yaradıcılığının bütün məziyyətlərini bir yazıya sığışdırmaq imkan xaricindədir. Və mən Nazim Əhmədlinin şeirləri ilə tanış olduqca, onları aydin gecələrdə ulduzlar göy üzünü al-əlvan çiçəklər təki bəzədiyi kimi, poeziya kəhkəşanımızı bəzəyən ulduzlara bənzətdim.**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# "BU VƏTƏN DEYİLƏN DÜNYAM SİRLİDİ"

**Böyük ədibimiz Səlil Məmmədquluzadə 1917-si ildə, "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Azərbaysan" məqaləsində yazmışdı ki: "Ax unudulmuş vətən, ax yazıq vətən! Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoydular.**

Bəs sən haradasan, ay biçarə vətən?!

Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dildə söyləsək, o şeylər ki, əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı, inna lillahi və inna ileyhi rasiun; amma buna hamı qail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nisat yolu yoxdur".

Böyük ədibimizin az qala yüz il əvvəl söylədiyi bu sözlərin mənası heç vaxt öz dəyərini itirməyib və bu üç söz böyük Azərbaysanımızın hər bir övladının qanında, sanında, ruhunda yaşamışdır. M.Ə.Rəsulzadənin ölərkən son dəfə dediyi sözlərdən biri Vətənimizin adı-Azərbaysan olmadımı? Almaz Yıldırımın, Əhməd Savadın, onlarla vətənpərvər şairlərimizin andı, devizi olmadımı Vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət..

Sabir Rüsətəmxanlının poeziyasında da bu üç söz başlısa poetik isimlərdir.

*Bu Vətən deyilən dünyam sirlidi,*
*Bir paytaxtı sevins, bir paytaxtı qəm.*
*Bu Vətən torpağı çox qəribədi,*
*Hələ sərhəddini tapa bilmirəm.*

*Dünyanın köksündən bir ümman axır,*
*Yayılır qolları, dəyişir adı.*
*Yolları Şərurda dayanan xalqın*
*Qəlbinin paytaxtı Kərbəladadı.*

Poeziyada Vətən anlayışını tarixlə müasirliyin vəhdəti kimi düşünüb S.Rüstəmxanlı. Onun Vətənlə bağlı duyğuları qolları, şaxələri, budaqlarıyla tarixə uzanır, əsrlərdən əsrlərə yol alır. Vətənin Tarixinə, dünənə, keçmişə iki yanlış yanaşma tərzi olub: bir var ifrat dərəsədə "mənim yurdum", "qəhrəmanlar diyarı", "şairlər vətəni", "dahilər məskəni", "Babəklər, Koroğlular ölkəsi" deyib quru vəsd və bəlağətlə "heyranlığını" ifadə edəsən. Bu "heyranlıqda" Vətən sazda alışan "İrəvan çuxuru"ndan, Ələsgərin və Əmrahın sazından, "Dərbənddə Pərvanə adlanan qızın çağlayan gözündən", Gənsə qapısından, Savad xanın şəhid olduğu gündən, Şəhriyar sözündən, "Şumerdən adlayan on min il yaşlı ölümsüz bir dilin söz qatlarından" və Arazdan keçmir. İkinsi yanaşma tərzi isə Vətəni, Vətənin tarixini saxtalaşdırmaqdan, onun dilini, mədəniyyətini ərəbə, farsa uzatmaqdan doğan yadlıqdan, biganəlikdən başlayır. Bu yadlıqda, biganəlikdə Vətən sənin deyil. Sabir Rüstəmxanlı isə Vətəni Qan Yaddaşı, Bölünməyən Torpaq, Sönməyən Ruh, Qopuz Səsi-Şaman Duası, Dədə Qorqud Yurdu, Dünyanın beş qitəsinin beşində də izi olan müqəddəs bir varlıq kimi dərk edir.

*Məni bir osağa, kəndə, rayona,*
*Bir dağ arasına,*
*dərə dibinə,*
*Balasa vadiyə,*
*balasa yola,*
*Balasa dünyaya bağlama əsla!*

Odur ki, Dağlıq Altayda oxunan şaman duası ona Tanrı nəfəsitək yaxındı, anasının səsini xatırladır. Bu səs "qədim bir sevginin fəryadı kimi" ruhuna yaxındı. Bu səsdə "gündoğan eşqinin, yürüş eşqinin sədası gəlir". Ümumiyyətlə, S.Rüstəmxanlının poeziyasında səngavərlik ritmi ilə həzin layla səsi bir-birindən ayrılmazdır. Nisgili sonsuz dəniz, Gileyi dalğa-dalğa, Mahnı ilə ölməyi Tarix öyrədib xalqa.

*Qəmli "Qaragilə" mahnısı vardı,*
*Sözü ilmə-ilmə, vurğusu dən-dən.*
*Bürünüb anamın savan səsinə,*
*Göyərib anamın savan qəlbindən,*
*Ondan çoc-çox əvvəl doğma Təbrizin*
*Qanı selə dönmüş səngərlərindən.*



"Qaragilə" adlı bu şeiri oxuyanda nədənsə heç vaxt üzünü görmədiyim Təbrizin obrazı gözlərim qarşısında sanlanır. Qanlı köynəklərini bayrağa döndərən fədailərin son nəfəsini eşidirəm.

***Aç qapını, Qaragilə.***
***Qoy görüm qardaşın çiçək üzünü!***
***Anamın kədərli savan qəlbindən,***
***Təbrizin qan dolu səngərlərindən***
***Ayırma məni, Qaragilə, ayırma!***

Sabirin şeirlərini oxuyanda mən həm də Azərbaysan dilinin böyüklüyünü, bölünməzliyini, həm çiçək kimi zərifliyini, həm də qılıns kimi kəsərliyini hiss edirəm. Böyük şairimiz Əli Kərimin "Üçünsü atlı" poemasında Lermontovun dediyi sözləri xatırlayıram: "Bu gözəl dilini yaratmış güman, İlahi damağı çağ olan zaman". Sabir isə deyir ki: Torpağım ikiyə bölünən zaman Bu dil bölünməyən torpağım oldu. Sabirin şeirlərində ana dilimizin ordular sarsıdan güsü, tikanlı məftilləri, Araz sərhəddini qıran kəlmələri, Füzuli eşqindən divanəliyi dönə-dönə təsbit və təsdiq olunur. Ansaq bunlar deklarasiya deyil, bunlar Sabirin öz şeirlərində də poetik realizəsini tapır. Dilimizin sonsuz sayda emosional-ekspressiv çalarlarını Sabir bəyin şeirlərində axtarın. Həkim gəldi- qış günündə bir ağ çiçək! Nə gözəl bənzətmədir Dünya gözümdən düşüb Bir damla göz yaşıtək.. Burada həm bənzətmə, həm də metafora var. Parlaq metaforaya yenə bir misal: Bu balasa dünyada Ayaqlarım yol əkir Yollar da gesəgündüz Sənin yanına çəkir. Sabir Rüstəmxanlının şeirlərində bədii ifadə vasitələrinin zənginliyi də diqqətdən yayınmır. Onun "Təbrizlə görüş" şeirində bədii xitab nitqin başlısa funksiyasını üzərinə götürür. Bu xitablarda sanki Təbrizin tarixi oxunur: Çörəyi bol, qisməti az Təbrizim! Göz yaşına öyrənsəli Təbrizim! Azadlığın ilk səngəri Təbrizim! Tarixlərin şah əsəri Təbrizim! Bu dünyanı yola salan Təbrizim! Güllə dəymiş söz bayrağım Təbrizim! Zaman gedir, ayağa dur, Təbrizim! Bəzən bu xitablar sırf elegik bir dona bürünür. Amma bu elegiya sızıltıya çevrilmir. Kədərlə, göz yaşı ilə optimizm bir-birinə yoldaş olur.

Çox şeirlərində "mən kəndli oğluyam" deyən Sabir təbiəti də dilləndirə bilir.Bu misralara diqqət yetirin:

***Bu yağış qəribə yağışdı, allah,***
***İşləyir adamın ürəyinəsən.***
***Təbiət ağlayır adamdan betər,***
***Heç belə qırmızı göz yaşı olmaz.***
***Bir çılpaq ağasdı ortada qalan***
***Sanlıdı,-***
***Sanlıdan baş daşı olmaz!***
***Çiynimə bir yarpaq qonur astasa-***
***Bəlkə də ömrümün xəritəsiydi.***

Sənin dodağından qopan ahlardı Kədər buludutək məni bürümüş! Füzuliyanə deyilib. İmkanım olsaydı, Sabirin sevgi şeirlərindən, bu şeirlərin hər birinin özəlliklərindən söz açardım. Deyərdim ki, indi usuz sevgilərin meydan suladığı bir çağda Sabirin bir vaxtlar məhəbbətdən alışıb yanan misralarını oxuyun.

***Səni gözləyirəm, səni, tək səni,***
***Ağaslar çiçəyi gözləyən kimi.***
***Məhbus azadlığın ilk səhərini,***
***Dünya gələsəyi gözləyən kimi.***

Sabirin Vətən, Millət deyə haray çəkən şeirlərində isə bədii nitqin çaları öz ahənginə görə seçilir. Poetik təhkiyə kinayə, qəzəb, etiraz, ittiham donuna bürünür. Yenə də bədii xitablar, bədii suallar bu poetik təhkiyədə başlısa ifadə vasitəsi kimi diqqəti səlb edir. Salam, Gənsə qapısı, qürbətdəki qardaşım! Salam, duzum, çörəyim, poladlaşan göz yaşım! Sabirin poeziyasında nifrət çalarlarına rast gəlmədim. Şair kiməsə nifrət edə bilməz! Mən belə düşünürəm. Ansaq qəzəb, çılğın həyəsan tonu yetərinsədir. Ona həsr etdiyim bir yazıda demişdim ki, poeziyanın bir missiyası da yaralara toxunmaq, bu yaraların kökünü, qaysağını işığa çıxarmaqdır. Bu işıqda "qələmiylə, yazısıyla xalqa ləkə yaxanlar, bir tarixçi diplomuçun tariximizi yıxanlar", Vətən çörəyini yeyib onun bir yıxılı daşını qaldırmağa qeyrəti çatmayanlar, "kökümüzü farsa çəkən, işimizi tərsə çəkən nökər ruhlu haramzadalar" nesə miskin görünürlər. Bu misralara diqqət edin: "Bu şəhərdə nə qədər "Zavağzalnı" olarmış? "Perevalnı" olarmış? "Otunsu Paralelnı", "Otuzunsu Bazarnı" Niyə usuz görmüşük bu küçə bazarını? İndi paytaxtımızın küçələrindən keçəndə yad dildə alışıb yanan reklamları görəndə Sabirin çox-çox əvvəllər yazdığı həmin şeiri xatırlayıram.

S.Rüstəmxanlının şeirləri barədə çox danışmaq olar. Amma mən sözümü kəsə eləyib sonda onun "Söz" şeirini yada salıram. Sabir deyir ki: Söz ki usuzlaşıb dəyərdən düşür Elə bil bir igid yəhərdən düşür. Belində kəmər yox, başında papaq, Bugünkü şeir meydanında çubuq atlarıyla ora-bura çaparaq gedən, nətisədə təmiz suyu bulandıranlar çoxdu. Yenə də əvvəlki illərdə olduğu kimi mədhiyyəçilik baş alıb gedir. Kütləviləşmə, bir-birinin dimdiyindən söz qoparıb onu min dəfə təqlid edənlərin sayı-hesabı yox.. "Qloballaşma" adı ilə milli şeirimizin ərazisində xarisi markalı "izm"ləri besərdənlər də az deyil. Belə də Füzuli qovrulur öz məzarında Sabir də hallanır söz bazarında. Belədə:

***Qaldırıb ayaqdan iyrənsi sözü,***
***Qapılar dolaşan dilənçi sözü***
***Sürtük dodaqları dağlamalıyam,***
***Hər söz məzarına ağlamalıyam!..***
***Tarixin günahı, vaxtın suçudu,***
***Sözün xəstəliyi yoluxsudu.***
***Yurdun azadlığı sözdən başlanır,***
***Ürəkdən başlanır, gözdən başlanır.***

## Xalq yazıçısı Elçinin məzarı ziyarət olunub



**Anadan olmasının 83-cü ildönümü münasibətilə Azərbaycanın Xalq yazıçısı, dövlət və siyasi xadimi Elçin Əfəndiyevin I Fəxri xiyabanda məzarı ziyarət olunub.**

Yazıçının ailə üzvləri, sənət yoldaşları, dostları onun xatirəsini anaraq məzarı üzərinə güllər düzüblər.

Tədbirdə Mədəniyyət nazirinin müavini Səadət Yusifova, Xalq yazıçısı Anar, Xalq yazıçısı Çingiz Abdullayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov, Teatr Xadimləri İttifaqının sədri, xalq artisti Hacı İsmayılov, teatrşünas-tənqidçi, əməkdar incəsənət xadimi İlham Rəhimli, Yazıçılar Birliyinin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi Səlim Babullaoğlu çıxış edərək, Elçinin Azərbaycan ədəbiyyatına və ictimai-siyasi həyatına verdiyi töhfələrdən danışıblar.




Çıxışlarda Elçin Əfəndiyevin şəxsiyyəti, yaradıcılığı, zəngin irsi, milli-mənəvi dəyərlərə bağlılığı, dövlətçilik fəaliyyəti xüsusi vurğulanıb.



Yazıçının qızı, Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva ailə üzvləri adından tədbir iştirakçılarına minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Elçin Əfəndiyev 1993-cü ildən 2018-ci ilə qədər Azərbaycan Baş nazirinin müavini vəzifəsində çalışıb. "Şərəf", "Şöhrət", "İstiqlal" ordenlərinə, eləcə də "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülüb.

**O, ötən ilin 3 avqust tarixində 82 yaşında vəfat edib.**

## "The Simpsons" bunu da bilib

**"The Simpsons" çoxseriyalı animasiya filminin yaradıcılarının kruiz gəmisində hantavirus yayılmasını öncədən "proqnozlaşdırdığı" iddia olunub.**

Adalet.az xəbər verir ki, buna Böyük Britaniyanın "The Daily Mirror" qəzeti diqqət çəkib.

Nəşrin məlumatına görə, 2012-ci ildə yayımlanan "Simpsonlar"ın 23-cü mövsümünün 19-cu seriyasında ailə başçısı Homer həyat yoldaşı Marj və üç övladı Bart, Liza və Meqqi ilə birlikdə kruiz gəmisində səyahət edir.

Birdən onların dənizdəki istirahəti siren səsləri və televizor ekranında general Uilyam Sallivanın videomüraciəti ilə yarımçıq qalır. General sərnişinlərə "Pandora" adlı ölümcül virusun sürətlə yayıldığını bildirir. Bundan sonra gəmidə panika başlayır.

"Simpsonlar" ABŞ televiziya tarixinin ən uzunömürlü animasiya serialı hesab olunur. Layihə "Gracie Films və 20th Century Fox Television" tərəfindən istehsal edilir.



# BAYAT

№ 83 (943)





*Zəka Vilayətoğlu*

## ÖMRÜ

Öyünməsin boranıyla, qarıyla,
badam çiçək açıncadır, qış ömrü!
Perikdirmək istəyənlər olubdur,
Çox daş atıb, sinəmdəki quş ömrü!

Ürək torpaq, arzularım dən olub,
gec olsa da cücərən, bitən olub,
xoş niyyətə, sevgiyə vətən olub,
yaşayıram bu inamla xoş ömrü!

bəlkə qardır, bəlkə duman, bəlkə çən,
ya Günəşdir zirvəsində gözləyən?!
Olsa da çox, yaxşı-yaman söyləyən,
Aram-aram qalxıram yoxuş ömrü!

## GÖRMƏYƏ

Getmək istəyirəm kəndimizə mən,
Can anam, bircə yol səni görməyə!
Mən sənsiz özümü görə bilmirəm,
sənin gözlərinlə məni görməyə!

Getmək istəyirəm, qaça-qaça mən,
Quş tək qanadlanıb uça-uça mən,
Səni qollarımla quca-quca mən,
Qara saçlarında dəni görməyə!

Öpəm, saçlarının qışından, anam,
qocalan ömründən, yaşından, anam,
baxıram həyatın qaşından, anam,
əzəlki şənliyi, şəni görməyə!

Kəndə, qalmayıbdır dadı, getməyin,
daha ayrılıqdır adı, getməyin,
Sən yoxsan, yandırır odu, getməyin,
Göz gərək, odlanan təni görməyə!

## İGİDLƏR

Duyğularım hey mənimlə davada,
Hələ barıt qoxusu var havada.
Siz sıngərdə, bizsə isti yuvada,
haqqınızı halal edin, igidlər!

Eniş-yoxuş bilmədən yürüdünüz,
Düşmənləri alova bürüdünüz!
Siz oldunuz hər zaman ümüdümüz,
haqqınızı halal edin, igidlər!

Alnınıza yazılanlar əsərdir:
bu, igiddir, bu cəsurdur, bu mərddir.
Hər ağrınız, hər acınız bir dərddir,
haqqınızı halal edin, igidlər!

Vətən borcu Tanrıya borc kimidir,
Bilən bilir, kim qazanır, kim udur!
Mənim sizdən arzum, diləyim budur,
haqqınızı halal edin, igidlər!

O baş, bu baş, - hey gedirəm, gəlirəm,
Gündə yüz qol doğuluram, ölürəm!
İgid olmur hər doğulan, bilirəm,
haqqınızı halal edin, igidlər!

Qanınızla ətirləndi bu torpaq,
Çiçəkləndi, çətirləndi, bu torpaq,
Əzizləndi, xətirləndi, bu torpaq,
haqqınızı halal edin, igidlər!

## GƏLDİN

Hürkmüş ceyran kimi çıxdın qarşıma,
Bərədənmi keçdin, dağdanmı gəldin?
Görüncə hüsnünü, şaşırıb qaldım,
Bilmədim, soldanmı, sağdanmı gəldin?!

Aşiq gərək eşqə qorxmadan yana,
Gülüşün məlhəmdir yaralı cana.
Gül kimi yayılıb ətrin hər yana
Çəməndənmi gəldin, bağdanmı gəldin?!

Günəş tək yarırsan dumanı, çəni,
Gözlər nurla dolur, görəndə səni.
Etmisən yolumdan, izimdən məni,
Taledənmi gəldin, baxtdanmı gəldin?!

Ey hərdən gilavar, ey hərdən xəzrim,
Vardır, vüsalına yetməkçün nəz(i)rim.
İncitsə sözlərim, yox deyil "üzr"üm,
Şeytandanmı gəldin, Haqdanmı gəldin?!

## GÖZLƏRİMDƏ

İstədim gül alam bu gün mən sənə,
Çox solğun göründü gül, gözlərimdə.
Deməyə nə gərək, sənki bilirsən,
O kimdir - ən gözəl gül, gözlərimdə?!

Səni seməк mənim xoş adətimdir,
Sevgi din-imanım, ibadətimdir,
Üzündə gülüşün səadətimdir,
Şadlan gözlərimdə, gül, gözlərimdə!

Gözəldir, eşqində batmaq, boğulmaq,
Zəka tək dünyaya bir də doğulmaq!
Sevgin axıb dolur, hey irmaq-irmaq,
Dərya gözlərimdə, göl, gözlərimdə!..

## YERİDİR

Gəzib axtarmağa yoxdur həvəsim,
Gözlərin ağlımın itən yeridir!
Hər sözün, söhbətin ayrı füsundur,
Gülüşün güllərin bitən yeridir!

Hələki bu canım diridir, sağdır,
Səninlə kefim kök, damağım çağdır.
Dünya bir cənnətdir, çiçəkli bağdır,
Könlümün bülbül tək ötən yeridir!

Zəka ümidlənib çıxıbdır yola,
Pənahım Tanrıdır, nə ola, ola!
Qoymaram qəriblik çəkə, sozala,
Ürəyim eşqinin vətən yeridir!

## SIĞINIR

Qartala çox həsəd aparma, könlüm
Gün gəlir, qartal da yerə sığınır!
Milyonlarla insan, milyonlarla can,
Bir olan Tanrıya, Birə sığınır!

Kimin ki sərvəti, cah-cəlalı var,
Başında o qədər qeylü-qalı var,
Hərənin bir istək, bir amalı var,
Biri xeyrə, biri şərə sığınır!

Yaşamam ömrümü, yarınmaq üçün,
Kiminsə bağından barınmaq üçün,
Odlu şimşəklərdən qorunmaq üçün,
Dağların qoynuna dərə sığınır!

Həyatdır, dadında şirin, acı var,
Min dərdin, sonunda bir əlacı var..,
Hamının sığınmaq ehtiyacı var,
Zəka musiqiyə, şeirə sığınır!

## BU YURDA

Bir kərə də üzümə kəc baxmayıb,
Qoynunda çox xatirəmi saxlayıb,
Ayrılanda ürəyim qan ağlayıb
Çox bağlıyam bu torpağa, bu yurda!

Kimliyimi burda yaxşı bilirəm,
Uşaq kimi ağlayıram, gülürəm.
Göz yaşımı gülə-gülə silirəm,
Çox bağlıyam bu torpağa, bu yurda!

Hər ürəyin bir cür dərdi-səri var,
Ümidi var, inancı var, piri var,
Bir anamı itirsəm də, biri var,
Çox bağlıyam bu torpağa, bu yurda!

Suyu məlhəm, yeri cənnət, göyü nur,
Köksüm altda ürək kimi döyünür,
Haqqı var ki, Zəka onla öyünür,
Çox bağlıyam bu torpağa, bu yurda!

## GÖZLƏRİN GÖZƏL OLMASA

"Yıxıldım", bir baxışından,
gözə gəlmək əgər busa,
deyərdim ki, bədnəzərdir,
gözlərin gözəl olmasa!

Bənzərsən kəskin qılınca,
can sevinir, sən alınca.
Gəlmərəm ki heç dalınca
izlərin gözəl olmasa!

Baxmam, çoxuna, azına,
Qurbanam yazı yazana,
dözə bilmərəm nazına,
"döz"lərin gözəl olmasa!

Ruhum yerlərdə sürünər,
toza, dumana bürünər,
Eşqim alışmadan sönər,
közlərin gözəl olmasa!

## GƏZİRSİZ

Arılar, əllərim çiçəkmi açıb
Tozmu axtarırsız, balmı gəzirsiz?
Ovcumda qarışıq xətlər boyunca
Yaşılmı gəzirsiz, almı gəzirsiz?

Sizə məhəbbətim bal kimi şirin,
Çay kimi axarlı, göl kimi dərin,
Eşqdir tək dərdi divanələrin,
başınızda qeylü-qalmı gəzirsiz?

Əlim çəmən deyil, nə də ki gülşən
Gəzib-dolaşırsız, ovcumda şən-şən.
Sizin eşqinizdir könlümə düşən
Ovcumdan könlümə yolmu gəzirsiz?

## XALLANIB GEDƏR

Mənim də könlümün yağışları var,
Yağar, çaylar kimi sellənib gedər.
Eşqimin min rəngdə naxışları var,
Sənin saçlarında güllənib gedər.

Açılar səhərin nur dolu gözü,
Gizlətmə Günəşə bənzəyən üzü,
Bir kəlmə can alan "sevirəm" sözü,
Sənin dodağında ballanıb gedər.

Çağlayar gözündə büllur bulaqlar,
Busəyə təşnədir, nəmli dodaqlar,
Bircə baxışımdan göyçək yanaqlar,
Bir anda qızarar, allanıb gedər.

Sən mənim könlümün şirin nəğməsi,
Sən həyat sevinci, həyat nəşəsi.
Yayılar, aləmə car olar səsi,
Eşqin ürəyimdə xallanıb gedər.

## DÖNSÜN

Mənə gülüşündən bir çiçək göndər,
Qoxlayım, könlümdə nəğməyə dönsün.
Elə alışım ki, elə yanım ki,
Ürəyim yanıqlı bir neyə dönsün.

Mənim məhəbbətim bəlli yaşdadır,
Qara gözlərdədir, qara qaşdadır,
Şehli öpüşlərin dadı başqadır,..
Yanağın allanıb, laləyə dönsün.

Ağlım, huşum gedib, sənə uyunca,
Yürüdüm yollarda, bir eşq boyunca,
İçim gülüşünü, içim doyunca,
Badəmdə eşq adlı bir meyə dönsün.

Bu eşqin yükünü birgə daşıyaq,
Ətirli gülünü sevək, oxşayaq,
Qıyma, ayrı düşək, ayrı yaşayaq,
Qoyma, xoş avazım naləyə dönsün.

## DƏLİSİDİR

Çəmənlər arının hərəmxanası,
çiçəklər arının sevgilisidir.
Çəkir hər çiçəyin nazını bir-bir,
Arı sevənlərin ən dəlisidir!

Sevir min çiçəyi, bir çiçək kimi,
Sanki bir az sonra öləcək kimi.
Bu günü yaşayır, gələcək kimi,
Arı da ayrı cür can dəlisidir!

Olsa da hər qətrə balın zəhməti,
Arı sevdasından əl üzməz qəti,
Yox özgə arzusu, özgə niyyəti,
Pətək dəlisidir, şan dəlisidir!

Arının gözüylə baxdım həyata,
Döndü gözlərimdə toya, büsata!
Tanrı bu duyğunu eyləməz əta,
Hər kim ki, ucuz ad-san dəlisidir!

## İNAM VERDİ

Nə qədər ki, məsum idim, günahsızdım,
Tanrı mənə "Həyat" adlı ənam verdi!
Nə qədər ki, körpə idim, qanadsızdım,
Uçmaq üçün qanadımı anam verdi!

Tanıdıqca bu dünyanın doğma-yadını,
Bildikcə mən həyatın hər cür dadını,
Qəlbimdəki yanğını, eşqin odunu,
Qaragözlü, gül çöhrəli sonam verdi!

Sıxıldıqca hərdən kədərin əlində,
Boğulduqca acıların gur selində,
Onun adı bir nəğmə oldu dilimdə,
Tanrı mənə heç ölməyən inam verdi!

Çox gəzib dolaşdı, göyün üzündə,
Yoruldu, bu gecə Ay bizdə qaldı.
Gəldi görüşünə, çox uzaqlardan,
Axdı şırıl-şırıl, çay bizdə qaldı!

Bu gecə başqa bir gecəydi, sonam,
Hər şey sevgiyəydi, eşqəydi, sonam,
Yanağını mənə Eşq əydi, sonam,
Öpdüm, busələrim ayüzdə qaldı!

Od yandı ürəkdə, od yandı başda,
Odlandı ürək də, odlandı baş da,
Qorxdu bu alovdan, bu oddan qış da,
Beləcə bir ömür yay bizdə qaldı!

## DƏRD

Verdiyin dərdə bax, Allah,
Elə bil, anamın özüdür!
Boyu lap anamın boyu,
Üzü lap anamın üzüdür!

Gör, nələr, nələrmiş, Allah!
Dərd də sevilərmiş, Allah,
Adam tək gülərmiş, Allah!
Gözləri anamın gözüdür!

Çiçək tək təzədi, tərdi,
Necə sevməyim bu dərdi?
Bir dərd ki, Allahım verdi,
Haqq olan Haqqın sözüdür!

Bu dərdi oxşayım, duyum,
Üzün göz yaşımla yuyum,
Başımı qoyum, uyuyum,
Dizləri anamın dizidir!

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 18 (2490) 15 may 2026-cı il

# 44 GÜNLÜK İKİNCİ QARABAĞ SAVAŞI AZƏRBAYCANI DÜNYAYA TANITDIRDI





**Döyüşkənlik, cəngi və qəhrəmanlıq heç də güclü dövlət olmaqla dəyərləndirilə bilməz. Çünki elə güclü dövlətlər var ki, ən zəif ölkələrlə müharibə edəndə belə gözləmədiyi yerdən zərbə alır və onun müəyyən hərbi problemləri üzə çıxır. Yəni böyük müharibələrdə heç də hər şeyi müasir texnika və texnologiya həll edə bilmir. Başqa sözlə demiş olsaq, müharibə aparan ölkənin çox peşəkar, çevik və yüksək hərbi xidmət keçmiş əsgərlərinə və ordusuna böyük ehtiyac var. Bu olmayan yerdə heç də qələbə asanlıqla qazanıla bilməz. Ən yaxşı halda o böyük dövlət hava hücumları ilə, təyyarələr, raketlərlə müharibə etdiyi ölkənin ərazilərinə zərbələr endirə bilər. Biz bunu İsrail-İran və Amerika müharibəsində, eləcə də Rusiya-Ukrayna savaşında da görmüşük.**

Görünən odur ki, Azərbaycan xalqı tarixən ən ağır müharibələrdə belə heç kimə güvənməyib. Yalnız özünə, öz hərbi qüvvəsinə, öz əsgərinə və öz ordusuna bel bağlayıb. Ataların belə bir məsəli var: "Özgə atına minən tez düşər". Necə ki ermənilər uzun illər rusların, fransızların və eləcə də digər Qərb ölkələrinin "atlarına" minmişdilər. Düzdür, bu "atlar" onları 30 il ora-bura apardı və axırda da dizləri yoruldu, yerə çırpıldı. Və üstündəki ermənilər də məhv oldu, onları müdafiə edən havadarları da. Biz dəfələrlə yazılarımızda qeyd etmişik ki, 44 günlük İkinci Qarabağ savaşı heç də elə-belə döyüşlərdən olmayıb. Çünki bu döyüşdə Azərbaycan tək ermənilərə qarşı vuruşmurdu və onları müdafiə edən nüvə dövlətlərinə qarşı döyüşürdü. Bu döyüşü, bu savaşı başlamaq və axıra çatdırmaq elə də asan deyildi. Bu barədə hətta ölkə prezidenti Cənab İlham Əliyev bu günlərdə Böyük Qayıdış Proqramına uyğun olaraq Zəngilana qayıdıb məskunlaşan və mənzil alan sakinlərlə görüşündə də danışdı.

Cənab Prezident dedi ki, müharibə başlayan ilk gündən nüvə silahına sahib olan ölkələr bu döyüşü dayandırmağa çalışırdılar. Onlar hər bir vasitədən istifadə edirdilər.

Amma o vasitələrin heç biri bizim və Azərbaycan Ordusunun möhtəşəm döyüşünün qarşısını ala bilmədi.

Əlbəttə, 2020-ci ilin sentyabrın 27-də başlanan İkinci Qarabağ savaşı düz 44 gün davam elədi. Ermənilərin özləri və havadarları heç vaxt düşünmürdülər ki, Azərbaycan 44 günə işğal altında olan əraziləri azad edəcək, erməni əsgərlərini iti qovan kimi ərazilərimizdən qovacaq və həmin azad olunmuş yerlərə Azərbaycan bayrağını sancacaqlar. Amma bunu Ali Baş Komandan, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu və Azərbaycan əsgəri bacardı. Onlar göstərdi ki, qüdrətli ordumuzun və əsgərlərimizin qarşısında ermənilərin heç bir silahlı qüvvəsi, gücü dayana bilməz. Çünki ordumuz uzun illər bu döyüşə , bu savaşa, bu müharibəyə hazırlaşmış, təlimlər keçmiş və ən müasir döyüş maşınlarının, yeni hərbi texnologiyanın sirlərini öyrənmişdilər.

Qırıcı təyyarələrimiz, artilleriya qüvvələrimiz yüksək peşəkar hərbçilər tərəfindən idarə olunurdu. Üstəlik də bizim xaricdən, daha doğrusu, İsrail və Türkiyədən aldığımız ən müasir silahlar hədəfləri çox dəqiqliklə vururdu. Artıq bunların hamısını döyüşün ilk günlərindən ermənilər hiss etməyə və görməyə başladılar. Ona görə də onlar müqavimət göstərə bilmir, mövqelərinin darmadağın olduğunu görür, döyüş texnikalarının birbir sıradan çıxdığını hiss edərək ölümdən qorxub döyüş mövqeyindən qaçırdılar. Daha doğrusu, onlar qüdrətli və güclü Azərbaycan əsgəri ilə qarşı-qarşıya gəlməkdən qorxurdular. Xüsusən də bizim Yaşmada hazırlanmış xüsusi təyinatlı əsgərlərimizin adı gələndə onların canına vəlvələ düşür və dabanlarına tüpürüb qaçmağa üstünlük verirdilər.

Təbii ki, müharibənin bir ayı ərzində, yəni oktyabrda artıq Cəbrayıl, Hadrut, Füzuli şəhəri azad olunmuşdu, Qubadlı, Zəngilan azad olunurdu. Bu sürətli hücum heç şübhəsiz, onu göstərirdi ki, Azərbaycan Ordusunun qarşısını düşmənin heç bir qüvvəsi ala bilmir. Bəzən bir gündə on-on beş yaşayış məntəqəsi ermənilərdən təmizlənirdi. Həmin mövqelərdə möhkəmlənən Azərbaycan əsgəri bu döyüşdən daha da ruhlanır, növbəti döyüşə qələbə həvəsi ilə atılırdı. Düzdür, onlar torpaqlarımızı azad edərkən bir salamat yer, bir dağıdılmamış məkan görmürdülər. Amma onlar onu görürdülər ki, ermənilər qaçır və torpaqlarımız azad olunur. O torpağın ətri, o torpağın qoxusu, o torpağın havası və suyu əsgərlərimizə çox böyük güc verirdi.

Əlbəttə, döyüşdən-döyüşə güc alan əsgərlərimiz artıq noyabrın 10-da böyük qələbə qazandı.

Belə ki Şuşa noyabrın 8-də azad olundu, Laçın dəhlizi Azərbaycan ordusunun nəzarətinə keçdi. Başqa sözlə demiş olsaq, qüdrətli Azərbaycan Ordusu artıq böyük qələbəni təmin etməyi bacardı və ermənilər məcbur olub Azərbaycan-Rusiya-Ermənistan Bəyannaməsinə təslim olmaqla bağlı imza atdılar.

Ancaq döyüşlərdə müharibə cinayətlərinin üstü açılırdı. Yəni ermənilər Azərbaycan torpağında bir salamat ev, bir məkan, bir kənd qoymamışdılar. Onların daşını, pəncərəsini, qapısını, dam örtüyünü hamısını qonşu İrana satmışdılar. Hətta qəbiristanlıqlarımızdakı qəbirüstü abidələrin, xüsusilə də mərmər daşların hamısını söküb dəyər-dəyməz qiymətə kimlərəsə vermişdilər.

Deyilənlərə görə, onlara rus əsgərləri hər evi 300 dollara satıblar. Ermənilər də o evləri söküb daşını, tikinti materiallarını daha baha qiymətə iranlılara veriblər. Bizim kənddən bir nəfər İranın Aslandüz yaşayış məntəqəsinə gedərkən tanışı iranlının evində öz evinin qapısını və xalçasını görüb. Deyib ki, bunlar mənimdi, iranlı da bildirib ki, bunları çox ucuz qiymətə ermənilərdən alıblar.

**Bax, ermənilər Qarabağ savaşında Azərbaycana yüz milyardlarla dollar dəyərində maddi ziyan vurublar. Biz bu maddi ziyanı Beynəlxalq Ədalət Məhkəməsində ermənilərdən tələb edə bilərik. Qoy canları çıxıb törətdikləri müharibə cinayətlərinə görə bizə dəymiş ziyanı ödəsinlər. Pulları yoxdursa onun əvəzində ərazilərini və torpaqlarını versinlər. Əgər biz bunu ermənilərdən tələb etməsək onların ağızlarında şirə qalacaq və elə biləcəklər ki, nə etsələr onun cəzasını almayacaqlar.**

**Emin FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə KƏRİMZADƏ*

# Ömrü qışa çevrilən Mömünat

**Bəzən insanların doğulduğu fəsil onların həyatına yansıyır, deyirlər. Bu nə qədər doğrudur, deyə bilmərəm. Amma həyatı boran-qar olan insanların ömür yolları heç də asan olmur. Ömrülərini ancaq fəda etmək üçün yaşayan insanlar da az deyil. Sənətini və özünü sevdiyinə fəda edən insanlardan biri də Mömünat Qurbanovadır. O, 8 dekabr 1958-ci ildə Buzovnada dünyaya gəlib. Çoxuşaqlı ailədə dünyaya gələn Mömünat çox dəcəl uşaq olub. Lakin buna baxmayaraq orta məktəbdə dərslərinə çox məsuliyyətli şagird olub.**

**Orta məktəbdə komsomol fəalı, özfəaliyyət kollektivinin, idmanın öncüllərindən biri kimi məktəbi bitirib sənədlərini indiki Mədəniyyət və İncəsənət Universitetinə verir.**

**Aktrisa olmağı qarşısına məqsəd qoyan Mömünat ailə həyatının da məhz bu sənətlə birləşəcəyindən xəbərsiz idi.**

**"Yeddi oğul istərəm" filminə baxan gündən aktrisa olacağını qət edir. Filmdə baş qəhrəmanlardan birini canlandıran Cəlalın şəklini otağının divarından asır. Obrazı canlandıran aktyor Ənvər Həsənov haqqında mətbuatda yazılan məqalələri, fotoşəkilləri bir qovluqa yığıb saxlayır.**



**Tale özü Mömünatın yollarını gələcək həyat yoldaşı Ənvər Həsənovla birləşdirir.**

**Belə ki, 1977-ci ildə Kamil Rüstəmbəyov və Şamil Mahmudbəyov "Dərviş Parisi partladır" filminə kino sınaqları keçirir. Mömünat eşidir ki, filmdə Şahbaz bəy roluna Ənvər Həsənov çəkiləcək. Filmin sınaq çəkilişlərində iştirak etmək üçün kinostudiyaya gəlir. Heç özü də bilmir ki, hansı rolun sınaq çəkilişində iştirak edəcək, sadəcə rejissorun gözünə görünmək istəyir. Sınağa gələn tələbə qızlar arasında Möminat Qurbanova K.Rüstəmbəyovun nəzərini cəlb edir. O, Ənvəri də çağırıb deyir ki, bax gör bundan sənə Şərəfnisə olar? Ənvər "elə olar", - deyə yarızarafat cavab verir. Sınaq çəkilişlərindən də Möminat qalib çıxır, Şərəfnisə roluna təsdiq olunur.**

**Məhz bu film onların həyatında sözün əsl mənasında dönüş nöqtəsi olur.**

**Gənc aktyorların münasibətləri elə bu filmdə başlayır. Filmin çəkilişləri başa çatan kimi cütlük nişanlanır. Mömünat 1978-ci ildə institutu bitirib Ənvərlə ailə qurur, azad təyinat alır.**

**Onların Aytən adlı qızları dünyaya gəlir. İkinci uşağın doğulması Mömünatın həyatı üçün təhlükəli olduğundan Ənvər bəy buna razı olmur.**

**Özü bu sənətdə olsa da həyat yoldaşının aktrisa olmasını istəməyən Ənvər Həsənov Mömünat Qurbanovanı bu sənətdən uzaqlaşdırır. Mömünat xanım isə artıq aktrisa olmayacağı ilə barışır.**

**Ancaq tale ona daha bir yolu açır. Şeyx Əbdül Mahmudbəyov aktrisanı Qaçaq Nəbidən bəhs edən "Atları yəhərləyin" filmində Həcər roluna dəvət edir. Həsən Turabov və Şeyx Əbdül aktrisanın həyat yoldaşına deyirlər ki, əgər o, razı olmasa Mömünatı qaçırıb ondan gizlin filmə çəkəcəklər. Aktyor əvvəl etiraz edir, azyaşlı uşaqlarının olduğunu deyir. Ancaq ona deyirlər ki, lazım gəlsə, uşağa da baxa bilərlər, təki, Mömünat həmin filmə çəkilsin. Razılaşmaqdan başqa çarəsi qalmayan aktyor da həmin filmdə Sirac roluna çəkilir. Həsənağa Turabovun Həcərlə olan əksər mehribançılıq səhnələrində isə qrimlənərək özü çəkilir.**

**Onlar mehriban bir ailə kimi ömürlərinin sonlarınadək birlikdə yaşayırlar. Ancaq həmişə tale gözəl sürpriz hazırlamır. Şad günü qəmə çevrilən aktrisanın həyatında burulğan baş verir.**

**Belə ki, Mömunat Qurbanova 2008-ci il dekabrın 8-də 50 yaşını qeyd etmək üçün ailəsi ilə birgə Nabrana gedir. Onlar Nabrandan geri qayıdarkən qəzaya düşürlər.. Mömunat dünyasını dəyişir.**

**Boranlı qış günündə dünyaya gələn aktrisa Mömünat Qurbanova ilə boranlı qış günündə də bu dünyada əbədi gözlərini yumur...**

# RUHLAR

**(əvvəli 10-cu səhifədə)**

Firiddun əminin dedikləri isə tam başqadır.

Rus - Alman müharibəsindən üç il sonra kənddə orta məktəbi bitirib neft buruqlarında işləmək üçün Bakı şəhərinə üz tutdum. Yola düşməzdən bir gün əvvəl bir sinifdə oxuduğum, - ürək, könül verdiyim Səriyyə ilə də hava qaralandan bir qədər sonra bağlarının ətəyində görüşdüm. Hər ikimiz söz verdik, evlənmək, ailə qurmaq ümüdilə bir-birimizdən ayrıldıq. Heç üç, dörd addım aralanmamış onun səsinə çevrildim.

Firiddun, mən səni ömrümün sonunadək gözləyəcəm, - deyib gecənin qaranlığında bir kəpənək kimi uçaraq görünməz oldu. Əynində iri, qara xalları olan ağ ipəkdən don var idi. Bu don ona çox yaraşırdı.

Demək olmazdı ki, Bakıda işim alınmırdı, yüksək maaş, yataqxanada da yerimiz. Gəncliyimizi də töhvə vermirdik... Ara-sıra Səriyyə ilə də məktublaşırdım. Qardaşlarından qorxduğu üçün o, az-az yazır, mən də salamımı və sözümü bacıma yazdığım məktublarda, bacım vasitəsi ilə ona çatdırırdım...

Hərbi xidməti Tümendə başa vurub, orada da işlə təmin olundum. Bir neçə il işlədikdən sonra əslən Azərbaycandan olan bir ailənin qızı ilə ailə həyatı qurdum...

Bu müddət ərzində amma da tez-tez maddi köməklik göstərirdimsə də, kəndimizlə əlaqəm, gediş-gəlişim deyərdim ki, tamamilə kəsilmişdi. Xanımımla xoşbəxt idik. Yeganə nigarançılığımız övladımızın olmaması idi.

Uzun illərdən sonra məzuniyyətimizi Bakı şəhərində keçirmək qərarına gəldik, kəndimizə baş çəkəcəyimiz də istisna deyildi.

... Bakıda bir gənclik dostumla görüşüb dərtləşdikdə o, bildirdi ki, Səriyyə ilə görüşüb halallıq alsan, çox güman ki, uşağınız da ola bilər. Verilmiş məsləhət ağlıma batdı. İki gündən sonra "İkarus"la rayonumuza yola düşdüm. Yol uzunu Səriyyə və onunla keçirdiyim birgə anları bir sinema lentası kimi göz önündən keçirirdim. Sanki, ona evlənməkdə günah işlətdiyimi, ədalət tərəzisində ölçərək hərəkətlərimi götür-qoy edirdim. Deyim ki, əvvəllər belə hisslər heç keçirməmişdim. Düşüncəm məni "parçalayır", sinirlərimi nizamlamaqda çətinlik çəkirdim, elə bil ki, bədənim maşında, əsil özüm isə tamami ilə ayrı bir dünyada idim, hətta dediyinə görə yanaşı əyləşmiş yol yoldaşımın da bir neçə dəfə müraciətlərimə məhəl qoymamışdım.

Yevlax şəhərinə çatıb, yol ayrıcından sola dönərkən, sağ tərəfdəki dayanacaqda qəflətən onu gördüm... Bu o, idi. Səriyyə!

Görüşüb ayrıldığımız həmin gecə hansı donunu geymişdisə, elə həmin ağ qara, xallı donu yenə də əynində idi. Neçə illərdən bəri bu donunu necə qoruyub təzə saxladığına da təəccüb etdim. "İkarus"u necə saxladıb düşdüyümü unutmuşam. O, dayanacaqdakı insanlardan xeyli aralıda, tənha bir yasəmən ağacı kimi dayanmışdı. Görüşümüzdən sevindimi, sevinmədimi, tövrü dəyişdimi, dəyişmədimi bunu heç ayırd edə bilmədim, amma o, həmin Səriyyə idi. Gənc və gözəl! Ancaq bu neçə illər ərzində onun heç dəyişmədiyinin fərqinə varmaq halında deyildim. Salamlaşdıq. Gəlişimin məqsədindən xəbəri varmış kimi, qabaqladı məni. Dil-ağız edib, xeyir duasını verdi. Görüşümüz yox, məhz onu uzun ayrılıqdan sonra-axtarıb, aramağım bir yüngüllük gətirdi ona. Təbəssümsüz, filansız dedi ki, kiçik qardaşım Fazili tanıyırsan, gələn həftə onun toyudur, iştirak etsən, mənə də xoş olar. İndi isə mənim yolum başlayır, camaat da baxır, yolundan qalma, di yaxşı yol.

Heç, necə ayrıldıq bilmədim...

Əsil dəhşətli, ömrüm boyu məni sarsıdacaq xəbəri isə Fazilin toyunda, onun böyük qardaşı Lazım kişidən eşitdim. Mənim Tümendə evlənmək xəbərimi eşidəndən altı ay sonra Səriyyə dünyasını dəyişmişdi... İlahi bəs kiminlə görüşmüşdüm görəsən?! Mən yaşda insanı qaramı basmışdı?

Bu hadisədən bir il sonra yeganə oğlum Fuad dünyaya göz açdı... Mən isə o vaxt görünür ki, Səriyyənin ruhu ilə görüşmüşəmiş. Heç fikir vermisinizmi, aydın səmada nəhəng ağ və qara rəngli buludlar (əslində bu nə buluddu nə duman, nə də tüstü. Şəffaf rəngli bir parıltıdır) birbirinə tərəf tələsmədən, tənbəl-tənbəl hərəkət edirdilər. İlk baxışda iki düşmən ordusunun hücumu canlanır göz önündə. Və bu "Ordu" üz-üzə çatıb gəldikləri sürətdə də toqquşurlar.

Nəticədə səma həmən ağ şəffaflığa bürünür, sanki qara şəffaflığı öz bətnində əridir ağ buludlar.

Nədir bunlar: Cənnət və cəhənnəm ruhlarının birinin digərinə qarşı hücümumu, ya onların mübarizəsimi?! Əgər bunlar biri digərini öz içində əritsəydi, onda səmaənginliklərinin də balansı pozulmazdımı?!

Möcüzəli bir sirdir! Ya da okeanı andıran, elə oken rəngli bir buludun tən ortasında nəhəng bir göbələyin gövdəsini andıran ağ bir bulud çıxaraq kəndir kimi uzandıqca uzanır, göyün dərinliklərinə yüksəlir. Bəs bu nədir, - islah olunub cənnətə buraxılanlarmı?!

Ruhlar biri-birinə işıq saçan küreçik şəklində görsəndikləri halda, canlı insana, insan şəklində görsəndiklərini vurğulayıb yazıma son söz demək fikrinə düşdümsə də bu fikrimdən tez də yayındım.

**Hər kəsin və hər şeyin əvvəli kimi sonunu da bir olan Allahı bildiyim kimi, mən də belə deməklə kifayətlənməli oldum:**

**Yaxşısını Allah bilər!**

# Azərbaycan filmi İtaliyada beynəlxalq festivalda təqdim olunub

**Səbinə Zülalovanın "Marytale. İnklüziv möcüzələr" nağılının ekranlaşdırılması İtaliyada keçirilən "Rome Prisma Film Awards" beynəlxalq festivalında təqdim olunub və sertifikat əldə edib.**

Qısametrajlı filmin çəkilişlərində Daun sindromu olan üç uşaq iştirak edib. "Rome Prisma Film Awards" beynəlxalq film festivalı 2018-ci ildə Romada təsis edilmiş Avropa müstəqil film festivalıdır.

İtaliya paytaxtının tarixi kinoteatrlarının platformalarında keçirilən festival 150-dən çox ölkədən rejissorları, ssenaristləri və prodüserləri bir araya gətirir. Təşkilatçılar humanizm, mədəni dialoq və kinonun emosional gücü ideyalarına xüsusi diqqət yetirirlər. Layihənin müəllifi S.Zülalova AZƏRTAC-ın müxbiri ilə söhbətində Azərbaycan




kinosunun beynəlxalq səhnələrdə təmsil olunmasının vacibliyini qeyd edib: "Bu, kinematoqrafiyamızın təbliği və müstəqil ekspertlər tərəfindən Azərbaycan yaradıcı insanlarının qiymətləndirilməsidir. Azərbaycanı beynəlxalq platformada təmsil etmək mənim üçün böyük fərəh idi". Layihə müəllifinin sözlərinə görə, festivalda iştirak etmək xüsusilə əlamətdar hadisəyə çevrilib.

"Filmdə lal-kar rəssam rolunu canlandıran qızım Saimə Mədətova məni festivala müşayiət edib, o da mükafata layiq görülüb. Onun filmin yaradılmasına verdiyi töhfələrdən biri də subtitrlərin ingilis dilinə tərcüməsi olub. Müstəqil beynəlxalq ekspertlər tərəfindən festivala seçilməyimiz işimizə verilən qiymətin təsdiqi idi", - deyə müsahibimiz vurğulayıb. S.Zülalova layihəyə dəstək olduqlarına və filmin yaradılmasında iştirak etdiklərinə görə Azərbaycanın Xalq artisti Həmidə Ömərova və tanınmış aktyor Azər Aydəmirə minnətdarlığını bildirdi.

Qeyd olunur ki, Azərbaycan Respublikası Kino Agentliyi tərəfindən verilən qrant əlavə səhnələrin çəkilişini başa çatdırmağa və filmin dramaturgiyasını əhəmiyyətli dərəcədə artırmağa, eləcə də filmin Azərbaycan Dövlət Film Fondunda saxlanmasına imkan yaradıb.

# PSJ davadan sonra onu hədəfə aldı

**PSJ "Real"ın aparıcı futbolçularından olan Federiko Valverde üçün hərəkətə keçib.**

QOL.az xəbər verir ki, jurnalist Markos Benitonun məlumatına görə, Paris klubu artıq uruqvaylı yarımmüdafiəçinin nümayəndələri ilə əlaqə saxlayıb. Bildirilir ki, PSJ-nin futbolçuya marağı Valverdenin ötən həftə komanda yoldaşı Aurelien Tçuameni ilə yaşadığı insidentdən sonra ortaya çıxıb. Qeyd edək ki, onlar arasındakı münaqişə zamanı futbolçu yıxılaraq masaya dəyib və kəllə-beyin travması alıb.

Xatırladaq ki, Valverde bu mövsüm 48 oyunda 9 qol və 13 məhsuldar ötürmə ilə yadda qalıb.

**ELAN**

**Abbasov Aqil Məhəmməd oğlunun Bakı şəhəri Səbail rayonu Badamdar qəsəbəsi Əziz Nəzərov 38 ünvandakı şəxsi evinə verilmiş mülk çıxarışı itdiyi üçün etibarsiz sayılır.**

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 278
Çapa imzalanmışdır: 14.05.2026